

# PSİXOLOGİYA JURNALI

*Elmi-praktik jurnal*

*1999-cu ildən nəşr olunur* **2021 №4** *3 ayda bir dəfə nəşr olunur*



Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..........5

***Elnur Rüstəmov***
Nizami Gəncəvi irsinin kredosu: dünya, insan, zaman..........7

***Hökümə İmran qızı Əliyeva***
Nizami Gəncəvi – əsri cavanlaşdıran nəfəsin xəzinədarı kimi..........12

***Ramiz Əliyev, Gülşən Mahmudzadə***
Nizami yaradacılığında kamil şəxsiyyət problemi..........16

***Məhəbbət Dəyirman qızı Dəmirçiyeva***
Nikah yaşınaçatma nikahın bağlanılmasının zəruri şərtlərindən biri kimi..........25

***Qızxanım Nizaməddin qızı Qəhrəmanova***
Nizami Gəncəvi: XII əsr psixoloji fikrin dühası kimi..........34

***Ülviyyə Akif qızı Əfəndiyeva***
Nizami Gəncəvinin yaradıcılığında gender məsələləri..........37

***Qurbanova Lamiyə Mehdi qızı***
Nizami Gəncəvi əsərlərində psixi sağlamlıq təminatçısı olan psixogigiyena qaydalarına dair tövsiyələr..........44

***Nurəngiz Tofiq qızı Rzayeva***
Azərbaycan psixoloji fikir tarixi və N.Gəncəvinin psixoloji konsepsiyası. ....................................................................50

***Qəribə Vahid qızı Rəhimova***
Nizami Gəncəvinn yaradıcılığında gənclik yaşı dövrünün psixoloji xüsusiyyətləri ....................................................................58

***Sona Əliyeva***
Nizami Gəncəvi yaradıcılığında təfəkkürün tənqidiliyi məsələləri ..........65

***Gülər Məmmədova***
Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərində şəxsiyyət və şəxsiyyətlərarası münasibətlərin psixoloji səciyyəsi ................................70

***Rəna Qasımova***
Nizami Gəncəvinin əsərlərində yaş psixologiyası məsələləri...................77

***Nigar Muradova***
Nizami Gəncəvi yaradıcılığında insani keyfiyyətlərin analizi..................81

***Könül Məmmədova***
Nizami Gəncəvinin idrak prosesləri haqqında baxışları ...........................85

***Günəş Əfəndiyeva***
Nizami Gəncəvinin əsərlərində ailədaxili münasibətlərdə tərbiyə məsələləri ......................................................................................91

***Simnarə Heydərova***
Nizami Gəncəvinin "Sirlər Xəzinəsi" əsərində şəxsiyyətin mənəvi tərbiyəsi məsələləri .........................................................................94

***Könül Həsənquliyeva***
Nizami Gəncəvinin yaradıcılığında şəxsiyyətin mənəvi təkmilləşməsi prosesinə ailə tərbiyəsinin təsiri məsələləri .......................98

***Ələkbərova Şəfəq***
Nizami Gəncəvinin yaradıcılığı ............................................................102

***Rüstəm Kərimov***
Nizami Gəncəvinin Azərbaycan xalqına və
dünya ədəbiyyatına töhfəsi ...................................................................105

***Tamilla Həsənova***
Nizami Gəncəvi yaradıcılığında psixoloji məqamlar .............................108

# Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

05 yanvar 2021, 12:10

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış “Xəmsə”si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş “Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” qərar

Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Nizami Gəncəvi İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 5 yanvar 2021-ci il

UOT 159.9.2.316.37

# NİZAMİ GƏNCƏVİ İRSİNİN KREDOSU: DÜNYA, İNSAN, ZAMAN

**Elnur Rüstəmov,**
*Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri, fəlsəfə üzrə fəl.dok*
*elnur013@yahoo.com*

***Açar sözlər:*** *xəzinə, dünya, təsir, örnək, davamçı, tamlıq,*
***Keywords:*** *treasury, world, impact, sample, successor, usefulness*

Nizami bəşəri ideyalara malik dünya şairidir. Onun fəlsəfi, ictimai, bədii fikirləri "Xəmsə"nin bütün varlığındadır. Ölkəmizdə 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi isə Prezident cənab İlham Əliyevin Azərbaycanın zəngin ədəbi irsi və mədəniyyətinin qorunub saxlanması, gələcək nəsillərə çatdırılması yüksək qayğının təzahürü olmaqla bu tükənməz bədii söz xəzinəmizin fəlsəfi-poetik çalarlarla yenidən araşdırılması və tədqiqini, habelə öyrədilməsini bir daha aktuallaşdırmışdır. Heç şübhəsiz ki, "Nizami İli" nizamişünaslığa öz misilsiz töhfələrini verməklə ədəbiyyatşünaslıq tariximizdə yeni səhifələrin yazılmasına şərait yaradacaqdır.

Hər bir böyük sənətkar öz yaradıcılığında üç ədəbi-fəlsəfi konsepsiyanı şərh etmək istəyir: dünya nədir, insan kimdir, zaman nədir. Bu konsepsiyalarda insanın daxili aləmini, dünyanın yaranışını və insan-zaman kəsişməsini şərh edə bilən sənətkar əbədi yaşamaq hüququ qazanır. Bir sıra hallarda ötəri mövzularda yazılan ədəbi əsərlər yaşamır, ancaq yuxarıda adıçəkilən ədəbi kredonun tələblərini ödəyən əsərlər yaşayır.

Nizami yaradıcılığının ən əhəmiyyətli hissəsi insan şəxsiyyətinin psixoloji cəhətdən düzgün formalaşdırılması məqsədi daşıyan hikmətli hekayətlərdən ibarətdir. Deməli, bu zəngin materiallardan məhz müasir dövrün tələbləri ilə böyüyən kiçik və ortayaşlı məktəblilər, yeniyetmələr və gənclərdə şəxsiyyətin formalaşması və idrak qabiliyyətlərinin inkişaf etdirilməsi prosesində məqsədyönlü şəkildə istifadə etmək olar. Dahi Nizami irsinin öyrədilməsi humanitar fənlər arasında birinci yeri tutsa da, hər bir əsərdə psixoloji zənginlik bu günə qədər insanın bir şəxsiyyət kimi formalaşma-

sında güclü təsiredici meyar rolunu oynamaqdadır.

Nizami Gəncəvi bütün yaradıcılığı boyu lirik şeirlər yazmış, sonralar poemalarında irəli sürdüyü ictimai, fəlsəfi və psixoloji dəyərli fikirlərini ilk dəfə bu şeirlərində ifadə etmişdir. Şairin lirikası yüksək sənətkarlığı, məhəbbətə dünyəvi münasibəti, insan taleyi haqqında humanist düşüncələri ilə seçilir. Onun ilkin yaradıcılığında dövrünün ən humanist, ümümbəşəri ictimai-siyasi, sosial və psixolofi, əxlaqi idealları parlaq şəkildə öz bədii əksini tapmışdır.

Qərb və Şərq fikir və fəlsəfə tarixində "Ədalət" (Justice) ən təməl mövzulardan biri, bəlkə də birincisidir. İnsan azadlıqı da məhz ədalətə çatmaq üçün tələb edir.

Nizami Gəncəvi fəlsəfəsində insan və onun məqamı insan kimdir, onun mahiyyəti nədir? İnsan dəyərli varlıqdırmı? İnsanın dəyərinin mənbəyi nədir? Bu suallar Qərb və Şərq tarixində əsas fəlsəfi suallar sırasındadır. "İnsan" bütün zamanların ən aktual mövzusudur. İnsan bir sıra hüquqlara sahib, həmçinin müəyyən vəzifələri olan varlıqdır. Modern dövrdən əvvəlki dönəmdə insan daha çox vəzifələrinin axtarışında idi. Modernizmdən sonra isə o əsasən hüquqlarını tələb edir. Burada əsaslı bir sual meydana çıxır. Dəyərsiz varlıqın hüquqları olar bilərmi? Əsla. Demək, insan hüquqlarının təməl tezisi budur: "İnsan dəyərli və ehtirama layiq varlıqdır." Nizami Gəncəvinin Əxlaq fəlsəfəsinin binövrəsi bu mühüm tezisdir. İkinci prinsip budur: İnsan dəyərli olduqu üçün bir sıra fundamental və təməl hüquqlara malikdir. Filosof şair "Sirlər xəzinəsi" əsərinin yeddinci məqaləsində insanın möhtəşəm məqama sahib olduğuna təkid edir. Hətta qeyd edir ki, bütün digər mövcudat insanın nazını çəkir. Nizami insanın yüksək dəyərini vurğulayarkarən poeitk təbirlərdən yararlanır. O insana xitabən sanki onu əzizləyir: Sən dünyaya gəldikdən sonra süd deyil, şəkər içmisən. Nizami insan haqda mülahizələrini daha da inkişaf etdirərək əlavə edir: İnsan o qədər əzəmətli və zəngin varlıqdır ki, kainatda olan mövcudatın hamısında sanki onun vücudunun zərrəcikləri vardır. Yəni insanın qabiliyyəti və zərfiyyəti o qədər genişdir ki, bütün varlıqlarda insanın nişanəsi, ünvanı görünür. Əbu Hamid Qəzali "Kimyayi səadət" (Xoşbəxtlik iksiri) əsərində yazır: İnsanın fitrəti (daxili dünyası, xəmiri) Tanrı rəngindədir. Lakin saf güzgüyə bənzəyən insan qəlbi bəzən dünya hərisliyi və şəhvətlə paslanır. Belə olan halda qəlb Tanrının aynası ola bilmir. Qəzalinin sözləri əslində insanın həm cismani, həm də ruhani varlıq olmaqına işarədir. İnsan təkcə cisim deyil, onun ehtiyacları təkcə cismanı ehtiyaclar deyil, onun ruhunun

da qidası var. Hətta Mövlana Ruminin təbirincə desək, insanın şəxsiyyəti, onun insanlığının məğzi və əsası onun ruhudur. Ruha nəzarət olunmalıdır. Əks təqdirdə insanın varlııqı sarsılacaq, tarazlıq pozulacaq, qəlb öz funksiyasını itirəcək. Dahi Nizami də bu fəlsəfəni əsas götürür. Onun "Xəmsə"si başdan-başa insanın mənəvi təkamülünə, onun ruhunun mənəvi seyrinə həsr olunub. Burada verilən qəhrəmanlar böyük ruha sahib şəxsiyyətlərdir. Nizaminin "insan"ı Tanrıya təzim edir. Leyli və Məcnun əsərinin başlanğıcında Tanrıya xitabən zəngin mətləblər açıqlanır:

Ey adı ən gözəl başlanğıc olan,
Adınla başlanır yazdığım dastan,
Sən, ey xatirəsi könlümə həmdəm,
Adın düşmə-mişdir dilimdən bir dəm.
Bütün varlıqları özün yaratdın,
Bağlı qapılara açardır adın.
Adının qərarı olmadan əvvəl,
Qələm tutmamışdır dünyada bir əl.
Ey bütün varlığın həyat təməli,
Yetməz dərgahına bir insan əli.

Nizaminin təsvir etdiyi insan ilahi xislətlidir. Nədir bu ilahiliyin əsas xassəsi? Ədalət. İlahilik fitridir, insanın yaranışında onun varlığına hopdurulan istəkdir. Ədalət də fitri tələbdir, insanın təməl haqqı-hüququdur. "Xəmsə" əsərində, "Sirlər xəzinəsi"ndən "İsgəndərnamə"yə qədər filosof şair ideal cəmiyyət-dövlət yaratmaq əzmindədir." Lakin burada mühüm bir məqama diqqət ayırmalıyılq. İdeal cəmiyyət ideal insan olmadan yarana bilərmi? Məgər cəmiyyət fərdlərdən ibarət gerçək deyilmi? Demək, Nizami ideal cəmiyyətlə bərabər həm də ideal insan haqda düşünür. Əslində onun İsgəndərnamə əsərindəki İsgəndər obrazı bütün həyatı boyu mənəvi təkamül yolunu qət edən və sonda peyğəmbərlik məqamına çatan kamil-ideal insandır. Düzdür, burada peyğəmbərlik məqamı deyəndə səmavi dinlərdəki peyğəmbərlik nəzərdə tutulmur. Nizami özü də bir ilahiyyat alimi kimi bu məsələyə agahdır. Demək, ideal insan modeli yaratmaq mütəfəkkir şairin əsas amallarından biridir. İndi isə Nizaminin ideal insanının əsas və təməl xüsusiyyəti, yəni ədalət prinsipi haqda olan məqamların şərhinə keçirik.

Dahi Nizaminin təhsil, təlim, tərbiyə və şəxsiyyətin inkişafı ilə bağlı hikmət dolu psixoloji fikirləri zəngin, geniş və dərindir. Onun əsərlərində həm humanitar (ədəbiyyat, dilçilik, tarix, musiqi, təsviri incəsənət və s.), həm də təbiət-riyaziyyat elmləri (fizika, həndəsə, kimya, biologiya, coğrafiya və s.) ilə bağlı dəyərli psixoloji fikirlər, zamanı qabaqlayan psixoloji ideyalar kifayət qədərdir. Məsələn, "Oğlum Məhəmmədə nəsihət" şeirində şair öz oğlunun timsalında gənc nəslə əxlaqi hisslərin inkişaf etdirilməsini bu cür tövsiyə edir: 1. İnsan cavanlıq yaşından qeyrətlə çalışmalı, öz hünəri ilə uğurlar qazanmağa nail olmalıdır; 2. Cəmiyyətdə öz yerini tutmaq və

ağıllı-kamallı olmaq lazımdır; 3. İnsan hisslərini cilovlamağı bacarmalıdır; 4. İnsan öyrəndiyi elmi və ya peşəni dərindən bilməli, onun kamil ustası olmalıdır; 5. Cavanlar ata öyüd-nəsihətinə qulaq asmalı və onlara əməl etməlidirlər. Aparılan tədqiqatlar göstərir ki, dahi şairin ayrı-ayrı əsərlərinin dərindən öryənilməsi, həmin əsərlərdəki psixoloji fikir və ideyaların tam üzə çıxarılması baxımından müasir psixoloji təsir vasitələri və texnologiyaları əsasında hazırlanan təqdimatlar mühüm əhəmiyyət kəsb edir. Gənclərdə idrak proseslərinin inkişaf etdirilməsinə, yaradıcılıq qabiliyyətlərinin, təfəkkür, təxəyyül, müstəqil düşünmək, eyni zamanda bilik, vərdiş və bacarıqların inkişafına güclü təkan verir. Nizami Gəncəvi bütün yaradıcılığı boyu lirik şeirlər yazmış, sonralar poemalarında irəli sürdüyü ictimai, fəlsəfi və psixoloji dəyərli fikirlərini ilk dəfə bu şeirlərində ifadə etmişdir. Şairin lirikası yüksək sənətkarlığı, məhəbbətə dünyəvi münasibəti, insan taleyi haqqında humanist düşüncələri ilə seçilir. Onun ilkin yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və psixoloji, əxlaqi idealları parlaq şəkildə öz bədii əksini tapmışdır. Dahi sənətkar şəxsiyyətin ən yüksək meyarını insanlıq hesab edirdi. İrqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edirdi. Onun qəhrəmanları içərisində müxtəlif xalqlara və dinlərə mənsub olan nümayəndələr vardır. Bu qəhrəmanlar ədalət, xalq xoşbəxtliyi, ali məqsədlər uğrunda vuruşurlar. İnsan şəxsiyyətinə, insan əməyinə və qarşılıqlı münasibətlərə hörmət şairin yaradıcılığının əsas mövzularındandır.

***Ədəbiyyat:***


1. İlyas ibn Yusif, Kolliyate Xəmse, Tehran, 1389 (2001), 492 s.
2. Qəzali, Əbu Hamid, İmam Muhammad, Kimyaye səadət, Tehran, Elmi, fərhəngi, 1360 (1982) cild 2, 231 s.
3. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, “Yazıçı”, 1982, 401 s.
4. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı, “Yazıçı”, 1982, 304 s.
5. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı, “Yazıçı”, 1982, 687 s.

# NIZAMI GANJAVI'S HERITAGE CREDO: PEACE, MAN, TIME

**Elnur Rustamov**
*Research Institute of Psychology*
*Chairman, Candidate of Philosophical Sciences*
*elnur013@yahoo.com*

## SUMMARY

The most important part of Nizami's work is wise stories aimed at the psychologically correct formation of the human personality. Thus, these rich materials can be purposefully used in the process of personality formation and the development of cognitive abilities of primary and secondary schoolchildren, adolescents and young people who are growing up in accordance with the requirements of modernity.

# NİZAMİ GƏNCƏVİ – ƏSRİ CAVANLAŞDIRAN NƏFƏSİN XƏZİNADARI KİMİ

**Hökümə İmran qızı Əliyeva**

*Psixologiya Elmi – Tədqiqat İnstitutu Təhsil və Elmi-metodiki şöbənin müdiri, psixol.üzrə fəl.dok., dos.*
*E-mail: aliyev.hokume@ mail.ru*

***Acar sözlər:*** *çağırış, muasirlik, dəyərlər, zaman, məkan, insan*
***Keywords:*** *call, modernity, value, time, place, person*

Nizami poeziyasının bir məhvəri, bir qibləsi vardır ki, bu da İnsandır. İnsanlığa məxsus ən nəcib sifətləri özündə birləşdirən onun lirik qəhrəmanı gələcəyə ümidlə baxdığından nikbindir. Bu, intibah dövründə – insanın hünər və qüdrətinə, onun arzularının gözəllik və qanuniliyinə gücləndiyi bir zamanda sənətin ən uca zirvəsində dayanan bir dühanın işıqlı gələcəyə dikilən baxışlarındakı sevinc parıltısının, idealın qələbəsinə yəqinlikdən doğan inamın ifadəsidir.

Dahi mütəfəkkir yeniliyin köhnəliklə mübarizəsi, köhnəliyə qarşı amansız döyüşkən mövqe tutması fikrini irəli sürür. O, əsrlərin dumanı arxasından gələcəyə baxaraq, yeni ideyaların qələbəsi üçün yollar göstərir.

Nizami dünyanın zənginliyi, daim inkişafı, get-gedə daha da gözəlləşməsi haqqında son dərəcə heyranlıqla danışır. Mütəfəkkirə görə, həyat daim irəlliyə doğru inkişafdan ibarətdir; bu irəliləyiş və inkişaf zamanı köhnəliklə yenilik qarşı – qarşıya gəlir. Köhnəlik öz yerini asanlıqla güzəştə getmir, yeniliksə onunla vuruşmaq, ona qalib gəlməklə özünü təsdiq edə bilər.

Adəmdən başlamış müasirlərinə qədər insanlığı bütün keçmişi, bu günü və sabahı ilə əks etdirməyə çalışan şair insanı yaşadığı təbiətdən, canlı və cansız aləmdən təcrid olunmuş şəkildə deyil, onunla birlikdə təsvir edir. Şair nədən danışırsa danışsın, onu müasir həyat, müasir insanlar düşündürür, haqsızlıq, ədalətsizlik, zülm və özbaşınalıq hökm sürən bu dövrünsə adamları əsasən məhdud görüşlü, tamah, şöhrət və şəhvət əsiri olan insanlardır.

“Sirlər xəzinəsi” zəngin və mürəkkəb məzmunlu, yüksək sənətkarlıqla yazılmış bir əsərdir. Azərbaycan İntibahının qiymətli bir abidəsi kimi bu

əsərin əhəmiyyəti ondadır ki, insanlığın nurlu sabahına, sadə adamlara məhəbbətlə doludur.

Hələ " Xəmsə" nin ilk əsəri olan "Sirlər xəzinəsi"ndə söz sənətinin təsiredici qüvvəsindən müasirlərinin mənən təmizliyə çağırmaq kimi bəşəri bir məqsəd üçün faydalanan şair dövrünə görə çox mütərəqqi problemlərə toxunmuş, yüksək bəşəri ideyalar tərənnüm etmişdiir. Şairin Şərq şeirinə gətirdiyi belə ölməz ideallar "Xəmsə"nin ikinci poeması "Xosrov və Şirin" əsərində daha geniş, daha vüsətli və daha aydın şəkildə ifadə olunmuşdur.

Qadınlığa yüksək münasibət bəsləyən şair Şirinin simasında qadınlığın ən gözəl sifətlərini toplayaraq Yaxın Şərq ədəbiyyatında ilk dəfə olaraq hərtərəfli işlənmiş müsbət qadın obrazı yaratmışdır.

Qadını həmişə cəmiyyətin tam ləyaqətli bir üzvu kimi görməyi arzulayan böyük şair tarixdən aldığı bu obrazı öz humanist ideyaları baxımından işləyib, qadınlıq haqqında yüksək fikirlərini onun vasitəsilə ifadə etmişdir.

"Leyli və Məcnun" poeması insan və zaman mövzusu ətrafında şairin düşüncələrindən ibarət möhtəşəm bir poeziya ümmanıdır.

Nizami insan və zaman probleminə, bu problemin ayrı-ayrı cəhətlərinə poemada dönə-dönə toxunur. Dahi şair doğru qeyd edir ki, insanda hələ nöqsanlar vardır. Bununla bərabər, o insanı yaxşılığa, gözəlliyə səsləyir. Nizaminin bu poemasında bir həqiqət sübut olunur ki, zaman insana ziddir. Lakin insan dünyanı insaniləşdirəcək, zamanı dəyişdirəcək, zaman özü də dəyişəcəkdir.

Poeziyanın yüksək inkişaf zirvələrinə çatması Şərq mədəniyyətinin çiçəklənmə dövrünə – orta əsr Şərq intibahı dövrünə düşürdü. Nizami də daxil olmaqla bu dövrün dahi alim, mütəfəkkir və sənətkarları öz yaradıcılıqlarını yüksək kamala yetmiş, nəcib əxlaqi sifətlər, əql və gözəllik daşıyıcısı insana həsr etmişlər. "İqbalnamə"nin də əsas qəhrəmanı adı böyük hərflə yazılan İnsan obrazıdır. Bəlkə məhz buna görə Nizami belə bir qəhrəmanı sərkərdə, hökmdar və elm havadarı kimi şöhrət tapmış Makedoniyalı İsgəndərin surətində verir. Poemanın əsas məqsədi isə insanın səadətinə xidmət, bu səadəti təminetmə yollarını arayıb tapmaqdır.

"İqbalnamə"də bir-biri ilə üzvi surətdə bağlı üç istiqamət, üç məqsəd izlənilir. İnsan ağlının, zəkasının və bununla əlaqədar elmin, fəlsəfənin tərənnümü və təbliği; insanın yüksək əxlaqi keyfiyyətlərinin tərənnümü və təbliği; insan xoşbəxtliyini təmin edən, zülmə və bədxahlığa son qoyan ədalətin, azad, bərabər və dost insanların cəmiyyətinin tərənnümü və təbliği.

"İqbalnamə" "Xəmsə" ni tamamlayır, başa çatdırırsa, ideal cəmiyyət

təlimi də "İqbalnamə"dəki axtarışların, istəklərin zirvəsidir. Nizaminin ədalətli cəmiyyət konsepsiyasını uydurma, həyata kecməyəcək arzu, boş fantaziya hesab etmək olmaz. Bir qədər fantastik olsa da, gerçək ola biləcək son arzunun ifadəsidir və mövcud quruluşla, mövcud siyasi və əxlaqi münasibətlərlə barışmayanlar üçün bələdçi rolu oynayır.

Nizaminin başqa əsərlərində öz əksini tapmış sosial-etik görüşləri ilə birlikdə götürülərsə, "İqbalnamə"dəki kamil cəmiyyət təlimi oxucunu ədalət uğrunda daha fəal mübarizəyə çağırır. Nizami idealının bütün dövrlərin insanlarına yaxınlığının və doğmalığının səbəbi də buradadır. Şairin öz sözləri ilə desək,

*Yetər, bağla xəzinəni, aç incilər sandığını.*
*Söz incisi fazillərə ən qiymətli ərmağandır.*

Bəli, artıq onun xəzinəsinin xəzinədarı olan Zaman Nizami sədası və çağrışı ilə bəyan etməyə hazırdır. Nizami nəfəsi və indiki zamanın durumunun vəhdəti elə Nizaminin misraları ilə gələcəyə belə səslənə bilər.

*Nəfəsimin ildırımı uca səsli zəngə bənzər,*
*Bayraqlaşan qələmimin sancıldığı yer – cahandır, TURANDIR.*

***Ədəbiyyat:***


1. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı, 2011.
2. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı 2004.
3. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı, 2011.
4. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı, 2004.
5. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, 2004.

# NIZAMI GANJAVI AS A SPIRITUAL TREASURER REJUVENATING THE ERA

**Hokuma Imran gizi Aliyeva**

*Psychological Research Institute*
*Head of Education and Scientific-Methodical Department,*
*Ph.D. in Psychology, Assoc.*
*E-mail: aliyev.hokume @ mail.ru*

## SUMMARY

In Nizami's poetry there is an axis and a qibla, personifying the Man. His lyrical hero, embodying the noblest qualities of humanity, is optimistic, looking to the future with hope. This is an expression of the radiance of joy in the eyes of a genius standing on the highest pinnacle of the art of the Renaissance – a time when the courage and strength of a person, the beauty and legitimacy of his dream, and confidence in the victory of the ideal are strengthened.

# NİZAMİ YARADACILIĞINDA KAMİL ŞƏXSİYYƏT PROBLEMİ

**Ramiz Əliyev**
*ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri, professor*
*Email:ramizeliyev1954@mail.ru*

**Gülşən Mahmudzadə**
*ADPU-nun Ümumi psixologiya kafedrasının laborantı*
*Mahmudzadegulshan457@gmail.com*

***Açar sözlər:*** *şəxsiyyət, mədəniyyət, dəyər, tərbiyə,özünütərbiyə, özünüdərk*
***Keywords:*** *personality, culture,value, education, self-education, self-esteem*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2021-ci il Nizami Gəncəvi İli elan olunmuşdur. Bu heç də təsadüfi deyil. Bir tərəfdən Prezidentin xalqın tarixinə, yaradıcılığa verdiyi dəyərlə, digər tərəfdən Azərbaycan xalqının mədəniyyətini, görkəmli mütəfəkkirlərini, yaradıcı insanlarını dünyaya tanıtdırması ilə bağlıdır. Bu həm də xalqın tarixinin, mədəniyyətinin dərin köklərinin olduğunun ifadəsidir.

Problemin digər vacib bir cəhəti ondan ibarətdir ki, bədnam qonşularımızın bütün vasitələrdən imkan düşdükcə istifadə etməklə özlərininki olmayanı özününküləşdirmək, onu dünyaya çatdırmaq və təbliğ etməklə bağlıdır. Ermənilər hər bir fürsətdə xalqımız haqqında, onun keçmişi və bugünü haqqında iftiralar uydurub onu dünya ictimaiyyətinin gözündən salmağa çalışırlar. Belədə bizim qarşımızda duran vacib məsələlərdən biri də təbliğatımızı gücləndirmək, həqiqəti çatdırmaq, layiq olduğumuz qiyməti almaqdan ibarətdir.

Bu mənada görülən və görülməli olan işlərdən biri də Nizami Gəncəvi şəxsiyyətinin, yaradıcılığının həm özümüz tərəfindən yenidən öyrənilməsi, həm də dünyaya çatdırılması zəruridir, vacibdir.

Nizami yaradıcılığı sadəcə öz dövrü, onun ictimai-siaysi hadisələrinin təsviri ilə məhdudlaşmır. Bu ideyalar, fikirlər müasir dövrümüz, günümüz üçün də vacibdir, əhəmiyyətlidir.

Nizami yaradıcılğı çoxşaxəli və zəngindir. Dərin fəlsəfi, psixoloji, pedaqoji ideyalarla zəngin olan Nizami yaradıcılığı tarixilik, dövrün ictimai-

siyasi, etik hadisələrinin təsviri və dərk olunması baxımından əhəmiyyətlidir.

Nizami dünyanın ən böyük humanist mütəfəkkirlərindən biridir. Onun əsərləri insana xidmət etmək, insanın haqqını və mənafeyini müdafiə etmək, insanı fiziki zənginliyə, mənəvi kamilliyə səsləyən bir sənət xəzinəsidir. Nizami yaradıcılığındakı ən mütərəqqi cəhət onun insanı insan kimi yaşamağa, dünyanı zəkası və əməlləri ilə bəzəməyə, zənginləşdirməyə çağırmasıdır. Şair göstərir ki, insan yalnız özü üçün yaşamamalı, böyük məqsədlər uğrunda, bəşər həyatına xidmət etmək yolunda çalışmalıdır.

Nizaminin əsərlərində dərin humanizm, ədalət və xalq səadəti ideyaları öz əksini tapmışdır. Bu əsərlər yüksək mənəvi keyfiyyətlər xəzinəsi kimi xalq həyatına daxil olmuşdur. Nizaminin əsərləri elə bir mənəvi xəzinədir ki, burada insan həyatı və yaşayışının mənasını açan ən müdrik fikirlər, hakimanə sözlər toplanmışdır. Yeni nəsil üçün ibrət dərsi olan, insanların qəlbində yüksək duyğular oyadan, onları inkişafa sövq edən, bərabərlik, sülh və səadət uğrunda mübarizəyə ruhlandıran sənət nümunələridir.

Nizami yaradıcılığının müstəsna əhəmiyyəti bir də onunla bağlıdır ki, onun əsərlərində özünəqədərki və özünün yaşadığı dövrdə baş verən ictimai-siyasi, tarixi hadisələr dəqiqliklə təsvir olunur. Digər tərəfdən müasir dövrün hadisələrinin dərk olunması baxımından ona istinad etmək mümkündür.

Nizami özünə qədər məşhur olan Şərq və Qərb mütəfəkkirlərinin əsərləri, ideyaları ilə yaxından tanış olmuş, əsərlərində onlara istinad etmişdir. Bir tərəfdən Platon, Aristotel və Avropa filosoflarının, digər tərəfdən Hindistan, Çin, Misir alim və mütəfəkkirlərinin elmi-fəlsəfi əsərlərinə istinadı, onları sintez etməsi, kamil şəxsiyyətin formalaşması baxımından təhlili mahiyyəti baxımından yeni fikir, ideya yaratmasına imkan vermişdir.

Nizami yaradıcılığının mərkəzində insan və hümanizm dayanır. Elə buna görə də, o, bir tərəfdən ümumbəşəridirsə, digər tərəfdən millidir.

Bir çox hallarda sübut etməyə çalışırlar ki, Nizaminin poemaları-"Xəmsə" fars dilində yazıldığından milli hesab oluna bilməz. Bu, tamamilə səhv yanaşmadır. Bu əsər fars dilində yazılsa da, türk xarakteri, türk həyat tərzidir. Yəni həm Nizami özü, həm də yaradıcılığı Azərbaycana aiddir.

Nizami Gəncəvi Azərbaycan, Şərq, eləcə də dünya mədəniyyəti və ədəbiyyatında özünəməxsus yeri olan, onun inkişafında müstəsna rol oynayan, adı dünyanın məşhur şairləri, filosofları ilə bir sırada çəkilən və yüksək qiymətləndirilirən mütəfəkkirdir. Çünki onun yaradıcılığında həm

ümumbəşəri dəyərlər, həm də bütün xalqlar üçün qəbul edilən kamil insan, bütöv şəxsiyyət durur.

Nizami yaradıcılığının ölməzliyini təmin edən səbəblərdən biri də onun problem kimi qoyub poetik dillə həll etdiyi ictimai məsələlərdir. Şairə görə, cəmiyyətin başında ağıllı, maarifpərvər hökmdar durmalı, bununla da insanların cəmiyyətdəki ahəngdar münasibətlərini təmin etməlidir. Hökmdar ictimai mühitin başında duran bir şəxs olduğundan, həmin mühitin sağlamlığı bir çox cəhətdən onun şəxsi keyfiyyətlərindən asılıdır. Şairin bütün əsərlərində qoyulan başlıca problem bundan ibarətdir ki, dövlət başçısı Tanrı qarşısında götürdüyü öhdəliklərə əməl etməli, tabeliyində olan insanların xoşbəxtliyi və rahatlığı uğrunda çalışmaqdan bir an belə geri durmamalıdır. Yalnız bu halda cəmiyyətdə fərdlərin ahəngdar inkişafı təmin edilər. Yalnız belə olduqda Tanrının insanı yaradarkən qarşıya qoyduğu məqsədlər həyata keçirilə bilər.

Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insandır. Milli və dini ayrı-seçkiliyi rədd edən şairin qəhrəmanları içərisində türk, fars, ərəb, çin, hind, zənci, yunan, gürcü və s. xalqların nümayəndələrinə rast gəlirik. Hümanist şair müxtəlif dinlərə mənsub bu qəhrəmanların heç birinin milliyyətinə, dini görüşlərinə qarşı çıxmır. Onun qəhrəmanları ədalət, xalq xoşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə aparırlar. İnsan şəxsiyyətinə, insan əməyinə ehtiram şairin yaradıcılığının aparıcı motivlərindəndir.

İnsan haqlarının müdafiəsi, şəxsiyyət azadlığı, şəxsiyyətin iradi müstəqilliyi, bəşəriyyətin mədəni tərəqqisində dönüş nöqtələrindən olan İntibah dövrünün mənəvi mahiyyətinin aşkar olunmasına çevrilmiş səlis humanizm təlimi Nizaminin sosial-siyasi görüşlərinin sosial ədalət hissəsində öz parlaq təcəssümünü tapmışdır.

Nizami Gəncəvi insanların hüquq bərabərliyini, sosial ədaləti hələ XII yüzillikdə təbliğ etməyə başlayan dahi şəxsiyyət olmuşdur. Bəşəriyyətin taleyi üçün hər kəsin öz səviyyəsində, imkan və bacarığı daxilində məsuliyyət daşıdığını dönə-dönə müasirlərinə çatdıran böyük mütəfəkkir bütün həyatı boyu ümumbəşəri ideallarla yaşamış və bunun uğrunda mübarizə aparmış, öz zəngin yaradıcılığını insanın taleyüklü problemlərinin həllinə həsr etmişdir.

Nizami yaradıcılığında insanın keçdiyi həyat yolu doğulandan yüz yaşadək mərhələ-mərhələ öyrənilir, hər bir yaşın xüsusiyyətləri məharətlə açıqlanır.

İnsanın həyat yolu mərhələlərə ayrılsa da onlar bir-birilərilə vəhdətdədir, sıx bağlıdır. Onun yaradıcılığında şəxsiyyətin formalaşmasında hər bir yaş dövrünün özünəməxsus rolu və yeri poetik dillə çatdırılır. Bu bir psixoloji strategiya olmaqla kamil

insanın formalaşması keçilən yolun fasiləsiz, zəncirvari inkişafı ilə bağlı göstərilir. Şəxsiyyətin formalaşmasında keçdiyi həyat yolunun mərhələlərlə verilməsi onun bir bioloji və sosial varlıq kimi təşəkkülünü şərtləndirir.

Nizami yaradıcılığında diqqəti cəlb edən məsələlərdən biri də ictimai-tarixi proseslərlə yanaşı, insanın özünün aktivliyinin vəhdətdə götürülməsi ilə bağlıdır.

Nizami "Sirlər xəzinəsi"ndən başlayıb "İsgəndərnamə"yə qədər insanın inkişaf yolunu, şəxsiyyət kimi formalaşmasını poemadan poemaya yüksək ustalıqla təsvir edir. "İqbalnamə"də qəhrəman "Allahı tapır, ruhən o ali varlığa qovuşur. Bununla da Nizaminin insan fəlsəfəsi bir təlim kimi tamamlanır". (2,14).

Başqa sözlə, şəxsiyyət konkret ictimai-tarixi proseslərə qoşulmaqla özünün daxili ziddiyyətlərini, konfliktlərini həll etməyə, özünütəsdiqə çalışır, inkişaf edir və xalqın həyatında vacib rol oynayır. Qeyd etmək istərdik ki, Nizamidən VII əsr sonra, XIX əsrdə yaranan psixoanalizdə də bu konsepsiya irəli sürülür.

Nizamiyə görə, bütöv şəxsiyyət cəmiyyətə identifikasiya olunan, psixi sağlam, ictimai əlaqələr qurmağı bacaran, davranışını ona uyğunlaşdıran kamil insandır. Nizami üçün insanın başlıca xüsusiyyəti onun mənəviyyatı ilə bağlıdır. İnsanın dəyərini onun var-dövlətində, mal-mülkündə yox, mənəviyyatında axtarmaq lazımdır. O, insanların fəaliyyət və davranışlarının motivlərini, motivlərin iyerarxiyasını dərk etməyə, başlıca olanı ikincidərəcəli olanlardan ayırmağa çağırır. Bu, insanın özünüdərkidir. İnsanın özünüdərki, özünütərbiyəsi üçün kimsə ona təsir etməli, köməklik göstərməlidir.

Nizamiyə görə, cəmiyyətin dəyəri iqtisadi, psixoloji və mənəvi olanları vəhdətdə götürməklə gənc nəsli bu ruhda tərbiyə etməkdir.

Nizami öz qəhrəmanlarını tərbiyə edir, inkişaf etdirir, nəhayət kamil şəxsiyyət kimi formalaşdırır. O, Xosrovu gəncliyində pis vərdişlər, pis əməllər sahibi kimi görür, onu tədricən tərbiyələndirir. Bəhram da pis vərdişlərə sahibdir, eyş-işrətlə məşğuldur. Ölkə başçısıdır, padşahdır, lakin ölkənin idarə olunmasını başlı-başına buraxıb. Hisslərini cilovlaya bilmir, yersiz qəzəblənir. Nizami Bəhramı Fitnənin vasitəsilə tərbiyələndirir.

Göründüyü kimi, Nizami tərbiyənin rolunu xüsusi vurğulayır. Həm də maraqlıdır ki, Nizaminin tərbiyə məktəbində ayrı-seçkilik yoxdur. Bəzən tərbiyə edən adi insanlardır. Çoban, kəniz, kərpickəsən və s. padşahları tərbiyələndirir. Yəni kimliyindən, sosial statusundan asılı olmayaraq hər kəsin tərbiyəyə, təlimə ehtiyacı var. Nizaminin əsərlərində tərbiyəedici təlim

mühüm şərt kimi qoyulur, qəhrəmanlar xüsusi məktəb keçir. Məsələn, İsgəndər Aristoteldən dərs alır.

Nizami yaradıcılığının başlıca qayəsini ədalətli cəmiyyət, insan azadlığı, sosial bərabərlik təşkil edir. Bu ideyalar yalnız Nizamiyə yox, ümumən Şərq və Avropa mütəfəkkirlərinin əksəriyyətinə aiddir. Konfutsi deyirdi: "İnsanları sevmək lazımdır. Həm də hər yerdə və həmişə sevmək lazımdır". Eramızdan əvvəl başlayıb müasir dövrümüzədək davam edən bu fikir, bu ideya hələ də yaxşı bir arzu olaraq qalır. Yəni insanın maliyyəti dəyişmir. Nizami sosial bərabərliyi, sosial ədaləti ədalətli şahda tapırdı. Minilliklər keçsə də, sosial ədalət, sosial bərabərlik yox, sosial qeyri-bərabərlik davam edir.

Bütün əsərlərində olduğu kimi, "Leyli və Məcnun" poemasında da Nizami zülm və zorakılıq əleyhinə çıxır. İnsanları azad olmağa, zülm və zorakılığa qarşı mübarizə aparmağa çağırır. Qeyd edir ki, ən uca zirvələri fəth etməyi bacaran insan heç bir kəsin qarşısında alçalmamalıdır. Zülmü və zorakılığı ədalətsizliyin ən alçağı kimi qiymətləndirən humanist mütəfəkkir zülmə dözməyi, zülmkarın qarşısında müti olmağı rəzalət hesab edir və bunu son həddə özünə hörmətsizliyə bərabər tuturdu.

Zülm və zalıma qarşı mübarizə ideyası Nizami humanizminin baş xətti kimi onun bütün ictimai-fəlsəfi qəsidələrindən keçib gedir. Mütəfəkkir problemin həlli üçün burada bəzən dolayı vasitələrdən istifadə edir, dini etiqad və inamlara müraciət yolu ilə dövrün kəsirlərini, möhnət və haqsızlıqlarını qamçılayırdı. Mütəfəkkir dini görüş və şüarları öz demokratik ideyalarına xidmətə yönəldir, güc və hökm sahiblərini, heç olmasa, həmin yolla xeyirxah işlər görməyə, ölkə və xalqın asayişini gözləməyə səsləyirdi. Bununla bərabər, o, insanı yaxşılığa, gözəlliyə səsləyir. Yaxşı sözü yaman sözdən üstün tutan şair zamanın eyiblərini də çəkinmədən romantik bir pafosla dilə gətirir.

*Bir çox sifətlər var insanda hələ,*
*Almasan yaxşıdır onları dilə.*
*Pis sözü ağzına alınca insan,*
*Qarnında öldürsə yaxşıdır, inan.*

Bir sıra psixoloqlar göstərirlər ki, insanın təbiəti dəyişməzdir. Son otuz min il ərzində insanın təbiəti ya az dəyişib, ya da ümumiyyətlə, dəyişməyib. Lakin insanın davranışı, düşüncəsi faktiki olaraq fasiləsiz şəkildə iqtisadi və sosial mühitdən asılı olaraq dəyişir. Bir ictimai quruluşda bir qrup impulslar, digərində isə başqa qrup impluslar üstünlük təşkil edir.

Nizami sosial bərabərliyi arzulayır və onu təsvir edirdi. Lakin XVIII əsrdə elmə sosial qeyri-bərabərlik anlayışı gəldi və müasir dövrdə bu problem öz aktuallığını daha da artırmışdır.

Vaxtilə J.J Russo deyirdi: “ İnsan azad doğulmuşdur, ona görə də qolları zəncirdədir”. J.J.Russo qeyri-bərabərlik anlayışını iki qrupa ayırır. a) təbiətin özündən gələn; b) siyasi, mədəni qeyri-bərabərlik. “Mən insanlıqda iki qeyri-bərabərlik görürəm. Bunlardan birincisi təbiidir və yaş, sağlamlıq, əqli və fiziki güc və s. ilə bağlıdır. İkincisi mühit və siyasi quruluşla bağlıdır. İkincisi insanların özlərinin razılaşdığı, yaratdığı qeyri-bərabərlikdir. Bu isə bəzi insanlara digərləri üzərində ağalıq etmək, varlı olmaq, nüfuz qazanmaq imkanı yaradır”. (4, s. 41)

Ümumiyyətlə, Şərq fəlsəfi fikrində mənəviyyat, insani dəyərlər ön plana çəkilir. Avropa da isə məsələyə maddiyyat, maddi rifah baxımından yanaşırlar. İkincilərin praqmatizmi daha yaxşı həyat tərzi qurmağa imkan verir. Bu isə ayrı-ayrı fərdlərin yaxşı həyat tərzi deməkdir.

Nizami yaradıcılığının başlıca ideyası insandır. Həm də hər bir insan yox, kamil insan, bütöv şəxsiyyətdir. Nizamiyə görə, insan doğulanda hələ xammaldır, materialdır. Burada isə iki başlıca şərt var: irsiyyət və tərbiyə. Əgər insanın zatı pisdirsə, yəni material xarabdırsa, ondan pis məhsul (insan) alınacaq.

*Qurd olsa bir adam zatında əgər,*
*Bu qurd o ceyranın qanını tökər.*

Ə.Ə.Əlizadə bununla bağlı yazır ki, Nizamiyə görə “bədgövlərin xəta işlətməkdə xətası olmaz. O, əqrəb kimi zərər yetirər”.

Nizami yaradıcılığında paralellər, müqayisə və qarşılaşdırma var. Xeyir və şər, yaxşı və pis qarşı-qarşıya qoyulur. Sanki oxucuya seçmək imkanı verir. Buyur, seç. Nizamidə kamil insan var, cahil insan var. Kamil insan elm, bilik yolu ilə kamilləşir. Bunların fonunda isə zəhmət dayanır. Müasir psixologiyada bu fəaliyyət və şəxsiyyətin vəhdəti adlanır. Nizamiyə görə, irsiyyət vacibdir, lakin yetərli deyil. Ağlı, kamalı, mərifəti irsən yox, təlim-tərbiyə yolu ilə əldə etmək olar.

Nizami göstərir ki, təlim-tərbiyə işində tənbəllik etmək olmaz. Hər kəs təlim-tərbiyə sayəsində ucala, yüksək mövqeyə çata bilər. Tənbəllik edənlər, zəhmətdən qaçanlar heç nə əldə edə bilməzlər.

*Çox iti zehinlər yatan oldular,*
*Axırda saxsı qab satan oldular.*

Yuxarıda deyildiyi kimi, Nizami bütövü, tamı göstərmək üçün müqayisədən, qarşılaşdırmadan ustalıqla istifadə edir. Qeyd etmək istərdik ki, Nizami yaradıcılığının dəyəri bir də ondadır ki, onun əsərlərində bir nəfər olsun mənfi qadın surəti yoxdur. Halbuki, həmin dövrdə, ümumən orta əsrlər ədəbiyyatında heç də belə şey yoxdur. Fikrimizcə, qadın psixologiyasını dərk etmək üçün Nizami yaradıcılığı əvəzsiz mənbədir.

Nizami dövrünün zəngin mənəviyyatlı insan obrazını, fikir, düşüncə və əxlaq mənzərəsini yaratmışdır. Hətta hər bir zərrənin müəyyən bir iş gördüyünü söyləyən ölməz sənətkar dövrün insan xarakterlərini daha dolğun göstərməyə çalışmışdır.

Nizamiyə görə azad, xoşbəxt cəmiyyəti o halda qurmaq olar ki, insanlığın taleyinə sahib olan hökmdarların xasiyyəti fədakarlıq, alicənablıq və fəzilətlərə yiyələnmə yolu ilə çirkin niyyətlərdən, rəzalətlərdən, qəsbkarlıqdan, alçaq vərdişlərdən, insanlara qarşı biganəlikdən, qanunlara hörmətsizlikdən və hakimiyyət hərisliyindən təmizlənsin. Dahi sənətkar qəddarlığı kəskin tənqid edir və belə bir qənaətə gəlirdi ki, hökmdarlıq və hakimiyyət səlahiyyətləri bəzən xeyirxah olan insanı da müəyyən mərhələdə dəyişə bilər. Nizami "Yeddi gözəl" poemasında dövründəki ictimai haqsızlıqlara etiraz edir, insanları belə zülmə, ədalətsizliyə dözməməyə, ildırım kimi amansız olmağa dəvət edir.

Nizami yaradıcılığında bütöv şəxsiyyətin formalaşmasında önəmli yeri elm, elmi biliklərə yiyələnmə tutur. Şərq fəlsəfəsi fikrində, o cümlədən Nizami yaradıcılığında bilik və ləyaqətə şəxsi məsələ kimi yanaşılmır. Göstərilir ki, cəmiyyətin üzvü öz xoşbəxtliyini cəmiyyətdə tapdığı kimi cəmiyyətə də xeyir verməlidir. Eyni zamanda göstərilir ki, insan özünü sevməlidir ki, başqalarını da sevə bilsin. Nizamiyə görə biliksiz, elmsiz adam nə özü, nə də cəmiyyət üçün faydalı ola bilər.

*Bilikli adamlar uzağı görər,*
*Cahilin zəhməti hədərdir hədər.*

Nizami özü elm öyrənmək, alim həyatı keçirmək baxımından nümunə olmuşdur. Onun özü barədə dedikləri başqaları üçün də yaxşı nümunədir.

*Hər gecə biliyə qapı açmadan,*
*Başımı yastığa qoymadım bir an.*

"Leyli və Məcnun" əsərinin başlanğıcında oğlu Məhəmmədə nəsihətində elm öyrənməyi həyatın ən zəruri şərti, insani keyfiyyətləri mənimsəməyin ən vacib mənbəyi hesab edir. Nizami göstərir ki, elm yalnız bilik əldə etmək üçün deyil, kamil şəxsiyyət olmaq üçün əsas şərtdir. Bununla belə, kamil şəxsiyyətin formalaşması üçün insanın zatı, kökü olmalıdır. İnsanın rəftar və davranışında, düşüncəsindəki yaxşı və ya pis olanların mənbəyini onun zatında axtarmaq lazımdır. Nizami hesab edir ki, yaxşıdan yaxşı, pisdən pis törəyir.

*Zatı pis olanı heç yüksəltmə sən,*
*Qurdu bəsləməkdən ziyan çəkərsən.*

Nizami insan həyatı və fəaliyyətindən bəhs edərkən tərbiyə, tərbiyəedici nəsihət və məsləhətlərlə yanaşı, şəxsi təcrübəni də vacib sayırdı. Başqa sözlə desək, sözlə işin vəhdətdə olma-

sının zəruriliyini əsaslandırırdı. Göstərirdi ki, bunları başqa heç nə ilə əvəz etmək mümkün deyil. Nəzəri ideyalar o vaxt səmərəli olur ki, nəzəri biliklər praktikada sınaqdan keçirilsin. Təcrübə olmadıqda söz öz təsir gücünü itirir. Qarşıya qoyulmuş məqsədə çatmaq o halda mümkün olur ki, insanın özünün şəxsi təcrübəsi də ora əlavə olunur. Yalnız belədə insan özünə hesabat verir.

Maraqlıdır ki, Nizamidən 800 il sonra Amerika humanist psixologiya məktəbinin görkəmli nümayəndələri A.Maslou, K.Rojers və b. bu mövqeni elmi şəkildə əsaslandırmışlar. Yəni Nizaminin poetik dillə təsvir etdiyi mənzərəni onlar elmi şəkildə əsaslandırmışlar.

Nizaminin qəhrəmanları hansısa sosial və fərdi-psixoloji əlamətlərin daşıyıcısı deyil. Bu qəhrəmanların ətraf aləmə, özlərinə xüsusi baxışları var. Onlar ətrafında olanları, özlərini və başqalarının onları necə qiymətləndirdiklərini dərk etməyə çalışırlar. Yəni onlar üçün başlıca olan "dünya nədir və həyatda onlar kimdir?" sualına cavab tapmaqdır.

Bütün bunlar qəhrəmanın kimliyinin qavranılması, dərk olunması baxımından əhəmiyyətlidir. Qəhrəman tədricən, mərhələ-mərhələ inkişaf edir, formalaşır, özünü və dünyanı dərk edir. Onların sonda söylədikləri dünyanın və özünüdərkin simvoluna çevrilir.

Qəhrəmanın obrazının ayrı-ayrı keyfiyyət və əlamətləri sonda bütövləşir. Qəhrəmanın obyektiv, davamlı fərdi keyfiyyətləri, sosial mövqeyi, sosioloji və xarakteroloji xüsusiyyətləri, vərdişləri, mənəvi-əxlaqi mənzərəsi, hətta xarici görünüşü, başqa sözlə, onların vəhdəti onun kimliyini müəyyənləşdirir. "Sirlər xəzinəsi"ndən başlayan xüsusiyyətlər, xarakter, mənəvi-əxlaqi dəyərlər "İsgəndərnamə"də artıq formalaşır.

Nizami elə ilk poeması olan "Sirlər xəzinəsi"ndən başlayaraq qəhrəmanın sadəcə obrazını təsvir etmir, onun şəxsiyyətini, özünüdərkini təqdim edir. Oxucuda Nizami qəhrəmanları haqqında "O kimdir?" sualı yox, "O, özünü necə dərk edir?" sualı və ona cavab yaranır.

Nizami üçün insan ən uca varlıqdır. Həyatın bütün nemətləri və gözəllikləri yalnız insan üçün mövcuddur. Ömür insana şərəfli və layiqli yaşamaq üçün verilmişdir. İnsan yaşamalı və yaratmalıdır. Nizaminin fikrinə görə, öz zəhməti ilə yaşamaq, hətta ləyaqətli və qürurlu yaşamağın özü insan üçün böyük, şərəfli işdir. Lakin insan özü üçün şərəfli həyatı həmişə yarada bilmir. Daha doğrusu, insanlıq şərəfinə nail olmaq yollarının qarşısını kəsənlər onun önünə sədd çəkənlər vardır ki, cəmiyyət belələrinə öz qoynunda yer verməməlidir. İnsanlıq şərəfini ucuz tutanları və bu

şərəfi ayaqlar altına alanları sosial ədalətin qorunması üçün təhlükə hesab edən Nizami onları rəzil və riyakar, şərəfsiz və ləyaqətsiz adamlar kimi qiymətləndirir. Cəmiyyət məhz belə xislətli tiplərdən həmişə ziyan görmüşdür. Öz nəfsinin əsiri olan, zəhmətkeş insanların əməyi hesabına yaşayan və hətta varlanan adamlarda insaf və dəlalət keyfiyyətləri axtarmaq əbəsdir.

***Ədəbiyyat:***


1. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual, psixoloji problemləri. Bakı, Azərnəşr, 1981, 190 s.
2. Əlizadə Ə.Ə. “Xəmsə”də yaş və pedaqoji psixologiya məsələləri. Bakı, Renessans, 2002, 141 s.
3. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı, Nurlan, 2006, 200 s.
4. Əliyev R.İ. Etnopsixologiya: qloballaşma və millilik. Bakı, Nurlan, 2007, 180 s.
5. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı, Yazıçı,1983
6. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı, Elm, 1981
7. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı, Elm,1982


## THE PROBLEM OF PERFECT PERSONALITY IN NIZAMI’S WORK


**Ramiz Aliyev**
*ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri, professor*
*Email:ramizeliyev1954@mail.ru*

**Gulşən Mahmudzadə**
*ADPU-nun Ümumi psixologiya kafedrasının laborantı Mahmudzadegulshan457@gmail.com*


### SUMMARY


For Nizami Ganjavi, the highest criterion of personality was humanity. Among the heroes of this poet, who rejected national and religious discrimination, were Turks, Persians, Arabs, Chinese, Indians, Negroes, Greeks, Georgians and others. we meet representatives of nations. The humanist poet does not oppose the nationality or religious beliefs of any of these heroes of different religions. Its heroes fight for justice, people’s happiness and high goals. Respect for human personality and human labor is one of the leading themes of the poet’s work.

# NİKAH YAŞINAÇATMA NİKAHIN BAĞLANILMASININ ZƏRURİ ŞƏRTLƏRİNDƏN BİRİ KİMİ

**Məhəbbət Dəyirman qızı Dəmirçiyeva**

*Bakı Dövlət Universiteti, Hüquq fakültəsi,*
*Mülki hüquq kafedrasının müdiri, hüquq üzrə*
*elmlər doktoru, professor*
*e-mail: mahabbat_d.h.t@mail.ru*

***Açar sözlər:*** *nikah, nikah yaşı, erkən nikah, uşaq hüquqları, sağlamlıq, ailə, qanun, cinayət.*

***Key words:*** *marriage, age of marriage, early marriage, children's rights, health, family, law, crime.*

2021-ci il Azərbaycanın dünyaşöhrətli alim-şairi Nizaminin ili elan olundu.

Nizaminin adı tarixi salnamələrdə – Əbu Məhəmməd İlyas İbn Yusif İbn Zəki Müəyyət Şeyx Nizami Gəncəvi kimi qeyd edilibdir. Nizami Gəncəvinin əsərləri nəinki Azərbaycanı müsəlman ölkələrində, dünyanın demək olar ki, hər yerində tanıtmışdır. Nizami Gəncəvi əsərlərində qadın hüquqları, anaya verilən dəyər, qadının kişilərlə bərabər səlahiyyətliliyi diqqətdən qaçmamışdır. Böyük şairin ən gözəl beytlərindən birində belə deyilir:

*Elə bir ixtiyar olsaydı məndə,*
*Qoymazdım bəndəyə möhtac bir bəndə.*

Namizədlik və doktorluq işinə layiq başqa bir ifadəsində Nizami Gəncəvi qeyd edir ki:

*Erkək tinətliyəm olsam da qadın,*
*Hər işi bəllidir mənə dünyanın.*
*Məndə bir aslanam, düşünsən bir az,*
*Aslanın erkəyi-dişisi olmaz.*

Böyük mütəfəkkir bununla bildirmək istəmişdir ki, qadın qul-kölə deyil, əks cinslə tam bərabərhüquqlu bir varlıqdır. Qadın anadır, qadın Vətəndir, qadın bir millətin namusu, qeyrətidir.

"Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 6 mart 2000-ci il tarixli 297 nömrəli Fərmanının 2-ci bəndinə əsasən, Ailə Məcəlləsinin 10.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın

səlahiyyətlərini yerli icra hakimyyəti orqanları həyata keçirir. Qaydaların 3.14-cü maddəsinə əsasən, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin yerli icra hakimiyyəti nikah yaşının azaldılmasına icazə verdikdə nikah haqqında akt qeydinin 16-cı qrafasında rayon (şəhər, şəhərdə rayon) icra hakimiyyəti başçısının müvafiq sərəncamı ilə (tarixi və nömrəsi göstərilməklə) vətəndaşın nikah yaşının 1 ilədək (və ya neçə ayadək) azaldılması barədə qeyd aparılır.

Ənənəvi olaraq milli qanunvericiliyimizdə on altı yaşına çatmayan şəxslə cinsi əlaqədəolma və ya seksualxarakterli digər hərəkətləretmə əməllərinə görə cinayət-hüquqi məsuliyyət nəzərdə tutulmuşdur. Ailə Məcəlləsinin ilkin redaksiyasında qadınlar üçün nikah yaşının 17 yaş müəyyən edilməsi və yerli icra hakimiyyəti orqanının nikah yaşının 1 ildən çox olmayan müddətə azalda bilməsi faktik olaraq 16 yaşı tamam olmuş qızların nikaha daxil olmasını mümkün edirdi.

Azərbaycan Respublikasının 29 may 2015-ci il tarixli 1296-IVQD nömrəli Qanunu ilə CM-nin 152-ci maddəsinin aşagıdakı yeni redaksiyası müəyyən olunmuşdur:

“On altı yaşına çatmayan şəxslə cinsi əlaqədəolma və ya seksualxarakterli digər hərəkətləretmə üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

152.2. Eyni əməllər on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə – üç ildən altı ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

152.3. Bu Məcəllənin 152.1 və ya 152.2-ci maddələrində göstərilən əməllər yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya yetkinlik yaşına çatmayana nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tərbiyə, tibbi və ya digər müəssisənin müəllimi və ya digər işçisi tərəfindən törədildikdə – üç ilədək müddətə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə və ya edilməməklə dörd ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Qeyd: Bu Məcəllənin 152 və ya 153-cü maddələrində nəzərdə tutulmuş cinayətlərə görə məsuliyyət həmin maddələrdə göstərilən əməlləri törətmiş şəxslə zərərçəkmiş şəxsin yaş fərqi iki ildən çox olduqda yaranır.”

Qadına 16 yaşdan nikaha daxil olmasına icazə verilməsi Azərbaycan Respublikası Cinayət Məcəlləsində on altı yaşına çatmayan şəxslə cinsi əlaqədəolma və ya seksualxarakterli digər hərəkətləretmə əməllərinə görə məsulyyət nəzərdə tutan 152-ci maddənin məzmununa yenidən baxılması zərurətini yaradırdı. Məlum olduğu kimi, CM-nin 152-ci maddəsində nəzərdə tutulan cinayətə görə məsuliy-

yətin yaranması üçün 16 yaşına çatmayan şəxslə cinsi əlaqədəolma və ya seksualxarakterli hərəkətlər zorla deyil, könüllü həyata keçirilməlidir. Təcrübədə belə hallar olmuşdur ki, bəzən 16 yaşı tamam olmamış qızı onunla evlənmək məqsədi ilə və öz razılığı ilə qaçıran oğlan onunla könüllü surətdə cinsi əlaqədə olsa da və həmin qadın hamilə qalsa da, qadının nikah yaşına çatmaması səbəbindən onu qaçıran oğlan onunla nikaha daxil ola bilmirdi. Lakin bu faktlar gizlədilir və qadının 16 yaşı tamam olan kimi nikah yaşının azaldılması xahişi ilə yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinə müraciət edilir və bu yol ilə 16 yaşı yenicə tamam olmuş həmin qadınla nikahın bağlanması həyata keçirilirdi. Bu da faktiki olaraq 16 yaşı yenicə tamam olmuş qızlar ilə nikahın rəsmiləşdirilməsinə, əslində isə erkən nikahların leqallaşdırılmasına şərait yaradırdı. Bu baxımdan qanunvericiliyinin qadınlar üçün nikah yaşının kişilər ilə bərabərləşdirməsi və 18 yaş müəyyən etməsi təqdirəlayiqdir.

İnsan orqanizmi fizioloji cəhətdən cinsi funksiyaları tam həcmdə yerinə yetirə bildiyi andan cinsi yetkinliyə çatmış şəxs sayılır. Çinsi yetişkənlik uzunmüddətli prosesdir və orqanizmin fərdi xüsusiyyətlərindən asılı olaraq ayrı-ayrı şəxslərdə müxtəlif olur. Bununla belə, şəxs, adətən, 14 yaşı tamam olduqda cinsi yetkinliyə çatmış olur. Lakin cinsi əlaqəyə daxil ola bilmək üçün şəxsin təkcə cinsi yetkinliyə çatması şərt deyildir, onun həmçinin əxlaqi, mənəvi, psixoloji cəhətdən inkişaf etməsi, hərəkətlərinə qiymət vermək imkanına malik olması lazımdır. Ona görə də erkən nikahların ictimai təhlükəliliyi 16 yaşına çatmamış qadınların normal fiziki inkişaflarının və psixikasına əxlaqi təsirin pozulmasında ifadə olunur.

Bu səbəbdən erkən nikahların təkcə uşaqların fiziki sağlamlığına deyil, həmçinin onların psixoloji durumuna və bütün gələcək həyatlarına neqativ təsir göstərdiyi qeyd edilməlidir. BMT-nin hesablamalarına görə, bütün çağırışlara baxmayaraq, hazırda dünyada hər 7 saniyədə yaşı 15-ə çatmamış bir qız uşağı ərə getməyə məcbur edilir. İndiki vəziyyətdə uşaqkən ərə verilən qızların sayı 700 milyon nəfərə çatır. Bu problemlə ciddi mübarizə aparılmadığı təqdirdə, 2050-ci ildə zorla ərə verilən qız uşaqlarının sayı 1.2 milyarda çata bilər. BMT ölkəmizin də bu sahədə mövcud vəziyyətini mənfi qiymətləndirmişdir. Məsələn, BMT-nin Uşaq Hüquqları Komitəsinin 2016-cı il üçün hesabatına əsasən, Azərbaycan nikaha erkən daxil olan qızların sayına görə 144 ölkə arasında 69-cu yerdə, İrandan bir pillə irəlidə dayanmışdır. Hesabatda Azərbaycandan başqa keçmiş SSRİ ölkələrindən Gürcüstan, Qırğızıstan və Tacikistanda

da qızların erkən ərə verildiyi qeyd edilmişdir. Vətəndaşların Qeydiyyatı Statistikası üzrə Beynəlxalq Təşkilat 2015-ci ildə İranda 37 min erkən nikahın sənədləşdiyini, real rəqəmin daha artıq ola biləcəyini, çünki ailələrin çoxunun erkən nikahı qeydiyyata almadıqlarını qeyd etmişdir. BMT-nin Uşaq Hüquqları Komitəsi 2016-cı ildə İranda uşaqların erkən nikaha girməsi hallarının artmaqda olduğunu bildirərək, ölkəni nikah yaşı haqda qanunu dəyişməyə və bu yaş həddini 16-ya qaldırmağa çağırmışdır (1).

İran İslam Respublikasında vəziyyətin bu cür olması əslində başa düşüləndir. Belə ki, ölkə dünyəvi qanunlarla deyil, islam dini normaları ilə, şəriət əsasında idarə olunur. Burada nikaha daxilolmanın üç üsulu mövcuddur: 1) daimi nikah; 2) müvəqqəti nikah (siğə); 3) cariyə (kəniz) ilə nikah. Daimi nikah nikaha daxil olmanın əsas üsulu olub, adətən, İslam dini ayinlərini icra edən, bakirə və uşaq doğa bilən qadınlar ilə bağlanılır. Ərəb sözü olan siğənin lüğəti mənası faydalanmaq, istifadə etmək sayılır. Bəzi ilahiyyatçılara görə, siğə istilahda hər hansı bir qadınla müəyyən məbləğin əvəzində, müəyyən bir müddət birlikdə olmaq üçün razılığa gəlməkdir. Adi boşanmadan fərqli olaraq burada təyin edilən vaxt qurtarandan sonra qadın iddət müddətinin (iddət – əri ölən və ya bosanan qadının yenidən evlənə bilməsi üçün gözləməli olduğu müddətdir) yarısını gözləyir. Siğə kəbini kəsdirən qadın kişinin həyat yoldaşı deyil. Çünki miras, talaq, zihar kimi qadına aid hökmlər siğədə öz əhəmiyyətini itirir. Müddətli evlilik İslamda qəti olaraq qadağandır. Kəbində heç bir müddət təyin edilməməlidir. Siğə bir neçə illik olduğu kimi, bir neçə saatlıq da ola bilər. Burada minimum vaxt məhdudiyyəti yoxdur. Siğəni qəbul edənlər həqiqi kəbində olduğu kimi müsəlman qadınla yanaşı, xristian və yəhudilərin də siğə edilə biləcəyini qəbul edirlər (2).

Bəziləri isə hesab edir ki, şiə məzhəbində siğə (mütə) evliliyin bir növü sayılır və mütləq şəriət qaydaları çərçivəsində icra edilməlidir. Məsələn, əxlaqsızlıqla məşğul olan qadını mütə etmək haramdır. Daimi nikahda olduğu kimi, bakirə qız siğə kəbini kəsdirərkən də atasından və ya babasından icazə almalıdır, əks halda, mütə batil hesab olunacaqdır. Şəriət qaydası ilə talağı verilməmiş qadınla siğə etmək günahdır. Talağı verilmiş qadın isə mütləq iddəsini gözləyəndən sonra siğə edilə bilər. Evli qadınlarla siğə edilməsindən isə söhbət gedə bilməz. Mütə ilə daimi nikah arasındakı əsas fərqlərə aşağıdakılar aid edilir: 1) daimi nikah müddətsizdir, mütə isə müddətlidir; 2) daimi nikahda ərlə arvad bir-birinin varisi sayılırlar, mütədə isə bu yoxdur; 3) daimi nikahın sona çatması üçün talaq

verilməlidir; mütə evliliyi isə ya müddətin sona çatması ilə, ya da kişinin qalan müddəti qadına bağışlaması ilə qurtarır; 4) daimi evlilikdə kişinin qadını zəruri həyat şəraiti ilə təmin etməsi vacibdir, mütədə isə qadının bunu tələb etməyə haqqı yoxdur; 5) daimi evlilikdə qadın ərindən icazəsiz evdən kənara çıxa bilməz, mütədə isə kişinin haqqının itirilməməsi şərti ilə buna icazə verilir. Ortaq cəhətlərə gəlincə, hər iki evlilik kəbin kəsdirməklə (yəni kəbin duasını oxumaqla) gerçəkləşir. Hər iki evlilikdə kişinin qadına müəyyən məbləğdə mehriyyə verməsi şərtdir. Hər iki halda uşaq doğulsa, ataya mənsub edilir və övladlıq hüquqları ona şamil olur. Övlad öz bioloji atasının və anasının, ikitərəfli və birtərəfli bacı-qardaşlarının varisi olur. Hər iki halda qadının ev işlərini görmək məcburiyyəti yoxdur. Hər iki nikahda qadınla kişinin arasında məhrəmlik yaranır. Yəni qadının bəzi qohumları kişiyə, kişinin bəzi qohumları da qadına məhrəm olur. Hətta daimi nikahda olduğu kimi, mütədə də iki bacı ilə eyni zamanda evlənmək haramdır və s. Mütə cəmiyyətdəki bəzi sosial-əxlaqi problemləri aradan qaldırmağa kömək edir. Müəyyən səbəblər (istər maddi, istər sosial, istərsə də psixoloji amillər) üzündən daimi ailə qurub bir yerdə yaşaya bilməyən, buna hazırlığı və imkanı olmayan şəxslərin harama düşməsinə mane olur. Müasir cəmiyyətdə təhsil, maddi təminat kimi problemlər üzündən insanlar erkən yaş həddində evlənə bilmir və nəticədə yaşlarını ötürürlər. Bu zaman mütə onlar üçün müvəqqəti olaraq daimi evlilik həyatını əvəz edə bilər. Eyni zamanda ərindən boşanan çox sayda qadın olur ki, hansısa səbəbdən ikinci dəfə daimi kəbin bağlaya bilmir və ya istəmir (uşaqlara görə, yaşayış yeri, ənənələrə və s. görə). Bu zaman da müvəqqəti kəbin harama getməyin qarşısını alan amil ola bilər (3).

Təqdirəlayiq haldır ki, son illərdə Azərbaycan Respublikasında hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işi müdafiə etmiş İran İslam Respublikasının vətəndaşlarından Səməd Rəhbəri Bənaiyan Abbasqulu oğlu və Yousefi Mohammad Hossein tibbi və psixoloji araşdırmalarla uşaqların 17–19 yaş arasında fiziki və əqli cəhətdən yetişdiyini əsas götürərək Azərbaycan Respublikasında olduğu kimi, İİR-də də yetkinlik yaşına çatmamanın son həddinin 18 yaş müəyyən edilməsini, onların cinayət məsuliyyəti və nikaha daxil olmaq məsələsinin bu yaşdan həll edilməsini təklif etmişlər (4; 6).

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən rəsmi qeydə alınmış nikah və boşanmaların sayı və ümumi əmsalları, onların orta yaşı, kişilər və qadınlar arasında yaş qruplarına görə nikahlarının sayı üzrə

hesabatlar aparılır. Həmin məlumatlar əsasında bəzi göstəricilərin təqdim edilməsini məqsədəuyğun sayırıq.

Azərbaycan Respublikasında 1991–2019-cu illərdə rəsmi qeydə alınmış nikaha daxil olanların orta yaşı

| İllər | Nikaha daxil olanların orta yaşı | | 1-ci nikaha daxil olanların orta yaşı | |
|---|---|---|---|---|
| | kişilər | qadınlar | kişilər | qadınlar |
| **1990** | 27,4 | 24,3 | 26,2 | 23,2 |
| **1991** | 26,8 | 23,3 | 26,2 | 22,9 |
| **1992** | 26,7 | 23,2 | 25,9 | 22,7 |
| **1993** | 27,0 | 22,8 | 25,9 | 22,3 |
| **1994** | 27,3 | 22,9 | 24,2 | 22,3 |
| **1995** | 27,5 | 23,0 | 26,5 | 22,9 |
| **1996** | 28,0 | 23,3 | 26,6 | 22,6 |
| **1997** | 28,0 | 23,2 | 26,8 | 22,6 |
| **1998** | 28,1 | 23,3 | 26,6 | 22,6 |
| **1999** | 28,4 | 23,5 | 27,1 | 22,9 |
| **2000** | 28,4 | 23,6 | 27,3 | 23,1 |
| **2001** | 28,4 | 23,6 | 27,3 | 23,1 |
| **2002** | 28,6 | 23,8 | 27,6 | 23,4 |
| **2003** | 28,6 | 23,7 | 27,6 | 23,3 |
| **2004** | 28,5 | 23,7 | 27,5 | 23,3 |
| **2005** | 28,4 | 23,7 | 27,5 | 23,4 |
| **2006** | 28,2 | 23,5 | 27,5 | 23,3 |
| **2007** | 28,1 | 23,5 | 27,4 | 23,3 |
| **2008** | 28,0 | 23,4 | 27,3 | 23,1 |
| **2009** | 28,0 | 23,4 | 27,3 | 23,1 |
| **2010** | 27,9 | 23,4 | 27,3 | 23,1 |
| **2011** | 28,3 | 23,7 | 27,6 | 23,4 |
| **2012** | 28,4 | 24,0 | 27,6 | 23,7 |
| **2013** | 28,4 | 24,0 | 27,7 | 23,7 |
| **2014** | 28,6 | 24,1 | 27,6 | 23,7 |
| **2015** | 28,6 | 24,1 | 27,5 | 23,6 |
| **2016** | 28,6 | 24,1 | 27,6 | 23,7 |
| **2017** | 28,8 | 24,2 | 27,6 | 23,7 |
| **2018** | 29,0 | 24,3 | 27,7 | 23,7 |
| **2019** | 29,4 | 24,7 | 28,1 | 24,0 |

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi BMT Uşaq Fondu ilə birgə 2009-cu uldə "Erkən nikahlar: uşaq hüquqlarının pozulması" ilə bağlı araşdırma aparmışdır. Tədqiqat respublikanın Bakı, Abşeron, Quba, Lənkəran və Ağstafa bölgələrini əhatə etmişdir. Azərbaycanda erkən nikahın qarşısının alınması və ona qarşı tədbirlərlə bağlı qanunvericilikdə, siyasətdə və təcrübədə tələb olunan təkmilləşdirmə üzrə tövsiyələr təqdim olunmuşdur. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, BMT- nin Əhali Fondunun (UNFPA) Azərbaycandakı nümayəndəliyi və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin maddi və texniki dəstəyi ilə birgə 2010-cu ildə ölkənin regionlarının şəhər və kənd yerlərində "Qızların erkən nikaha daxil olması və rəsmi və rəsmi nikahdan kənar doğum hallarının öyrənilməsinə dair" statistik müayinəyə əsasən, 18 yaşadək erkən nikaha daxil olan qadınların 38,9%-i şəhər, 61,1%-i isə kənd yerlərində yaşayanlar olmuşdur. Erkən nikaha daxil olan qadınların 37,4%-i öz istəyi ilə, 25,9%-i valideynlərinin təzyiqi altında, 10,7%-i ailədə maddi vəziyyətin çətin olduğuna görə, 7,9%-i ərinin maddi cəhətdən varlı olmasına görə, 6,4%-i qaçırıldığına, 1,6%-i isə hamilə olduğuna görə erkən nikaha daxil olmuşdur. 16 yaşda

öz istəyi ilə, 15 yaşda hamilə olduğuna görə erkən nikaha daxilolma hallarının xüsusi çəkisi daha yüksək olmuşdur. Qaçırılma halları 15 və 17 yaşlılar arasında daha çox baş vermişdir. Erkən nikaha daxil olan qadınların atalarının 31,9%-i kənd təsərrüfatı işçisi, 17,0%-i fəhlə, 9,6%-i nəqliyyat işçisi, analarının 53,7 %-i evdar qadın, 17,9%-i kənd təsərrrüfatı işçisi, ərlərinin 21,1%-i – kənd təsərrüfatı işçisi, 14,1% – ticarət işçisi, 9,9%-i nəqliyyat işçisi, 7,2%-i tikinti işçisi olmuş, 7,3%-i fermer, 7,0%-i işsiz olmuşdur. Həmin qadınların 40,5%-nin müvafiq sənədləri qaydasında olmadığından, 33,2%-nin nikah yaşına çatmadığından, 26,3 %-nin isə digər səbəblərdən Ədliyyə Nazirliyinin müvafiq qurumlarında nikahları qeydiyyata alınmamışdır. Erkən nikahlardan doğulan uşaqlarların 97,1%-i stasionar, 2,9%-i isə ev şəraitində dünyaya gəlmişdir. Ev şəraitində doğan qadınların 53,9%-i bunun səbəbini maddi çətinlik, 27,7%-i isə doğum evinin uzaqda yerləşməsi ilə izah etmişlər (5).

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və digər orqanlar tərəfindən erkən nikahların qarşısının alınması istiqamətində müəyyən işlər aparılsa da, statistik göstəricilər bu sahədə vəziyyətin heç də ürəkaçan olmadığını göstərir. Komitə tərəfindən 2009–2011-ci illərdə şəhər və kənd yerləri üzrə 15–17 yaşlı qadınlar tərəfindən doğulan uşaqların sayı aşağıdakı şəkildə müəyyən edilmişdir:

| **İllər** | **15-17 yaşlı analar tərəfindən doğulan uşaqların sayı cəmi, nəfər** | **Şəhər yerlərində** | **Kənd yerlərində** | **Diri doğulan ların ümumi sayına nisbətən %-lə cəmi** | **Şəhər yerlərində** | **Kənd yerlərində** |
|---|---|---|---|---|---|---|
| 2009 | 3538 | 1110 | 2428 | 2,3 | 1,5 | 3,1 |
| 2010 | 4103 | 1463 | 2640 | 2,5 | 1,8 | 3,1 |
| 2011 | 4392 | 1450 | 2942 | 2,5 | 1,7 | 3,2 |

Cədvəldən göründüyü kimi, həm erkən nikah halları, həm də erkən yaşda uşaq dünyaya gətirən qadınların daha çoxu kənd yerlərində yaşayır. Bundan əvvəlki cədvəldən göründüyü kimi isə, 1990–2019-cu illərdə nikaha daxil olanların orta yaşında ən aşağı hədd kişilər arasında 26,8 (1991-ci il), qadınlar arasında 22,8 (1993-cü il), ən yüksək hədd kişilər arasında 29,4 (2019-cu il), qadınlar arasında 24,7 (2019-cu il) olmuşdur. Başqa sözlə, həm qadınlar, həm kişilər arasında nikaha daxilolmanın yaş həddində getdikcə artım dinamikası müşahidə olunur ki, bu, həm sosial, həm də tibbi-bioloji baxımdan düzgün deyildir. Nikaha keçikmiş yaşda daxilolma, erkən nikah qədər olmasa da, hər bir halda arzuolunan deyildir.

***Ədəbiyyat:***

1. BMT-nin Azərbaycanda erkən nikahla bağlı şok hesabatı – Ərə verilən azyaşlı qızların sayına görə yalnız İrandan geri qalırıq / http://strateq.az/xeber/118375/bmt-nin-azərbaycanda-qizlarin-erkən-nikahi-ilə-bagli-sok-hesabati.html – 30.11.16
2. Elşad Miri. Siğə haqqında / http://www.suallarlaislam.com/-sual/sig%C9%99-haqqinda
3. Rəhimov N. İslamda siğə varmı, yoxmu? / http://az.islam.az/article/a-236.html
4. Səməd Rəhbəri Bənaiyan Abbasqulu. Azərbaycan Respublikası və İran İslam Respublikasının qüvvədə olan cinayət qanunvericiliyinə görə yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak etməsinə görə cinayət məsuliyyəti. H.ü.f.d. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2016, 26 s.
5. Veysəlova A. Erkən nikahlar (təhlil) / http://scfwca.gov.az/?cat=59
6. Yousefi Mohammad Hossein. Azərbaycan Respublikası və İran İslam Respublikasının qüvvədə olan cinayət qanunvericiliyi üzrə quldurluq əməlləri ilə cinayət-hüquqi mübarizə məsələlər H.ü.f.d. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2015, 27 s.

# REACHING THE MARRIAGEABLE AGE IS ONE OF THE NECESSARY CONDITIONS FOR MARRIAGE

**Mahabbat Deyirman kyzy Demirchieva**

*Baku State University, Faculty of Law,*
*Head of the Department of Civil Law in Law*
*doctor of science, professor*
*e-mail: mahabbat_d.h.t@mail.ru*

## ABSTRACT

One of the prerequisites for entering into a marriage is that the parties reach the marriageable age. At different times and in different countries, there were different views on the age of marriage. However, the general position on this issue is that those who marry must be physically, psychologically and spiritually mature enough to understand the meaning of marriage. In the

original wording of Article 10 of the Family Code of the Republic of Azerbaijan, entitled “Age of marriage”, the age of marriage was set at 18 for men and 17 for women. By the Law of the Republic of Azerbaijan No. 255-IV QD dated November 15, 2011, the words “18 years for men and 17 years for women” in Article 10.1 were replaced by the words “18 years”. Thus, at present, the age of marriage for men and women in the Republic of Azerbaijan is the same – 18 years. Based on these amendments to the Family Code, we consider it correct to equalize the age of marriage for women with men, that is, from 17 to 18 years old, both in terms of preventing early marriages and in order to avoid conflicts between various areas of legislation. However, according to article 10.2 of the Family Code, in case of compelling reasons, the relevant executive authority at the place of residence of minors wishing to get married may, at their request, allow a reduction in the age of marriage by no more than one year.

# NİZAMİ GƏNCƏVİ:
# XII ƏSR PSİXOLOJİ FİKRİN DUASI KİMİ

**Qızxanım Nizaməddin qızı Qəhrəmanova**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Psixologiya elmləri doktoru, professor*
*xanimgahraman@gmail.com*

***Açar sözlər:*** *əxlaq dərsliyi, tərbiyə, yenidəntərbiyə, gender, vərdişlər*
***Keywords:*** *moral textbook, education, re-education, gender, habits*

Ədəbi-mənəvi xəzinəmizin qürurverici, heç vaxt solmayan ən qiymətli incilərindən biri XII əsr dünya poeziyasının sönməz ulduzu, "sözün əsl mənasında bir düha olan" Nizami Gəncəvinin bizə miras qoyub getdiyi əsərlər psixoloji-pedaqoji irsdir. Doqquz əsrə yaxındır ki, bu irsdən "əxlaq dərsliyi" kimi istifadə olunur və neçə-neçə əsrlər bundan sonra da istifadə olunacaqdır. Bu "dərsliyin" çox səhifələri hələlik yetərincə öyrənilməyib.

Nizami yaradıcılığının ölməzliyini təmin edən səbəblərdən biri də onun həlli yollarını göstərdiyi ictimai problemlərdir. Şairə görə, cəmiyyətin başında ağıllı, maarifli hökmdar durmalı, bununla da insanların cəmiyyətdəki ahəngdar münasibətlərini təmin etməlidir. Hökmdar ictimai mühitin başında duran bir şəxs olduğundan, o, əsl lider olmalı, xalqı öz arxasınca aparmağı bacarmalıdır. Həmin mühitin sağlamlığı bir çox cəhətdən onun şəxsi keyfiyyətlərindən asılıdır.

Nizami sənətinin ölməzliyi bir də özünü insan psixologiyasının əsas problemlərini açmasındadır. Burada biz yaşlı nəslin gənc nəslə tərbiyəvi təsirlərini də, tərbiyə və özünütərbiyə məsələlərini də, bilik, bacarıq və vərdişlər qazanmağın yollarını da, hətta ayrı-ayrı yaş dövrlərinin təsvirini də görə bilərik.

Nizaminin "Xəmsə"yə daxil olan ilk poeması «Sirlər xəzinəsi» (1174) «Xəmsə»nin başqa hissələrindən fərqli olaraq vahid süjet xəttinə malik deyildir. Ancaq burada öz əksini tapan bir çox problemlərin təqdimində müxtəlif hekayə və rəvayətlərdən ustalıqla istifadə edilmişdir. Bu hekayələrdə əmək fəaliyyətinin faydalılığı, nəsillər arasındakı psixoloji fərqlər, o cümlədən yaşlı nəslin öyüdləri öz əksini tapmışdır. "Kərpickəsən qoca"nın nəsihəti ilə gənc nəslə yaşlı nəslin öz təcrübəsini ötürməsi, onları tərbiyə etməsi bir örnək kimi verilmişdir.

“Xosrov və Şirin” (1180) poeması Nizaminin bir çox psixoloji məqamları əks etdirən poemasıdır. Əsərin mövzusu İran Sasani hökmdarları sülaləsinin tarixindən götürülsə də, şair bir çox problemlərin təqdim edilməsində öz doğma mühitinin hadisə, şəxsiyyət və problemlərindən çıxış etmişdir. Təsadüfi deyil ki, əsərin qəhrəmanı Xosrov Pərvizin həyatının ancaq Azərbaycan şahzadəsi Şirinlə bağlı məqamlarına daha çox diqqət yetirilir, şairə doğma olan bu gözəl az qala baş qəhrəman kimi təqdim edilir. Poemada Nizami özündən əvvəlki şairlər kimi sadəcə ötəri həvəs və yüngül ehtirası deyil, insanı mənən zənginləşdirən və kamilləşdirən, onu ilahi mərtəbəyə qaldıran, onun xarakterini mənfidən müsbətə doğru dəyişdirən ülvi məhəbbəti tərənnüm etmişdir. Onun qəhrəmanı Xosrov poemanın sonunda məhəbbətin təsiri altında heyrətamiz dərəcədə dəyişərək ideal bir şəxsiyyətə çevrilmişdir. Bununla Nizami insan şəxsiyyətinin tərbiyə və yenidəntərbiyənin təsiri ilə dəyişə biləcəyini, müsbət yöndə xarakterinin yenidən formalaşması yolunu göstərmişdir.

İnsanı ucaldan, onun adını əbədiləşdirən ülvi məhəbbətin təsvir və tərənnümü «Xəmsə» silsiləsinin üçüncü əsəri olan «Leyli və Məcnun»da (1188) özünə yer tapmışdır. Bu əsərində Nizami öz sənətinin ecazı ilə ölməz bir məhəbbət dastanı yaratmağa nail olmuşdur. Poemada insan azadlığı, qadınlara münasibət öz əskini tapmışdır. Poemanın baş qəhrəmanları –insan azadlığı ideyasını qəbul etmək istəməyən cəmiyyət tərəfindən «məcnun» (dəli) adlandırılmış Qeys və Leyli insanın azad sevib-sevilmək arzularının təcəssümünə çevrilmişdir. Əsərdə başlıca problemlərdən birini də qadın azadlığına tamamilə yeni baxış təşkil edir. Şair cəmiyyətin və şəxsiyyətin azadlıq və inkişafına mane olan o zaman üçün köhnə olan adət-ənənələrin əleyhinə çıxır, insanın cəmiyyətdə rasional azadlığı ideyasının vacibliyi fikrini irəli sürür və əsaslandırır. Süjetin faciə ilə sona çatmasında Nizami insanı əhatə edən ictimai mühiti, ictimai qınağı, bu mühitdə hökm sürən qeyri-məntiqi adətləri, vəhşi instinktləri günahlandırır.

Nizaminin son poemaları olan «Yeddi gözəl» (1197) və «İsgəndərnamə» (1203) şairin uzun illərdən bəri kitabxanalarda apardığı elmi axtarışların, etdiyi müşahidələrin məntiqi nəticəsidir. Hər iki əsər tarixi mövzuda yazılsa da, Nizami tarixdən yalnız bir fon kimi istifadə etmişdir. Bu poemalarda Nizami Fitnənin ağır bir öküzü qaldırmasını təsvir edərək vərdişlərin insan həyatındakı rolundan, təkrarlanan davranışların necə vərdişə çevrildiyindən bəhs etmişdir. Ta kiçikliyindən öküzü qaldırmaqla artıq

Fitnə özündə vərdiş formalaşdırır. "İsgəndərnamə"də Bərdə hökmdarı Nüşabənin timsalında hələ XII əsrdə qadının da yaxşı rəhbər, güclü idarəedici ola bilmə imkanını açıqlamışdır. Azərbaycan psixologiyasına gender məsələləri XX əsrin sonu, XXI əsrin, əvvəllərində gəlsə də, hələ XII əsrdə göründüyü kimi, dahi Nizami bu məsələni qabartmışdır.

Nizami sənətinin böyüklüyü və onun estetik idealının ülviliyi sonrakı əsrlərdə də Azərbaycan ədəbiyyatının inkişafına güclü təkan vermiş, bu böyük dahi tərəfindən müəyyən edilmiş humanizm və demokratizm prinsipləri təkcə Azərbaycan deyil, bütövlükdə Yaxın və Orta Şərq, eləcə də bir sıra Qərb ədəbiyyatlarında humanist meyillərin intişarına səbəb olmuşdur. Onun əsərləri eyni zamanda psixoloqlar və pedaqoqlar tərəfindən də öyrənilmiş, bir sıra tədqiqat işləri yazılmışdır. Bu da bir daha Nizaminin XII əsr psixoloji olduğunu göstərir.

***Ədəbiyyat:***

1. Apoyev B.Nizami Gəncəvinin pedaqoji görüşləri. Bakı, 2008
2. Babayeva T.Nizami Gəncəvinin ədəbi irsində şəxsiyyət problemi. Bakı, 2000
3. Bayramov Ə.Etnopsixologiya. Bakı, 2000

## NIZAMI GANJAVI AS A GENIUS OF PSYCHOLOGICAL THOUGHT OF THE XII CENTURY

**Gizkhanum Nizameddin kizi Gahramanova**

*Azerbaijan State Pedagogical University*
*doctor of psychological sciences, professor*
*xanimgahraman@gmail.com*

### SUMMARY

Nizami Ganjavi was a genius of the XII century. He made significant contributions not only in the field of literature, but also in psychology. The immortality of Nizami's art lies in the fact that it reveals the main problems of human psychology. Here we can see the educational effects of the older generation on the younger generation, issues of upbringing and self-education, ways to acquire knowledge, skills and habits, and even a description of different ages.

# NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞINDA GENDER MƏSƏLƏLƏRİ

**Ülviyyə Akif qızı Əfəndiyeva**

*ADPU-nun Ümumi psixologiya kafedrasının dosenti*

***Açar sözlər:*** *gender, qadın, bərabərlik*
***Key words:*** *gender, woman, equality*

Cəmiyyətin ictimai həyatında gender məsələləri, qadının mövqeyi uzun tarixi bir dövr keçərək formalaşmış və tədricən inkişaf etmişdir. Lakin bu inkişaf asan əldə olunmamışdır, qadınlar özlərini təsdiq etmək üçün daima çətinliklərin aradan qaldırılması uğrunda mübarizə aparmış, cəmiyyətdəki rollarını yüksəltməyə və fəaliyyət dairələrini daha da genişləndirməyə çalışmışlar. Azərbaycan qadını tarix boyu özünü büruzə verən, milli mənliyimizdə dərin kök salan bir sıra ənənəvi keyfiyyətlərlə səciyyələnir. İnsanpərvərlik, fədakarlıq, mətinlik, nəciblik, xeyirxahlıq, qayğıkeşlik kimi yüksək keyfiyyətlər məhz Azərbaycan qadınına xas xüsusiyyətlərdəndir.

Qədim dövrlərdən bəşəriyyəti narahat edən gender məsələsi, qadına münasibət bu və ya digər şəkildə işıqlandırılmışdır. Həm Qərb, həm də Şərq ictimai bədii fikrində gender problemi insan konsepsiyası çərçivəsində tədqiq edilmişdir. Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin əsərlərində cinslərarası sosial bərabərlik, qadına münasibət, cinsi fərqlər, qadın psixologiyası, qız tərbiyəsinin xüsusiyyətləri kimi gender məsələləri öz əksini tapmışdır. Onun irsinin tədqiqindən belə nəticəyə gəlmək olar ki, o, bütün yaradıcılığı boyu sosial münasibətlər, əxlaq, qadın-kişi arasındakı mənəvi bağlılıq haqqında suallara cavab axtarmışdır. Nizami dühasının ən böyük dəyərlərindən biri onun qadına, sevgiyə, ailəyə olan demokratik baxışlardır. O, əsərlərində ailəyə, sevgiyə yüksək qiymət verərək qadını zirvələrə qaldırmışdır. Şair öz əsərlərində cinslərarası sosial münasibətləri özünəməxsus şəkildə vermişdir. Onun yaratdığı Leyli, Şirin, Nüşabə, Fitnə və digər qadın surətləri gender baxımından bu günə qədər aktuallığını itirməyiblər.

"Sirlər xəzinəsi"ndən başlayaraq mövqe tutan Şirin və adi kəniz Fitnəyə

qədər qadın ləyaqəti şairi düşündürmüşdür, qadına sevgi Nizamiyə görə ön sırada durmalıdır. Çünki gözəllik, zəriflik ancaq qadın xislətində cəmləşə bilər (2, s.81).

Nizami müasirləri üçün ənənəvi olmayan fikir irəli sürərək zəngin daxili keyfiyyətlərə malik ağıllı, güclü qadın obrazları yaratmışdır. Şair yaradıcılığında qadını hətta kişidən daha ağıllı, daha güclü və daha humanist göstərə bilmişdir. Onun qəhrəmanları müasirləri üçün xarakterik olmayan, kişilərə ağıl öyrədən, onları doğru yola yönəldən, humanistliyə, ədalətə səsləyən güclü qadınlardır.

Nizami otuzillik elmi axtarışlarının nəticəsi olan «İsgəndərnamə» poemasında cəmiyyətdə qadının kişilərlə bərabər hüquqlara malik olmasını təbliğ edirdi. Tarixi həqiqətləri pozaraq Makedoniyalı İsgəndəri Azərbaycana – Bərdəyə gətirən Nizami onu qadın hökmdar Nüşabə ilə qarşılaşdırır. Heç vaxt məğlubiyyətin nə olduğunu bilməyən İsgəndərə Nüşabə sübut edir ki, ağıl və müdriklikdə, qoçaqlıqda qadınlar heç də kişilərdən geri qalmırlar. Nüşabə o dövr üçün çox qeyri-adi olan ideyanı – qadın və kişinin cəmiyyətdə bərabər olması ideyasını bu sözlərlə ifadə edir:

*Erkək tinətliyəm olsam da qadın,*
*Hər işi bəllidir mənə dünyanın.*
*Mən də bir aslanam, düşünsən bir az,*
*Aslanın erkəyi, dişisi olmaz.*

Nizami bu yolla qadının mütiliyi, köləliyi haqqında mövhumatı rədd edir, cinslərarası münasibətlərdə bərabərhüquqluluğu müdafiə edir.

İsgəndər qadınlarla həmişə keyf-əyləncə məclislərində görüşmüşdü, onları ən yaxşı halda kəniz statusunda dəyərləndirmişdi və bu təəssüratlar güclü emosional şəraitdə əmələ gəldiyi üçün möhkəmlənmişdi. Nüşabə isə kəniz deyildi, İsgəndər kimi hökmdar idi. Qadını yeni statusda qavrayanda İsgəndər onun ağlının qüdrətini görür və heyrətlənir.

Azərbaycan psixologiyasında Nüşabəni bir şəxsiyyət kimi səciyyələndirən keyfiyyətlər xüsusilə vurğulanıb. M.Abbasova görə, "Nüşabə simasında işində təmkinli, təlqinə qapılmayan, hər şeyin yerini bilən, ağıllı, kamil, möhkəmiradəli, işində tələbkar, müəyyən dünyagörüşünə sahib, nəfsinə hakim və s. bir çox müsbət xüsusiyyətləri daşıyan bir qadının siması verilmişdir" (1, səh,14).

Nizami Nüşabənin "dəniz incisindən təmiz olduğunu xüsusilə qeyd edir və onun minlərlə gözəl qızın" xidmət etdiyi sarayında saf, sağlam əxlaqi mühitdə bərqərar olmasını nəsilcə uca, pak hökmdar qadının özünün şəxsiyyəti ilə izah edir.

Nizaminin qadınlar haqqında mütərəqqi, liberal fikirləri onun «Xosrov və Şirin» poemasında da geniş ifadəsini tapmışdır. Şirin şərəf və ləyaqə-

tini uca tutan, fəal, öz xoşbəxtliyi uğrunda mübarizə aparan bir qadın obrazı kimi təsvir edilmişdir.

Nizami Gəncəvi qadın psixologiyası üçün səciyyəvi olan bütün xüsusiyyətlərin ana xəttini əxlaqi şüurun qeyri-adi effektləri ilə izah edirdi. Şirin Xosrovu nəhayətsiz dərəcədə sevirdi. Lakin Şirin Xosrovu tükənməz bir məhəbbətlə sevsə də, ismətli qadınlıq qürurunu, öz təmiz, ləkəsiz mənəviyyatını yüksək tuturdu, ismətini böyük hünər və cəsarətlə qoruyurdu. T.T.Babayevin fikrincə, "Şirini tərəddüdlərinə, iztirablarına səbəb olan və güclü iradəsi sayəsində həll etdiyi başlıca ziddiyyət ağılla hissin konflikti idi. Xosrovu bütün varlığı ilə sevən Şirin həm də onun ötəri hisslərinə qurban olmamaq, təmiz adını, ismətini, şəxsi ləyaqətini qoruyub sevgilisinə qanuni izdivac yolu ilə qovuşmağa çalışır. Nizami məhz bu konflikt işığında Şirinin qəlb çırpıntılarını, düşdüyü ziddiyyətli psixoloji vəziyyətləri təsvir edir, qəhrəmanın xarakterini, mənəvi keyfiyyətlərini açıqlamağa nail olur" (4, s. 90).

"Xosrov və Şirin poemasında" şair həm də Məhin Banunun dili ilə Şirinə söylədiyi sözlərlə qadınları daha güclü xarakterə malik olmağa, şərəfini, qürurunu hər şeydən üstün tutmağa və xoşbəxt olmağa çağırır. Bu poemada şair poetik dillə eşqi tərənnüm etmir, o eyni zamanda, tərbiyəvi əhəmiyyət kəsb edən məsələlərə də toxunur.

Ə.Ə.Əlizadəyə görə, "Xəmsə"də Məhin Banunun öyüdləri qeyri-adi psixoloji və pedaqoji meyarlarla təsvir olunmuşdur. Məhin Banu öz isməti ilə Şirin üçün ən təsirli örnək idi. Məhin Banunun Şirinlə münasibətləri əslində ana-bala münasibətlərini xatırladır. Onun bibi kimi qüdrəti məhz bu qeyri-adi doğmalıqda idi (4, s. 95).

"Məhin Banu Şirinə özünə elin-obanın gözüylə baxmağa səsləyir, rüsvayçılığın acı nəticələrini xatırladır, məhz bu kökdə məharətlə Şirinin təkcə əxlaqi şüuruna və hisslərinə deyil, həm də mənlik şüuruna təsir göstərməyə çalışırdı. Məhin Banu Şirinə özü ilə Xosrov arasında psixoloji məsafə saxlamağı məsləhət görürdü. Onun inamınca, Şirin Xosrovu ancaq vəfa, ismətlə özünə cəlb edə bilər. O, Xosrovu günəşə bənzədir və bu günəşlə elə rəftar etməyi məsləhət görür ki, onun "təndirinə çörəkdən qabaq düşməsin":

*Görsə ki, vəfalı, ismətli qızsan,*
*Elçi göndərəcək ədalətlə, inan.*
*Adın bu dünyada namuslu qalar,*
*Olarsan cahanda böyük hokmdar"*
(4, s. 97).

Doğurdan da dahi şairin yaratdığı Şirin obrazı təkcə "aytək nur saçan camalı", "xurma ağacı kimi hündür boyu", "şəkər dodaqları", "incidən daha parlaq dişləri", "burulmuş kəməndə bənzəyən cüt qara saçları", "şirin

gülüşü", "gül ləçəyitək al yanaqları", "ahu gözləri" ilə deyil, "naz-qəmzəsi", "min qəlbə həyəcan salan söhbəti", dərin zəkası, abır-həyası, yerişi-duruşu, nümunəvi davranışı ilə gözəldir. Bir sözlə, dahi şairin zəngin bədii təfəkkürünün məhsulu olan Şirində hər şey gözəldir, hətta, mərdanə ölümü də:

*Alqış bu ölümə, əhsən Şirinə,*
*Öldürən Şirinə, ölən Şirinə.*
*Məhəbbət yolunda ölüm budur, bax,*
*Canana belədir canı tapşırmaq...*
*Çox gözəl arvad var mərdlikdə bir şir,*
*Çox ipək içində şirlər gizlənir*
*(11, s.35).*

Şirin obrazı həm güclü həm də zərifdir. Xosrovu dəlicəsinə sevməsinə baxmayaraq o, şərəfini daha üstün tutur. Şair Şirin obrazında qadının öz xoşbəxtliyi uğrunda nə qədər mətin və inamla mübarizə apardığını önə çəkir. Şirin obrazını yaratmaqla əslində şair o dövrün ənənəvi feodal münasibətlərində qadına qarşı olan fikirlərə zərbə vuraraq darmadağın etmişdir.

Burada bir məsələni də xüsusi qeyd etmək lazımdır ki, öz dövrünün bir çox şair və filosoflarından fərqli olaraq dahi Nizami yuxarıda qeyd olunan fiziki bacarıq və keyfiyyətləri təkcə kişilərdə deyil, qadınlarda da görmək istəyirdi. Heç də təsadüfi deyil ki, onun sevə-sevə yaratdığı qadın obrazlarının əksəriyyəti (Məhin Banu, Şirin, Nüşabə və s.) dərin zəkası mənəvi zənginliyi və zahiri gözəlliyi ilə yanaşı, fiziki bacarıq və keyfiyyətləri: at çapması, ox atması, çövkan oynaması, hünərli və cəsarətli olması ilə kişilərdən geri qalmırlar (11, s.35).

Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasındakı Leyli surəti Şərq qadınının fədakarlığını, analıq qayğısını, onun evinə bağlılığını, məişətdəki rolunu, sevgiyə sədaqətini əks etdirir. Şair hər cür qadın zorakılığına son qoyulması ideyasını tərənnüm etdirir. Bu baxımdan da Nizami Gəncəvi, bəşəriyyətin yaşam tərzində qadının necə rol oynayacağını min il bundan əvvəl görüb onu qələmə almışdır.

Zəmanə "Leylini kölə halına salmış, qəlbini ruhunu sarsıtmışdır. Leylinin səadəti onun qarşılılı, saf eşqidir, onun idealı arzu və düşüncəsi ancaq Məcnundur. Leylini sevmədiyi bir adama ərə versələr də, o, yarımçıq səadətlə, dönük qismət və tale ilə barışmır, ömrünün sonuna qədər ilk sevgisini qəlbində gəzdirir. Məhəbbət və ismət hissi onun xarakter bütövlüyünu tamamlayır, mənəviyyatı bu iki duyğudan baş alır. Öz könlünün səsini dinləyən Leyliyə ar-namus hissi "tərpənmə" deyir, ikinci duyğu isə onun qəlbini, ruhunu buxovlayır, ağır iztiraba salır (4, s.67).

Leyli surəti Şərq qadınının fədakarlığı, sədaqəti ilə birlikdə onun mütiliyini də əks etdirir. Burada böyük şair qadın zorakılığını pisləyərək ona son

qoyulmasına çağırır. Leyli Şirindən fərqli olaraq çarəsizdir. Bu poemada Nizami çox kəskin sosial problemlər qaldıraraq süjetin məhdud çərçivəsi daxilində daha böyük məsələlərin həllinə çalışmışdır. Nizaminin yaradıcılığında qadın və kişi arasında sevgi münasibətləri xüsusi incəliklə vurğulanmışdır. Şair sevgi, sevənlər haqqında böyük ehtiram və məhəbbətlə yazır. Nizami düşüncəsində sevməyi bacaran insanlar daha böyük işlər görməyə qadirdirlər. Orta əsrlər şəraitində qadınların oyanması, insanlığını dərk etməsi və faciəsi Leyli surətində əks etdirilmişdir. Məcnun kimi sevən, yanan, duyan, onun kimi şəhid olan Leyli Məcnunun qadın tayıdır. Leylinin də faciəsi köhnəliyin öz yerini yeniliyə könüllü vermək istəməməsi üzündən, onun yeniliyə qarşı qəddar və amansız olmasından yaranır. Orta əsr feodalının mütləq hakimiyyətinin hələ güclü olduğu, lakin sarsılmağa başladığı bir dövrdə Leylinin faciəsi təbii idi. (10, s.11).

Nizami Gəncəviyə qədər qadına bu qədər yüksək qiymət verən şəxs tapmaq mümkün deyil. Şairin yaradıcılığının ilk qəzəlindən tutmuş ta "Xəmsə"sinin bütün poemalarında bu məsələ öz əksini tapmışdır. Qəribə burasıdır ki, çox şair və yazıçıların həyat tərzi ilə yazdıqları üst-üstə düşmür, tamamilə əkslik, ziddiyyət təşkil edir. Bu sahədə də Nizami Gəncəvi ən qabaqcıl yerlərdən birini tutur. Şairin öz qadınına münasibəti də çox maraqlıdır. O dövr üçün xarakterik olmayan belə münasibət şairin özünü də müasirlərindən hədsiz dərəcədə fərqləndirir. Onun kənizlə davranışı, ona qarşı münasibəti rəğbətlə qarşılanır. N.Gəncəvinin islam dininə bağlı olmasına baxmayaraq o, əsərlərində çoxarvadlılığı qəbul etməyərək pisləmişdir. Tək bir qadınla ailə qurmağı daha üstün tutaraq tərif etmişdir:

*Bircə arvad al ki, olasan əziz,*
*Çox arvadlı kişi qalar kimsəsiz.*

Dərbəndin hökmdarı şah Axistan Nizaminin əsərləri ilə tanışlıqdan sonra ona Qıpçaq qızı gözəl bir kəniz Afaqı hədiyyə göndərir. Bu kənizin şairin evinə gəlməsi yeni bir eşq şeirinin meydana gəlməsinə zəmin yaratdı. Tezliklə o, Afaqı özünə ömür-gün yoldaşı edir, ondan da Məhəmməd adlı bir oğlu dünyaya gəlir. Afaq da çox ağıllı qadın olduğundan Nizami ona kəniz deyil, öz qadını kimi baxır və elə ilk əsəri "Sirlər xəzinəsi"ndə buna eyham vurur. Afaq öz gözəlliyi ilə Nizami yaradıcılığına yeni bir eşq təravəti bəxş edir (2, s.68).

Nizaminin əsərlərində yaratdığı qadın surətləri cəmiyyət daxilində müstəqil və sərbəstdirlər və eyni zamanda cəmiyyətin aparıcı qüvvəsi olmağa qadir insanlardır. Ailə səadətinin əsası olan eşqi "uca göylərin mehrabı"

səviyyəsinə yüksəldən və məhəbbəti ən qiymətli dünya dəyəri adlandıran böyük Nizami insan psixologiyasına dərindən bələd olan söz sərrafı idi. O, düşkün həyat tərzi keçirən, hərəmxanalar saxlayan zalım hökmdarların pis əməllərini məhkum edir, qadın psixologiyasının bəzi məxsusi xüsusiyyətlərini incə poetik tərzdə oxuculara çatdırırdı.

Nizami bütün yaradıcılığı boyu qadın azadlığı ideyasını təbliğ və təqdir edərək, islamaqədərki dövrü ideallaşdırırdı. Çünki o zamanlar türk qadınları çadra və çarşabsız gəzir, öz taleyinə özü sahib olurdu. Məclislərdə kişilərlə yan-yana oturan bu qadınlar döyüş meydanlarında da onlarla bərabər döyüşür və qəhrəmanlıqda onlardan geri qalmırdılar. Nizaminin görüşlərində sosial bərabərlik fonunda kişi və qadın arasındakı saf sevgi haqqındakı ideyaları diqqəti cəlb edir. O sevgini insan xilqətinin günahkar tərəfi kimi qiymətləndirən orta əsrin hər şeyi dəyişməz qəbul edən sxolastik qaydalarından çox uzaqdır. Öz humanist baxışlarına sadiq qalan Nizami qadını gözəl və uca məxluq, sevgini isə insan təbiətinin ən müqəddəs, əlçatmaz zirvəsi hesab edirdi. Nizamiyə görə, həqiqi sevgi qadın ilə kişi arasındakı bütün sosial fərqləri, ziddiyyətləri aradan qaldıra biləcək bir vasitədir.

Şərq ədəbiyyatı tarixində N.Gəncəvi ilk dəfə olaraq cəmiyyətin yarısını təşkil edən qadınlara yüksək qiymət verərək, onları ülvi varlıq kimi təsvir edərək mərd, qorxmaz, sədaqətli, etibarlı qadın obrazları yaratmışdır. Onun əsərlərində istər zəif, məzlum olsun istərsə də güclü hökmdar olsun bütün qadın obrazlarına xüsusi hörmət və sevgi ilə yanaşılmışdır. Onun əsərlərində qəhrəman qadın obrazları bu gün müasir qadınlarımız üçün tarixdən dərs götürməyə misilsiz nümunədirlər.

***Ədəbiyyat:***


1. Abbasov M. Nizami Gəncəvinin psixoloji görüşləri. Namizədlik dissertasiyası. ADU, Bakı, 1948.
2. Ağamirov C. İran ədəbiyyatşünaslığında Nizami Gəncəvi irsinin öyrənilməsi və tədqiqi. Bakı, 2015.
3. Çələbiyev N.Z. Əfəndiyeva Ü.A. Ailə və gender psixologiyası. Dərs vəsaiti. Bakı, ADPU, 2021.
4. Əlizadə Ə.Ə. "Xəmsə"də yaş və pedaqoji psixologiya məsələləri. Bakı, 2002.
5. Əlizadə Ə.Ə. Qadın psixologiyası (Fəlsəfi psixoloji esselər). Bakı, 2015.
6. Əfəndiyeva Ü.A. Əsrin gender konsepsiyası. Dərs vəsaiti, Bakı, ADPU, 2017.
7. Mollayeva E.Ə. Təlim prosesində şagirdlərin tərbiyəsinin imkan və vasitələri. Bakı, "Müəllim" nəşriyyatı, 2009.

8. Mollayeva E.Ə. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan qadınlarının maarifçilik və qadın hərəkatında rolu//Elmi əsərlər// Bakı, ARTPİ, 2007, №4.
9. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı , 2011.
10. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı 2004.
11. Tajdehibonab M.K. Nizami Gəncəvinin əsərlərində gender mənzərəsi. Qərb Universiteti, Elmi xəbərlər № 1, 2016.

## GENDER ISSUES IN NIZAMI GANJAVI'S LITERARY WORKS

**Ulviya Akif kyzy Efendiyeva**

*General Psychology of ADPUof the chair associate professors*

## SUMMARY

The author of the article touches upon gender issues in Nizami Ganjavi's literary works and provides the analysis of the problems faced by women of the early Middle Ages. The article discusses the works of Nizami, who proclaimed an unusual idea for that time – the equality of men and women in society.

# NİZAMİ GƏNCƏVİ ƏSƏRLƏRİNDƏ PSİXİ SAĞLAMLIQ TƏMİNATÇISI OLAN PSİXOGİGİYENA QAYDALARINA DAİR TÖVSİYƏLƏR

**Qurbanova Lamiyə Mehdi qızı**

*ADPU-nun Ümumi psixologiya kafedrasının dos., psixol. üzrə fəl.dok.*

***Açar sözlər:*** *psixi sağlamlıq, şüuraltı, psixi enerji, təməl, subyektiv reallıq*
***Keywords:*** *mental health, subconscious, mental energy, basis, subjective reality.*

Psixoloji təsir vasitələrinin insanın şəxsi keyfiyyətlərinin formalaşmasında, psixoloji durumu və davranışının idarə edilməsində rol oynaması danılmaz faktdır: məsələn, hansısa bir cizgi filmi qəhrəmanının keyfiyyətlərini uşağın təlqin etməsi; hansısa bir TV qəhrəmanının imicini yeniyetmənin özünütəsdiq vasitəsi kimi seçməsi; müəyyən emosional halət yaşayan zaman şüuraltı gərginlikdən hansısa şeiri dinləməklə, mahnıya qulaq asmaqla və ya rəqs etməklə azadolma və s. Bu üsulların təsir gücünün elmi təsdiqi psixoterapiyanın yaranması və inkişafında da özünü göstərmişdir. Araşdırmalar onu qeyd etməyə əsas verir ki, şüuraltı nitqin transformasiyasında (lat. transformatio "şəkil dəyişmə, çevrilmə"), yəni şəxsiyyətdaxili konfliktə səbəb olacaq daxili nitqin xarici nitqə çevrilməsində (şüuraltının müəyyən qədər yüngülləşməsində) də psixoloji təsir vasitələrinin əhəmiyyətli rolu mövcuddur: əgər psixoloji təsir vasitələri şüuraltı məlumatlarla tanışlıq əlaqələri qura biləcəksə hökmən bu proses psixikanın senzura təbəqəsindən keçərək bəzi istək, arzuları xülyalara çevrilmədən xilas edəcək və diqqət prosesin icrası istiqamətindəki davranışın tənziminə yönəlmiş proqramların idarəsinə yönələcəkdir[1].

Şüuraltında miflər, əfsanələr, nağıllar, atalar sözlərinin və s. izləri mövcuddur. Bu izlər yaddaşa genetik olaraq köçürülmüş də ola bilər və ya sonradan qazanılmış da...: məsələn, uşağı yatızdırmaq üçün laylalar oxunmuş (ağlayan uşağı sakitləşdirmək üçün sözlər təsir etməyəndə həzin bir

[1] Lamiyə Qurbanova. Diqqətə aid koqnitiv modellər (Doyçlər, Norman və Kaneman modelləri). "Elmi əsərlər" beynəlxalq elmi-nəzəri jurnal, Bakı, 2015, №2(25), səh.130-135.

mahnının təsirini də təbii müşahidələrdə dəfələrlə şahidi olmuşuq), onu sakitləşdirmək üçün nağıllar danışılmış, psixi inkişafına təsir edəcək oyunlar qurulmuşdur və s. Hamısı şüuraltımızdakı mnemonik, genetik, təcrübi “toxumlar”la bağlıdır və əgər münbit faktorlar təsir edəcəksə, bu “toxumlar cücərəcək”. Ona görə də uşaqlara ibrətamiz nağılların danışılması, musiqilərin dinlədilməsi, şeirlərin öyrədilməsi onların şəxsiyyət kimi yüksək səviyyədə yetişdirilməsi prosesinə tətbiq edilən tərbiyəvi üsulların vacib şərtlərindən hesab edilir: təməli möhkəm olan tərbiyənin gedişat prosesi də uğurlu olur. Təəssüflə qeyd edilməlidir ki, son illər uşaq ədəbiyyatlarında, oyunlarında milli-mənəvi, bəşəri dəyərlərə zidd vasitələrə rastgəlmə halları çoxalır. Bu yolverilməz prosesdir: getdikcə sağlam həyat tərzi sürməyən, əxlaqi keyfiyyətləri cəmiyyətdə ciddi qarşıdurmalar yaradan insanların sayı artır. Tərbiyənin psixoprofilaktik tədbirlərinin uşaq yaşlarından başlayaraq tətbiqi prosesin gələcəyinə dair optimis proqnozlaşdırma faizinin keyfiyyətinə müsbət təsir edir. Yuxarıda da qeyd edildiyi kimi, ailələrdə, məktəbəqədər müəssisələrdə kiçik məktəb yaşı dövrlərində uşaqlara ibrətamiz öyüd-nəsihətlərlə zəngin olan ədəbiyyata maraq oyatmaq lazımdır, məsələn, uşaqlara gözəl şeirlər öyrətməklə onların şüuraltılarına gələcəkdə aktivləşəcək pozitiv bir proqram yüklənmiş olar. Gələcəyimizə töhfə verəcək belə neyrolinqvistik proqramlaşdırma metodlarından biri də dahi şairimiz Nizami Gəncəvinin əsərlərindəki hikmətli tövsiyələrlə dolu şeirlərinin təbliği, öyrədilməsidir.

Nizami Gəncəvi əsərlərində müasir günümüzlə ayaqlaşan və hətta gələcəyimizə istiqamətlənmiş mövzular çoxdur, məsələn, vətənpərvərlik, mərdlik, təhsil, tərbiyə sahələri və s. Maraqlı məqamlardan biri də ondadır ki, getdikcə gün-gündən aktuallaşan və cəmiyyətin ciddi probleminə çevrilmiş psixi sağlamlıq göstəricisi olan əxlaqi davranış və bu davranışın formalaşmasını şərtləndirən psixogigiyena qaydalarına [(psixo+gigiyena (греч. - ὑγιεινός “sağlam”) termin ilk dəfə alman psixiatrı Robert Zommer tərəfindən işlədilib; psixogigiyena – psixi sağlamlığın qorunması, möhkəmləndirilməsi istiqamətində həyata keçirilməsi zəruri hesab edilən profilaktik xarakterli tədbirləri özündə cəmləşdirən sahədir] dair tövsiyələrə Nizami Gəncəvi öz əsərlərində geniş yer vermişdir. Nizami Gəncəvi əsərlərini oxuyan və əsərlərdəki hikməti dərk edib anlayan insanlar bəşəri enerji mənbəyi hesab edilən psixi enerjilərinə pay qatıldığını hiss edir və əsərlərdəki gücü-qüdrəti duyurlar. Təbii ki, Nizami Gəncəvi bu tövsiyələri irəli sürəndə nə psixi enerji termini

vardı, nə də ki psixogigiyena termini, ancaq psixologiya elminin inkişaf tarixindən də məlumdur ki, ilkin elmi təsəvvürlər və elməqədərki mərhələ elmi mərhələnin inkişafına zəngin töhfə vermişdir: vaxtilə şeirlərdəki, nağıllardakı, atalar sözlərindəki, bayatılardakı və s. psixoloji məqamlar sonradan elmiləşmiş, terminləşdirilmişdir... Məhz bu kontekstdə psixi enerjinin mahiyyətini, psixi enerji ilə psixi sağlamlıq arasındakı əlaqəni, Nizami Gəncəvinin psixi enerjini qoruyacaq psixogigiyena qaydalarına dair tövsiyələrini ayrı-ayrılıqda təhlil edib bir-birilə əlaqələndirməklə yuxarıda qeyd edilmiş fikirləri elmi əsaslandırmaq mümkündür.

Psixi enerji (termini ilk dəfə Ziqmund Freyd işlədib) psixi aparatı, təzahürləri aktivləşdirən, hərəkətə gətirən təsirdir (qüvvədir). Psixi enerji psixika (yun. psychikos – ruh) və enerji (qədim yun. ἐνέργεια – fəaliyyət, güc) sözlərinin birləşməsindən ibarət olub, psixi potensialı üzə çıxaracaq, həyati fəaliyyəti aktivləşdirəcək gücü ifadə edir. Həyati fəaliyyət üçün tələb olunan psixi enerji sonsuz deyil. Bu proses məhdud psixoloji resurslara əsaslanır. Psixoloji resursları səfərbər edəcək psixi enerjini artırmaq, eləcə də bu enerjini qorumaq üçün sağlam həyati vərdişlərə yiyələnmək tələb olunur. Əgər insan güclü psixoloji immunitetə malikdirsə, onun psixi homeostazında harmoniya mövcud olacaqdır və psixi enerjisi də yüksələcəkdir. Psixoloji immunitet təbii ki, psixoloji müdafiədən fərqlənir. Əgər psixoloji müdafiə mexanizmi psixi problemlə mübarizə zamanı aktivləşirsə, psixoloji immunitet bu problemi yaxına buraxmamaq funksiyasını daşıyır. İnkar olunmaz faktdır ki, fiziki və psixi sağlamlıq bir-birilə qırılmaz vəhdətdədir. Birində problem baş verərsə, hökmən digərinə də təsir göstərəcəkdir. Maraqlı məqam isə ondan ibarətdir ki, psixi sağlamlığı təmin edən psixi enerji hətta sağalmaz somatik xəstəliklərə də qalib gəlmək gücünə malikdir: təbii müşahidələrdən də görmək mümkündür ki, bəzən həkimlərin sağalda bilmədiyi xəstəliklərə xəstənin ümidli olması, həyata optimist yanaşması, həyat eşqi qalib gəlir. Psixi enerjinin aktivləşməsində subyektiv reallıq mühüm rol oynayır. Subyektiv reallıq – insanın özü haqqında hisslərini, fikirlərini, düşüncələrini, potensial imkanlarını dəyərləndirməsidir. Psixi cəhətdən sağlam olmaq üçün hökmən insan özünün güclü və zəif tərəflərini təyin etməlidir, nəfsini öz iradəsinə tabe etməyi bacarmalıdır. Bəzən insanların psixi problemlərinin səbəbi öz yaşının tələb etdiyi fəaliyyətlə deyil, fiziki və mənəvi gücü çatmadığı fəaliyyətlə məşğul olması, eləcə də yaşına uyğun olmayan tərzdə həyat sürməsi ilə bağlıdır. Hər yaş

dövrünün öz xüsusiyyətləri və aparıcı fəaliyyət növü vardır, məsələn, əgər körpə uşaq oyuncaqla oynamaqdan zövq alaraq özünü xoşbəxt hiss edirsə, yaşlı insan öz həyati təcrübəsini bölüşərək verdiyi nəsihətlərinin hörmət və ehtiramla dinlənilməsindən xoşbəxt ola bilər. İnsanın öz yaş xüsusiyyətlərini lazımınca hiss etməsi və bunu ətrafdakılara gözlənilən kimi təqdim edərək hörmət qazanması, eləcə də yaşının tələbatına uyğun fəaliyyət növü ilə məşğul olması psixi sağlamlığa müsbət təsir edir. İnsan hər zaman özünütəsdiq etməyə çalışır və bu proses həm sosial, həm də bioloji tələbatlardan qaynaqlanır; özünütəsdiq edə bilmədikcə özündən narazı qalır, özünü qınayır və prosesin gedişatı təbii ki, psixi sağlamlığın ziyanınadır. Problemin uğurlu həlli isə özünüdərkdən asılıdır. Özünüdərk yüksək səviyyədə həyata keçirsə, bu zaman özünütəsdiq yerini özünügerçəkləşdirməyə verir (özünütəsdiqdə ətrafdakıların rəyi və fikri əsasdırsa, özünügerçəkləşdirmədə insanın öz tələbat və ehtiyacı əsasdır). Öz istəyini dərk edərək özünügerçəkləşdirməyi bacaran insan həyatından məmnun olur. Həyatından məmnun olmaq isə sağlam həyat sürmək və xoşbəxt olmaq deməkdir. Psixi baxımdan sağlam həyat sürmək üçün psixogigiyena qaydalarını bilmək şərtdir. Hər yaş dövrünə, peşə fəaliyyətinə, ailədaxili münasibətlərə və s. aid psixogigiyena qaydaları mövcuddur. Bu qaydalardan ən populyar olanları aşağıdakı şəkildə qruplaşdırılmış və hər birinə aid Nizami Gəncəvi əsərlərindən tövsiyələr təqdim edilmişdir:

Konfliktlərdən uzaq durmaq üçün ünsiyyət mədəniyyətinə riayət etmək:

*İki yaxşı adı bədnam eyləmək,*
*İsməti itirmək, söylə, nə gərək.*
*Biz bir-birimizdən gərək utanaq,*
*Tanrı qabağında həyadan yanaq.*[1]

Orqanizmdə pozitiv hormonları aktivləşdirmək üçün mənəviyyatı təmiz saxlamaq, gözəl düşüncələrə köklənmək:

*İnsanı sarsıdar göz yaşı, nalə,*
*Ah çəkib, of deyən yetməz kəmalə!*[2]

Hörmət və sevgiyə olan tələbatın təmin edilməsi üçün cəmiyyətdə mövcud olan mənəvi dəyərlərə hörmətlə yanaşmaq:

*Bir olsa yoldaşın, dostun əməli,*
*Daşdan su çıxardar onların əli.*
*Nifaq olan yerdə fəlakət də var,*
*Səadət günəşi birlikdən doğar.*[3]

---

[1] Nizami Gəncəvi. Xosrov və Şirin. http://anl.az/el/n/ng_x&sh.pdf

[2] Nizami Gəncəvinin hikmətli sözləri. http://anl.az/el/emb/nizami/iframe_hs.htm

[3] Nizami Gəncəvi. Leyli və Məcnun/Nofəlin II müharibəsi. https://www.ens.az/az/nizami-gencevi-leyli-ve-mecnunnofelin-ikinci-muharibesi

Özünütəkmilləşdirmə ilə məşğul olmaq:

*Kim ki, öz-özünü düşmüşdür başa,*
*Ona ölüm yoxdur, o ölməz haşa.*
*Nəqşini bilməyən fanidir, fani,*
*Baqi say bu nəqşi bilən insanı.*
*Tanısan özünü, köçsən cahandan,*
*Yenə bu dünyada yaşayacaqsan.*[1]

Özgüvənə xidmət edəcək davranış tərzinə üstünlük vermək:

*Yüksəklərə ucaldar hünər, cəsarət səni,*
*Hünərsiz alçalarsan, tapar rəzalət səni.*[2]

Gərginlik yaradacaq məlumat çoxluğundan uzaq olmaq:

*Ağıllı adamın söylədikləri,*
*Yer altına düşsə itməz dəyəri.*
*Söz deyən düşünüb söyləsə əgər,*
*Pis söz də söyləsə, yenə xoş gələr.*
*Hər sözə bir meyar, ölçü gərəkdir,*
*Naqqallıq yükünü çəkən eşşəkdir.*[3]

Yaxşı insanları tanıyaraq onlarla daha çox ünsiyyət qurmaq:

*Ağıllı adamla yaşa səlamət,*
*Nadanın dərmanı törədər illət.*
*... Ağılsız kəslərlə oturub-duran,*
*Ağıldan, şüurdan deməsin dastan.*
*... Eşşəyin cəvahir olsa da yükü,*
*Yenə də eşşəkdir, parıldar tükü.*[4]

Psixi gərginliyi aradan götürəcək fəaliyyətlə məşğul olmaq:

*Ülviyyət timsalıtək ucalmağa çalış sən,*
*Ülviyyət göylərindən öc almağa çalış sən...*
*Ülvi eşqə can atar əsl insan cahanda,*
*Bəşər ülvi eşqiylə qazanıb şan cahanda.*
*Uzaqgörən kəsləri zövqü səfa ucaldıb,*
*Eşqinə sadiqliyi, əhdə vəfa ucaldıb.*[5]

Tibb elmi nə qədər inkişaf etsə də, bütün xəstəlikləri müalicə edə bilməz. Ona görə də hər kəs öz sağlamlığının qeydinə qalmalıdır, dərk etməlidir ki, sağlamlıq ən böyük nemətdir. Sağlam insan həyatın bütün çətinliklərinə sinə gərməyi bacarır. Sağlamlıq insandan fədakarlıq uğrunda mübarizə tələb edir. Sağlamlıq tənbəlliyi sevmir. Bir-birilə qırılmaz tellərlə bağlı olan sağlam həyat tərzi və psixi sağlamlıq

---

[1] Nizami Gəncəvi. Yeddi gözəl. http://www.anl.az/el/n/ng_yeddi_gozel.pdf
[2] Nizami Gəncəvinin hikmətli kəlamları. https://aydinyol.aztc.gov.az/newsview/2087/Nizami-Gencevinin-hikmetli-kelamlari
[3] Nizami Gəncəvi. Xosrov və Şirin. http://shirvan.cls.az/front/files/libraries/2474/books/521022305.pdf
[4] Nizami Gəncəvi. İsgəndərnamə. https://bakumodernschool.az/kitablar/bedii-edebiyyat/nizami-genjevi-isgendername-sherefname.pdf
[5] Nizami Gəncəvi. Sirlər xəzinəsi. http://www.anl.az/el/n/ng_sx.pdf

insanların təbii tələbatına çevrilməlidir. Sağlam psixikaya sahib insan tərbiyəsi ilə seçilən (cəmiyyətdə qəbul olunmuş davranış normalarına zidd hərəkət etməyən), sosial cəhətdən yaxşı adaptasiya qabiliyyətinə malik olandır. Psixi cəhətdən sağlam insanın həyati gücü, mənəvi gümrahlığı, yaşamaq eşqi, həyata pozitiv köklənmə tərzi orqanizmin fiziki gümrahlığını da qorumağa imkan verir. Belə insanlar həyatı dolğun və mənalı yaşayırlar:

*Öz düzlüyü kimsəni verməz bada dünyada,*
*Düz sözüylə kimsəyə yetməz qada dünyada.*
*Doğruluqla köməkdir hər bir ərə yaradan,*
*Doğru ol ki, yetirsin hər zəfərə yaradan…*
*…Doğru sözə bağlıdır öz qüdrətin həmişə,*
*Qoy qüdrətdən güc alsın söz qüdrətin həmişə.*
*El gözündə Nizami ucalıbdır düzlükdən,*
*İlhamına, qəlbinə güc alıbdır düzlükdən.*[1]

**Ədəbiyyat:**


1. Nizami Gəncəvi. Xəmsə. https://www.moruq.net/%C6%8Fd
2. Qurbanova Lamiyə Mehdi qızı. Psixi sağlamlıq (dərs vəsaiti). Sumqayıt, Azəri, 2019, 216 səh.


## RECOMMENDATIONS ON THE RULES OF PSYCHOHYGIENE, WHICH ARE PROVIDED BY THE PROVIDERS OF MENTAL HEALTH IN THE WORK OF NIZAMI GANJAVI


**Gurbanova Lamiya Mehdi gizi**

*Department of General Psychology of ADPU*
*dos., psychol. Ph.D.*


### SUMMARY


Subjective reality is an assessment of feelings, thoughts, reflections and the potential of a person about himself. In order to be mentally healthy, a person must determine their strong and weak sides, be able to control their desires. Sometimes mental problems of people are not connected with activity, required by their age, and with the fact that they are engaged in activity, which is not physically and mentally strong, and also do not live by age.


[1] Nizami Gəncəvi. Sirlər Xəzinəsi. https://www.ensaz.com/az/nizami-gencevi-sirler-xezinesion-dorduncu-sohbet

# AZƏRBAYCAN PSİXOLOJİ FİKİR TARİXİ VƏ N.GƏNCƏVİNİN PSİXOLOJİ KONSEPSİYASI

**Nurəngiz Tofiq qızı Rzayeva**

*ADPU-nun Ümumi psixologiya kafedrasının dosenti*
*E-mail: nurengiz.rzayeva@gmail.com*

***Acar sözlər:*** *orta əsr, əxlaq, dəyər, ağıl, ailə, dəyərlər sistemi, qadın, şəxsiyyət*

***Keywords:*** *kiddle age, morality, value, family, system of values, vomen, personality*

Bəşəriyyət yaranışından bu günə kimi spesifik psixoloji çalarlarla xarakterizə olunan tarixi özündə birləşdirir. Bu tarixdə əsrlərin təfəkkür süzgəcindən süzülüb gələn fikirlər, el məsələləri, tərbiyə məsələləri, xalq yaradıcılığı, xalqın inkişafı, böhranlar, hərəkatlar və s. məsələlər cəmlənir. Elə buna görədir ki, Azərbaycan xalqının psixoloji fikir tarixi də qədimliyi və zənginliyi ilə xarakterizə olunur. Hər bir xalqın, etnosun tarixini öyrənmək onun psixologiyasını, etnik xüsusiyyətlərini dərk etmək üçün önəmlidir. Vaxtilə Şteyntal və Latsarius özlərinin "Xalqlar psixologiyası" əsərini də bu zəmində yazmışlar. Xalq ruhu hər bir xalqa, millətə xas olan "ümumiləşmiş mənəvi birlik" kimi anlaşılır və tarixdə qalır. Xalqın tarixini öyrənmək, onun keçmişi, bu günü və sabahı haqqında məlumatlanmaq və gələcək perspektivlərə yol açmaq nöqteyi nəzərincə prioritet istiqamətdir. Qərinələr, illər bir-birini əvəz edir, dünya insan nəsilləri ilə bir yandan dolur, bir yandan boşalır, ancaq tarix, faktlar, deyimlər heç vaxt itmir və silinmir, unudulmur. Mənəvi abidələrə çevrilən və ruhumuza çökən həmin ideyalar yeni nəzəriyyələr yaratmaq üçün əsas verir. Zaman dəyişir, münasibətlər də yeni forma və məzmun kəsb edir. Amma yaddaşlarda xalqın adət ənənələrinin inkişafı, dəyərləri qalır və gündəmə gəlir. Və bütün bunlar hər bir elm sahəsinə öz təsirini göstərir. Çünki elmin tarixi həm də xalqın tarixidir. Onun dünyagörüşünün inkişaf mərhələlərinin güzgüsüdür, tarixi inkişafının məhsuludur. Bayronun belə bir fikri var: "Keçmişi oxumaq gələcəyi öyrənmək üçündür". Gələcək üçün ən yaxşı peyğəmbər keçmişdir. Bu kontekstdə elm özündən qabaqkı nəsillərin qoyub getdiyi biliklərlə və informasiyalarla

mütənasib sürətdə irəliləyib. Bilik ehtiyatı nə qədər çoxdursa, inkişaf da o nisbətdə artır. Bu həm də elmin inkişaf qanunudur. Odur ki, bəşəriyyət yaranandan bu günə kimi elmin bu və ya digər sahələri ilə bağlı fikirlər və məlumatlar mövcud olmuşdur. Bu mənada hər bir elmin özünün tarixi var, o cümlədən psixoloji fikrin təşəkkülü, inkişafı və mərhələləri də bu sıraya daxildir. Geniş xalq kütləsi tərəfindən yaradılan şifahi söz sənəti olan folklorda xalqımızın mənəviyyatı, dəyərləri, təfəkkürü və psixologiyası toplanmışdır. Qədim dövrlərdə yaşamaq uğrunda mübarizə aparan təbiətdən maddi nemətlər əldə etməyə çalışan insanlar özlərinin ilk fəlsəfi, psixoloji və pedaqoji fikirlərini yaratmışlar. Bildiyimiz kimi, yaranışdan insanların psixi həyatı ruhla şərtləndirilirdi. İnsanlar ruhun mahiyyətini aydınlaşdıra bilmirdilər. İbtidai insanların təsəvvüründə ruh bədəndən heç vaxt ayrılmırdı. Bu əsasən elməqədərki materialist şərhlərdə özünü göstərirdi. Qədim insanlara görə insanın ruhu onun bənzəridir. Onun tələbatları və adətləri mövcudluq şəraiti canlı insanlarda olduğu kimidir. Belə hesab edilirdi ki, ruhun başlıca funksiyası bədəni fəallaşdırmaqdır. Digər bir tərəfdən insanlar cansız əşyaları, bütləri güya qidalandırmaq, onlara hədiyyələr bəxş etməklə özlərini müdafiə edirdilər. Bütün bunlar qeyd etdiyimiz kimi, miflərdə, əfsanələrdə öz əksini tapmışdır. Ruhun mahiyyətini başa düşmək üçün isə təkcə fəlsəfi-psixoloji biliklərin deyil, eyni zamanda təbiətşünaslığın müəyyən inkişaf səviyyəsinə çatması lazım idi. Bu məsələlər psixoloji fikrin əsas qayəsini təşkil edir. Bütün dünyada olduğu kimi Azərbaycanda da psixoloji fikrin yaranması elmə qədər olan mərhələdən başlayıb, elmi psixologiyanın yaranması və inkişafı mərhələsinə qədər davam etmişdir.

Elməqədərki psixoloji fikirlərin yaranması tarixi çox qədimdən, eramızdan əvvəldən başlanır. O bir tərəfdən Şərq fəlsəfi fikrindən, digər tərəfdən xalq yaradıcılığından bəhrələnmişdir. O bir tərəfdən həyatın özündən ictimai-tarixi proseslərdən asılı olaraq inkişaf etmiş, digər tərəfdən baş verən proseslər psixoloji fikrə öz təsirini göstərmişdir.

Azərbaycanda psixoloji fikrin inkişaf tarixi mərhələlər üzrə səciyyələndirilir. Bu mənada aşağıdakı mərhələləri qeyd etmək olar:

1. Bu mərhələ yaradılışla bağlıdır. VII–VI əsrlərə qədər davam edir. Əsasən islamaqədərki dövrü özündə birləşdirir. "Yaradılış" kimi də səslənir. Digər tərəfdən İslam dini öz gəlişi ilə şəxsiyyətdə dini dəyərləri formalaşdırır və pozitiv şüur kontekstində təhlilə əsas verir. Dəyərin bu növünə əhəmiyyət verən şəxs xilqət aləminin bütünlüyünə, onun dərkinə varır, din və

məzhəblə bağlı məsələlərlə şüurlu şəkildə maraqlanır, xalqa və insanlara sevgi bəsləyir.

2. Güzəran dövrü ilə bağlı mərhələdir – bura aid biliklərin mənbəyini ictimai və şəxsi təcrübə təşkil edir. O dövrdən qalan bir çox cəhətlər bu gün də davam edir. Adət-ənənələrimizdə, andlarımızda, xarakterimizdə güzəran təcrübəsinə rast gəlmək olur. Ə.Əlizadə güzəran təcrübələrinə əsaslanaraq “Güzəran psixologiyası” kitabını da məhz bu xüsusda yazmışdır.

3. III mərhələ İntibah dövrünün hadisələrinin nümayəndələrinin fikirlərini özündə birləşdirir. Bu dövrdə əsasən nizamişümaslıq, onun ideyalarının təbliğatçısı kimi N.Tusinin fikirləri diqqəti çəkir. Dahi Nizaminin bənzərsiz konsepsiyası nəinki intibah dövrü, bütün dövrlər üçün aktuallığı ilə səciyyələnir.

4. IV mərhələ orta əsrlərdə psixopedaqoji fikirlər məcmusudur ki, burada da Ş.İ.Xətai, M.Füzuli, İ.Nəsimi və başqalarının ideyaları, düşüncələri toplanmışdır.

5. Bu mərhələ maarifçilik hərəkatı ilə səciyyələnir. Əsasən XIX əsrin 20–30-cu illərindən başlayan cərəyan nümayəndələrinin fəaliyyəti ilə xarakterizə olunur. Bu cərəyanın əsas nümayəndələri M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov, S.Ə.Şirvani və b. olmuşlar. Eyni zamanda maarifçilik cərəyanının ilkin ünsürləri M.Ş.Vazeh, A.Bakıxanov irsində də öz əksini tapmışdır. Bu dövr üçün səciyyəvi olan əsas hərəkatlar teatrın yaranması, mətbuatın “Əkinçi” ideyaralı ilə zənginləşməsi, Molla Nəsrəddin jurnalının dövrünün psixoloji simasını əks etdirən materialları və s. məsələlər əsas götürülmüşdür.

6. VI mərhələdə isə XX əsr psixoloji fikrin inkişafı cəmlənir. Burada da əsasən Azərbaycan klassiklərinin yaradıcılığı ön plana keçir. XIX əsrin sonu XX əsrin 20-ci illərindən başlayaraq artıq Azərbaycanda elmi psixologiya təşəkkül tapmağa başlamışdır ki, artıq bu gün bu elmin inkişafından ürək dolusu danışmağa əsas var.

Bütün qeyd etdiyimiz mərhələlərdə psixoloji məsələlər diqqət çəkir. Haqqında danışdığımız III mərhələyə gəldikdə qeyd etmək lazımdır ki, bu mərhələ psixoloji fikir tarixində özünəməxsus spesifik çalarlarla xarakterizə olunan və bəşəri səciyyə daşıyan N.Gəncəvi dühasının yaradıcılığını özündə birləşdirir. Dahi Nizami bəşəri bir dühadır. Vaxtilə ulu öndər Heydər Əliyevin 1997-ci ildə EA-nın ziyalıları ilə görüşündəki fikirlərindən bunu aydın görmək olar. Həmin görüşdə H.Əliyev N.Gəncəvinin “İsgəndərnaməsi”nin Homerin “İliada” poemasından geri qalmadıgını vurğulayaraq deyirdi ki, dünyanın böyük filosofu Höte özünün bəzi fəlsəfi müddəalarını N.Gəncəvinin fikirləri əsasında izah

etmişdir. Nizaminin bənzərsiz konsepsiyası və bu konsepsiyanın əsas qayəsini təşkil edən insan və şəxsiyyət anlamı psixoloji fikrin də əsas paradiqmalarındandır. O, insanı yaranmışların ən alisi hesab edir, öz imkanlarını dərk etməyə çağırır və deyir:

*Sən ey fələklər qədər uca, dəyərli insan.*
*Nazını çəkməkdədir bu yer, bu göy, bu kəhkəşan.*
*Hec xəbərin varmı ki, səsin yetişir hara?*
*Sənin zənn etdiyindən xeyli ucalıqlara.*

Göründüyü kimi, Nizami üçün başlıca məsələ insan uğrunda mübarizə idi. O, insanı "Allahın fonunda və ona nisbətdə dəyərləndirir" (Ə.Əlizadə). Bu kontekstdə onun konsepsiyası məzmun və mündəricə etibarı ilə bir çox müddəaları özündə birləşdirirdi:

Orta əsrlərin fəlsəfi fikrində ağıl problemi xüsusi aktuallıq kəsb edirdi. Nizaminin yaradıcılığında ağıl anlamı hisslərlə qarşılıqlı vəhdətdə təsvir olunur. "Xosrov və Şirin"də Nizami ağılla hissin psixoloji mübarizəsini belə təsvir edir:

*Gözlərindən biri eyləyirdi naz,*
*O biri deyirdi "yox belə olmaz"!*
*Ağlı "Təslim olma!" deyərkən ona*
*Nə arzu hakimdi, yarəb, könlünə.*
*Qızarmış tikantək iti idi yaman,*
*Nə xoşdur – qırmizi gül aça tikan.*

Yaş xüsusiyyətləri haqqında Nizami yaradıcılığında psixoloji kontekstdə önəmli açıqlamalar var. Bu xüsusda tərbiyə məsələləri şairin oğlu Məhəmmədə nəsihətində aydın görünür. Nizami "Xəmsə"sinin 3 poemasında yaş psixologiyası məsələlərini ətraflı araşdırmışdır. "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" poemalarının yazılma tarixi oğlu Məhəmmədin seçimli yaş dövrlərinə təsadüf edir. (7, 14, 21 – Aristotel). Bu yaşlarda oğluna müraciət etmişdir. Nizami "Xəmsədə" uşaqlıq dövrünün yaş normativlərini Xosrovun nümunəsində aşağıdakı kimi təsvir edir:

1 yaş – beşiyi tərk edib yeriməyə başlayır – çağa və körpə;

5 yaş – baxıb hər bir kəsə ibrət götürdü, başını biliklərlə doldurdu;

7 yaş – gözəlliyi ilə güllərə müşk saçdı;

9 yaş – oyun yolunu tərk edib güclü qolunu şir üstə sınadı;

10 yaş – artıq 30 yaşları heyran qoyurdu, elm alıb dərs oxuyurdu;

10–11, 14–15 – yeniyetməlik yaşı –könlündə hər şeyə maraq oyandı, dünyada yaxşını yamanı qandı.

Eyni zamanda psixi inkişafın yaş dövrləri sferasında spesifik olan gənclik illərini və sonrakı dövrləri Nizami belə təsvir edirdi:

*Bitirib iyirmi iki yaşını,*
*Yüz şirin bədəndən üzmüş başını.*

*Ömür otuz ildən keçdimi bir az*
*Qəflətdə yaşayıb dolanmaq olmaz.*
*Qırx yaşa qədərdir həyat nəşəsi.*
*Qırxda bitib gedir könlün həvəsi.*
*Əllidən aşdınmı canın sağ olmaz.*
*Ayaqlarda taqət, gözdə nur qalmaz.*
*Yetmişdə hər üzvün düşər taqətdən.*
*Dünyada əziyyət çəkib boy atdın.*
*Elə ki, səksənə, doxsana çatdın.*
*Oradan da yetirdin özünü yüzə,*
*Ölüsən diri də görünsən gözə.*

Nizami yaş dövrlərində gənclik yaşını xüsusi dəyərləndirir və cavanları gəncliyin qiymətini bilməyə çağırırdı.

*Gənclik təzə nallı, harın köhlən at,*
*Qocaldın nal qızır, düşür əldən at.*

Qocalıq yaşı dövründə insanın tələbat – motivasıya sahəsindəki dəyişikliklər Nizami yaradıcılığında xüsusi yer alır.

*Sən gəncliyin qədrini bil, bir an kimi keçib gedər,*
*Qərib karvan yolçusunu şəhər bir də haçan görər?*
*Dünya görmüş qocaların beli nə üçün əyilmişdir?*
*Bəlkə itmiş gəncliyini yerdə arar axşam-səhər?*
*Nağdımız da, nisəyəmiz də vur-tut bircə ömrümüzdür,*
*Ömrün-günün mənasından xəbərdar ol, ey bixəbər.*

Nizaminin bu çağırışları oğlu Məhəmmədə nəsihətinin ana xəttini təşkil edir və bugünkü gəncliyə nümunədir. “Gənclər istəsələr, ömürləri əbədiyyət ola bilər” deyən Nizaminin fikirləri bütün dövrlər üçün aktualdır.

“Xəmsə”də idrak prosesləri və xarakter xüsusiyyətləri, sistemli təsvir olunur. Nizami hafizə prosesini xüsusi dəyərləndirirdi və onu müxtəlif yönümlərdən təhlil edirdi. Leyli və Məcnunda yadasalma prosesi belə təsvir olunur:

*Leyliyə Məcnunun nə vaxtdan bəri*
*Eşq ücün dediyi xoş qəzəlləri.*
*Bəsirət gözüylə hafizəsindən*
*Arayıb, axtarıb, toplayıb bəzən,*
*Gəlib gedənlərə verərdi xəbər.*

Yaxud digər bir situasiyada hətta heyvanlara məxsus sadə yaddasaxlama prosesi təsvir olunur:

*Gəncin əl-qolunu baglayıb haman,*
*İtlərə atdılar onu kənardan.*
*O dəmirpəncəli, o pələng itlər*
*Əvvəlcə cavana hücum etdilər.*
*Ancaq tanıyınca baxıb durdular,*
*Quyruq bulayaraq boyun burdular.*

Nizami təxəyyülün mahiyyətini xüsusilə onun insan yaradıcılığındakı rolunu ətrafa aydınlaşdırmışdır. O, röyanı təxəyyülün özünəməxsus növü kimi nəzərdən keçirir.

*Röya bir xəyaldır, bədəndən doğar,*
*Bütün röyaların kökü bədəndir.*

Yaxud:

*Yuxuda gördüyün canlı ya cansız,*
*Sənin öz şamının odudur yalnız.*
*Sənə öz düşüncən göstərir yuxu,*
*Sənin öz arzundur onların çoxu.*

Nizaminin röyanı insanın arzuları, dilәkləri ilə əlaqələndirilməsi psixoloji cəhətdən maraqlıdır. Nizaminin fikrincə, röya surətləri insanın bir tərəfdən psixoloji halətini əks etdirir, digər tərəfdən onlarda yeni psixoloji halətlər əmələ gətirir.

*Aşiqin üzünə gülməsə vüsal,*
*Ona təsəllidir yuxu ilə xəyal.*
*Daldım xoş yuxuya coşarkən damaq,*
*Gözümdə canlandı səfalı bir bağ.*

Nizami Gəncəvi tərbiyə problemini bütün yaradıcılığında əsas götürmüş və şəxsiyyətin formalaşmasının ana xəttində tərbiyə məsələlərini qoymuşdur. Əbəs yerə deyildir ki, Azərbaycanda maaarifçilik konsepsiyasının inkişafı mərhələri ayırd edilərkən üçüncü mərhələ "ideologiyanın inkişafı" dahi Nizaminin adı ilə bağlanır. (M.Məlikzadə)

N.Gəncəvinin yaradıcılığında şəxsiyyət kontekstində ailədə ailədaxili münasibətlər, oğlan və qız tərbiyəsinin xüsusiyyətləri, ata nəsihətləri, ana öyüdü psixopedaqoji ölçülərlə səciyyələndirilir. Bu kontekstdə Məhin Banunun Şirinə və anasının Leyliyə öyüdləri ailə tərbiyəsinin əsas metodları və adət-ənənələrə hörmət xüsusunda vurğulanırdı.

Orta əsr Azərbaycan psixologiyasında Nizami Gəncəvinin bənzərsiz psixoloji konsepsiyasında qadın psixologiyası da xüsusilə fərqlənir. Bu mənada "Xəmsə"də ailə və qadın psixologiyası məsələləri qadın etalon və streotipləri fonunda qadın şəxsiyyətinin əzəməti parlaq qadın obrazları timsalında vəsf olunur və bu kontekstdə qadın psixologiyası məsələləri açıqlanır. Qadının kişidən fərqini həmişə onun zərifliyində, incəliyində axtarıblar. "İsgəndərnamə"də Çin xaqanı İsgəndəri dəyərli töhfələrlə qarşılayır. Xaqan "Gülüzlü kənizi" tərifləyir.

*Birinci, gözəldir, bərabəri yox,*
*Can alır, cənnətdə belə pəri yox.*
*İkinci güclüdür, həm də döyüşkən!*
*Qaçmaz döyüş günü mərd kişilərdən.*
*Üçüncü, yox səsdə ona bir bədəl,*
*Şən, şaqraq nəğməsi Zöhrədən gözəl.*
*Gözəl səs dalınca pəstdən, ucadan,*
*Nəğməsindən yatar həm quş,*
*həm ilan.*

Eyni zamanda qız tərbiyəsi önəmli xüsusiyyətlərlə seçilir. Qıpçaq çöllərində "üzü od, yanağı su kimi oynaq" qızlar üzlərini kişilərdən gizlədirlər. Bu adətlər İsgəndərin xoşuna gəlmir. Nizami bunu bərqərar olmuş adət-ənənələrlə izah edirdi. Lakin göstərirdi ki, həyat şəraitinin təsiri ilə qadın kişi üçün səciyyəvi olan məziyyətlərə yiyələnə bilər. Qadın ünsiyyətlidir, qılıqlıdır. Nizami qadını aya bənzə-

dərək göstərirdi ki, qapını bağlasan, o mehtabtək qapıdan gələr. Ay kimi qadına əl uzatmaq çətindir. Bu məziyyətlərin kökünü Nizami ilk növbədə qadının ekspressiv davranışının xüsusiyyətləri ilə izah edirdi. Qadın psixologiyası üçün səciyyəvi olan bu xüsusiyyətlər "Xosrovun məqbərəsində Şirinin özünü öldürməsi" məqamında yeni kontekstdə açılır. "Xosrovun məqbərəsində Şirinin özünün öldürülməsi" hekayətində də psixoloji cəhətdən son dərəcə maraqlı olan bir fenomen-maska fenomeni təsvir olunur (Ə.Əlizadə). Şirin özünü öldürmək istəyirdi və bunun üçün təzə gəlin maskasını taxmışdır. Şirin son vida üçün mobidlə danışıb, məqbərənin içinə girdi, adamların görünməməsi üçün qapını bağladı.

*Yanaşdı tabuta əlində xəncər,*
*Götürdü örtüyü, tapdı yaranı,*
*Əyildi bir dəfə öpdü yaranı.*
*Yaranın yerini öyrənən pəri*
*O yerdən döşünə vurdu xəncəri...*

Nizami Şirinin bu fədakarlığını məhəbbət yolunda ölüm kimi mənalandırır.

Qadının psixoloji xüsusiyyətləri çoxdur. Onun hisslər aləmi rəngarəngdir. Qadında kişidən çoxdur ehtiras. Ancaq qadın dözümlüdür, öz hisslərini cilovlaya bilir. Beləliklə, Nizami qadın psixologiyasını özünəməxsus psixoloji məkanda – ağılla hissin qovşağında açıqlayır. Bu psixoloji məkanı isə qeyri-şərtsiz bir meyarı var – əxlaq meyarı. Ağılla hissin qovşağında bu meyar qadının hisslər aləmində, xüsusilə namus sahəsi, həya-abır sahəsi əmələ gəlir. Şirinin sözləri ilə desək o, "bir ox tamaşası ilə" yoldan çıxmır. Qəmə də, dərdə də dözür. Leylinin ürəyi qəmlidir. "Dərdini heç kəsə aça bilmir", ancaq "zəhəri bal kimi içir". Nizami bu bənzərsiz məziyyətləri qadın psixologiyası üçün səciyyəvi sayır, onların kökünü isə ilk növbədə qadının mənlik şüurunda və əxlaqi şüurunda axtarır. Leyli ən çətin anda öz "yaxşı adını yaman olmaması" haqqında düşünür. O etiraf edirdi ki, bir yandan yarını itirib, bir yandan da əğyar üstünə tökülüb, bu iki dəstənin əlində bəlalar çəkir. Əgər ad ilə namus Leyliyə "tərpənmə" deyirdisə, adı bədnam eləməmək Şirin üçün ən böyük həyat məramı idi. "Xəmsə"də qadının əxlaqı, şüuru onun psixologiyasının ana xətti kimi təsvir olunur. Nüşabə, Leyli və Şirin effekti Azərbaycan psixoloji fikrində bu kontekstdə bənzərsizdir. Dahi Nizami yaradıcılığına nəzər salanda, həqiqətən də, onun bütöv bir konsepsiyaya malik olduğu aydın görünür. Bütün elm sahələri bu konsepsiyadan faydalana bilir və ən əsası yüz illər keçsə də, öz aktuallığını itirmir. Şairin özünün dediyi kimi:

*"Yüz il sonra sorsan,*
*Harda, hardadır?*

*Hər beyti səslənər*

*Burda, burdadır!"* – deyən "Şərqin Günəşi" Nizami, bənzərsizdir, bir ulduzdur. O, heç vaxt sönməyəcək! Yaşayacaq və ilahi şüura malik Nizami həqiqətən də onu yada saldıqca, xatırladıqca bizlərə göylərdən nur saçaçaq.

*Uzaqdan sən mənə göz yaşı töksən,*
*Mən sənə parlaq nur saçaram göydən.*
*Duadan bir dilək istəsən əgər*
*Mən amin deyərəm, qəbula keçər.*

***Ədəbiyyat:***


1. Ə.Əlizadə Azərbaycan etnopsixologiyasına giriş. Bakı,2003
2. Ə.Əlizadə, Z.Şirinova N.Gəncəvinin psixoloji görüşləri. Bakı, 2006
3. Ə.Əlizadə "Xəmsə"də yaş və pedaqoji psixologiya məsələləri. Bakı, 2003
4. R.Əliyev Psixologiya tarixi. Bakı, 2000
5. R.Əliyev Mentalitet. Bakı, 2009
6. R.Əliyev Tərbiyə psixologiyası. Bakı, 2006
7. Ə.Baxşəliyev Azərbaycanda psixoloji fikrin təşəkkülü və inkişaf tarixi. Bakı, 2008
8. F.Rüstəmov Pedaqogika tarixi. Bakı, 2009


## HISTORY OF AZERBAIJAN PSYCHOLOGICAL THOUGHT AND N. GANJAVI'S PSYCHOLOGICAL CONCEPT


**Nurengiz Tofig gizi Rzayeva**

*General Psychology of ADPU*
*associate professor of the department*
*E-mail: nurengiz.rzayeva@gmail.com*


## SUMMARY


The XI–XII centuries have a special place in the history of psychological thought in Azerbaijan as an important stage and are characterized by specific shades. The success of this period is directly connected with the name of the great Nizami. N. Ganjavi's psychological concept was an important event in the history of world psychological thought. At the heart of this concept is the meaning of human-personality. In this regard, family and women's psychology, age and pedagogical psychology, cognitive processes and upbringing issues, features of boy and girl upbringing are of great importance in «Khamsa».

# NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞINDA GƏNCLİK YAŞI DÖVRÜNÜN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Qəribə Vahid qızı Rəhimova**

*ADPU-nun Pedaqoji psixologiya kafedrasının müəllimi*
*Qariba648@mail.ru*

***Açar sözlər:*** *gənclik, şəxsiyyət, özünüdərk, psixoloji xüsusiyyət, münasibət*
***Keywords:*** *youth, personality, self-awareness, psychological characteristics, attitude*

İnsanlarda hər bir yaş mərhələsində, yeniyetməlik, gənclik, qocalıq və s. kimi dövrlərdə müxtəlif xüsusiyyətlərlə yanaşı, bu dövrə məxsus psixoloji xüsusiyyətlərin də formalaşdığını görə bilərik. Ümumiyyətlə şəxsiyyətin inkişafı bütün yaş dövrlərində davam edir. Biz deyə bilmərik ki, hansısa yaş dövrünə çatdıqda şəxsiyyətin formalaşması dayanır. Sadəcə, hər bir yaş dövründə şəxsiyyətin formalaşmasında yeni səciyyəvi xüsusiyyətlər meydana gəlir. Bundan əvvəlki yaş dövründə inkişaf etməyən xüsusiyyət artıq bu dövr üçün daha səciyyəvi olmağa başlayır. Məsələn: Yeniyetməlik dövründə ünsiyyət daha çox önəm daşıyır, ailə ilə olan yaxınlıq isə ikinci plana keçir. Amma bu xüsusiyyətə biz uşaqlıq dövründə rast gələ bilmərik. Uşaqlıq dövründə ailə ilə olan ünsiyyət daha önəmli olur. Və yaxud yeniyetməlik dövründə yaşlılıq hissi yarandığı üçün yeniyetmələr istəyirlər ki, onlarla böyük kimi davranılsın, onlara uşaq kimi baxılmasın. Təbii ki, valideyinlər də bunu hər zaman edə bilmədiyi üçün və ya valideylər bunu eyni səviyyədə başa düşə bilmədiyi üçün bu da onların yeniyetmələrlə ünsiyyətində çatışmazlıqların olmasına yol açır. Digər bir nümunəni gənclik dövründən verək. Gənclik dövründə gənclərdə mənlik şüurunun inkişafı əvvəlki dövrlərlə eyni səviy-yədə olmur. Getdikcə gənclər özlərini daha yaxşı tanımağa başlayırlar. Və yaxud gənclik dövründə gənclər bəzi mücərrəd anlayışların mahiyyətini daha yaxşı, daha düzgün anlamağa başlayırlar.

Yaş psixologiyasında gənclik dövrü 2 yerə bölünür. Erkən gənclik dövrü və son gənclik dövrü. Bu dövrlərdə yaranan psixoloji xüsusiyyətlər, əlbəttə ki, bir-birindən fərqlənir.Onlar kim olduqlarını, gələcəkdə nə etmək istədiklərini tapmağa çalışırlar. Buna

görə də yeniyetməlik dövründə olduğu kimi gənclik dövründə də dəyişkən ruh halları özünü göstərməkdədir. Xüsusilə də müasir dövrümüzdə yaşanan gənclik dövrü digər dövrlərə nisbətən daha çətindir. Bunun səbəbini belə izah edə bilərik ki, müasir dövr qloballaşma dövrüdür. Bu qloballaşma dövründə gənclər yaxında və yaxud uzaqda olmasına baxmayaraq, müxtəlif mədəniyyətlərlə tanış olmaq şansına malik olurlar. Sosial şəbəkələr, internet xidmətləri, televiziya və s. telekommunikasiya xidmətləri dünyanın müxtəlif yerlərində olan gəncləri birbirinə yaxınlaşdırır. Və onlar müxtəlif fikirlər, mədəniyyətlərlə tanış olduqca axtardıqlarını tapmaqda, öz yollarını müəyyənləşdirmək də daha çətinləşir. Çünki qarşılarında müxtəlif seçimlər açılır. Seçim çoxaldıqca qərar vermək daha da çətinləşir. Əvvəlki dövrlərin müsbət tərəflərindən biri seçimlərin daha az olması idi. Gənclər daha rahat qərar verirdilər. Əlbəttə, bunu da deməliyik ki, hər mədəniyyət gənclərin özündə formalaşdırdıqları mədəniyyəti humanizm çərçivəsində qəbul etmir.

Deyə bilərik ki, Avropa, Amerika mədəniyyəti müxtəlifliyə daha humanist mövqədən yanaşa bilir. Buna görə oradakı gənclərin daha azad və rahat seçimlər edə biləcəyini deyə bilərik. Təbii ki, bu müxtəlifliyin, seçimlərin çoxluğunun müsbət tərəfləri olmasına baxmayaraq, mənfi cəhətləri də mövcuddur. Axtarış içərisində olan gənclər hər zaman öz yollarını tapa bilmirlər. Bəzən isə öz yollarını tapa bilməyib, motivasiyaları aşağı düşdükləri üçün qaranlıq yanlış yollara baş vururlar. Qloballaşma dövründə inkişafın özüylə gətirdiyi mənfi xüsusiyyətlər də, gənclər üçün olan təhlükələrdə inkişaf edir. Buna görə də bu axtarış hər zaman müsbət nəticələrlə sonlanmır.

Gənclik dövründə formalaşan psixoloji xüsusiyyətlərə bunları aid edə bilərik: özünüdərketmə və özünü qiymətləndirmə səviyyəsi, mənlik şüuru, formalaşan əxlaqi keyfiyyətlərin məzmununda dəyişikliklər, peşə seçimi, gənclərin ətraf mühitdə baş verən hadisələrə qarşı olan münasibətindəki dəyişikliklər, ünsiyyət məzmununun, ünsiyyət çevrəsinin dəyişməsi, dostluq, sevgi, qarşi cinsə olan münasibət, valideynlərlə olan münasibətlərdə dəyişikliklərin və s. Yuxarıda adlarını çəkdiyimiz xüsusiyyətlər sadəcə gənclik dövründə yaranan keyfiyyətlər deyil. Bunlara yeniyetməlik və bunun kimi gidər dövrlərdə də rast gəlirik. Sadəcə gənclik dövründə bu keyfiyyətlər digər dövrlərdən daha fərqli, özünəməxsus səciyyəvi xüsusiyyətlər qazanaraq inkişaf edir.

Gənclik dövrü haqqında sadəcə psixologiya, pedaqogika kitablarında olan materiallarda danışılmır. Biz bu mövzuya yazıçıların və digər mütəfək-

kirlərin də öz münasibətlərini yazdığı əsərlərdə göstərdiklərini deyə bilərik. Bu dövrlə bağlı gənclərə məsləhət verdiklərini müşahidə edə bilərik. İstər dünya ədəbiyyatında, istər Azərbaycan ədəbiyyatında çoxlu sayda nümunələr mövcuddur və N.Gəncəvinin "Xəmsə"si də buna parlaq misaldır.

İstər günlük işlərdə, istər elmi işlərdə, istərsə də tarixi dövrlərin inkişafında və s. sahələrdə biz müşahidə edib görə bilərik ki, yeniliklər əsla yaranan kimi asanlıqla qəbul edilmir. Daim köhnə sistem tərəfindən qarşıdurmalarla qarşılanır. Cəmiyyət daim inkişaf edir. Hər şey dəyişir. Bu dəyişmədə dəyişməyən tək şey inkişafın özüdür. N.Gəncəvinin bununla bağlı bir beyti var.

*Dövranın çəkisi çəkər hər işi,*
*Çəkiyə girməmiş qalmaz bir kişi.*

Bu beytlərdən də aydın olduğu kimi, Nizami inkişafın gec-tez hər kəsə şamil olduğunu, hər kəsi içinə aldığını deyirdi. Nə qədər qarşıdurmalar olsa da, gec-tez hər kəsin bunu qəbul edəcəyini, bununla barışıb yaşayacağını deyirdi. İnkişaf baş verdikcə qarşıdurmalar yeni nəsil ilə köhnə nəsil arasında daha çox yaşanır. Yeni nəslin nümayəndələri öz fikirlərinin daha doğru olduğunu müdafiə edir. Köhnə nəsil isə öz fikirlərinin üzərində dayanır. Gəlin qəbul edək ki, yaranan nəzəriyyələr, fikirlər hər hansı mövzunu tam ətraflı əhatə etmir. Hər bir nəzəriyyə, hadisələri müxtəlif tərəflərdən əks etdirir. Və bunları doğru və yaxud yanlış olaraq ayırmaq getdikcə çətinləşir. Məsələn; psixologiyada şəxsiyyətin inkişafı ilə bağlı müxtəlif nəzəriyyələr mövcuddur:humanist nəzəriyyə, biheviorist nəzəriyyə, koqnitiv nəzəriyyə və.s. Biz deyə bilmərik ki, bu nəzəriyyələrdən hansı yanlış, hansı isə tam olaraq doğrudur. Bu nəzəriyyələrdə hər biri şəxsiyyətin inkişafına müxtəlif tərəflərdən baxılır. Amma buna baxmayaraq bu nəzəriyyələrin nümayəndələri arasında müəyyən qarşıdurmaların yaşandığını da deyə bilərik. Və yaxud başqa bir nümunə verək. Tarixi inkişaf dövləri bir-birlərini əvəz edərək bir-birlərindən sonra yaranmışdır. Hər bir dövr yaranarkən istər quldarlıq, istər feodalizm, istərsə də kapitalizm aralarında ziddiyyətlər olmuşdur.

Məşhur Fransız yazıçısı Viktor Hüqonun belə bir fikri var. "Zamanı gələn yeni fikrin, yeni düşüncənin qarşısını kimsə ala bilməz". N. Gəncəvinin də bununla bağlı "Sirlər xəzinəsi" əsərində belə bir beyti var.

*Qartımış kötüklərin sən vurmasan boynunu,*
*Sərvlər bəzəyərmi gülşənlərin qoynunu*
*Bağlamasan kökünə təzə bulağı, arxı,*

*Tufanla güləşərmi çinarın*
*qol-budağı*
*Arıtmasan, açmasan gözlərini*
*bulağın*
*Sözü gülə bilərmi bağrı yanan*
*torpağın.*

Nizami Gəncəvinin bu beytlərindən də bizlərə aydın olduğu kimi, o, yeniliyin tərəfdarı idi. Əgər yenilik olmasa, yeniliyin qarşısı alınsa o, zaman cəmiyyət üçün nəticələr müsbət olmayacaq. Gündəlik məişət həyatında da müşahidə etdiyimiz kimi, yaşlılar gənclərin fikirlərini asanlıqla qəbul etmir. Doğru, bu mədəniyyətdən mədəniyyətə dəyişir. Deyə bilərik ki, Avropa, Amerika mədəniyyətində gənclərlə yaşlılar arasındakı ünsiyyət üslubu daha humanist çərçivədə baş verir. Yaşlılar gəncləri anlamasalar da fərqli düşündükləri üçün onlara şəxsiyyətlərinə qarşı hörmətsizlik çərçivəsində davranmağı düşünmürlər. Bu vəziyyətin eynisinin bizim ölkəmizdə də baş verdiyini deyə bilmərik. Bizdə mədəniyyət dəyişikliklərin daha sərt qarşılandığını deyə bilərik. Gənclərlə yaşlılar arasında qarşıdurmalar daha çox yaşanır. N.Gəncəvi bu mövzunu "Sirlər xəzinəsi" əsərində təsvir edərkən "qocaların insafsız olduğunu" deyirdi. O, qocaları "köhnə tikana" bənzədirdi. Və deyirdi ki, "köhnə tikan insanı canını daha sərt incidir". Cavanları isə "yeni açmış gülə" bənzədirdi. Və "yeni açmış qönçənin iyinin zəif olduğunu" qeyd edirdi. "Cavanların daha ağıllı olduğunu və bu ağılın qocalar tərəfindən hər zaman xoş qarşılanmayacağını vurğulayırdı". Amma bununla yanaşı, ayrıca olaraq qeyd edir di ki, onları tənqid edərkən ölçünü qaçırmaq olmaz. Hər zaman hədd gözlənilməlidir. Lazım gəldikdə onları doğru olan məsləhətlərindən istifadə etməyin də vacib olduğunu deyirdi. Eyni zamanda, N.Gəncəvinin gənclərlə bağlı qocalara digər məsləhəti bu idi ki, inkisaf edən, irəliyə doğru gedən gəncləri köhnə gözlə dəyərləndirməyin. Yəni onların daim əvvəlki insan olduğunu düşünməyin. Bununla bağlı bir beytində deyirdi ki, "hövzə inkişaf edib dərya kimi formalaşdıqdan sonra ona əvvəlki gözlə dəyərləndirmə".

Gənclik dövründə özünü göstərən digər önəmli xüsusiyyət gənclərin peşə seçməsidir. Məktəb dövrünün son illərində hər kəs müəyyən bir peşəyə yiyələnmək üçün müəyyən elmlərə daha dərindən yiyələnməyə başlayır. Uşaqların doğru peşəyə sahib ola bilməməsinin altında yatan səbəblərdən biri istiqamətləndirmənin uşağın sahib olduğu imkanlar daxilində olmaması, uşağın ailəsinin seçiminin istiqamətində və yaxud uşağın arzuları çərçivəsində baş verməməsidir. Və bəzən uşağın arzularının onun sahib olduğu

imkanlarla üst-üstə düşməməsidir. İnkişaf artdıqca özü ilə bərabər çətinliklər də gətirir. Müasir dövrdə yaranan mədəniyyətlərdən biri rəqabət mədəniyyətidir. Hər kəs hər zaman həyatda qalmaq üçün bir-birilə rəqabət, yarış içərisindədir. Bunlara günümüzün rəqabət mədəniyyəti ilə baş edə bilmək üçün lazım olan psixologiyaya sahib olmamaq, sənətinə yaxşı yiyələnməmək və yaxud hər hansı sənətə yiyələnmək üçün lazım olan maddi imkanlara, ailəsi tərəfindən lazım olan mənəvi dəstəyə sahib olmamaq və s. bunun kimi xüsusiyyətləri daxil edə bilərik. Bəzən gənclər hər hansı sənətə yiyələnsə də, istədikləri sənətə yiyələnə bilmirlər və bu da onların gördükləri işi sevməmələrinə, bunun nəticəsində isə günümüzün tələb etdiyi iş həyatında uğur əldə etmək tələbinə cavab verə bilməməyə gətirib çıxarır.

N.Gəncəvi "Sirlər xəzinəsi" əsərində "Kərpickəsən qoca kişinin dastanı" hissəsində bu mövzuya toxunur. Burda göstərilir ki, bir cavan oğlan isti yay ayında yol ilə gedərkən kərpickəsən bir qoca kişi görür. Və ona kərpic kəsdiyi üçün rişxənd edir. Deyir ki, niyə bu yaşında bu çətin işlə məşğul olursan. Sən kimdən çörək istəsən səndən bir parça çörək əsirgəməz. Bunun qarşılığında qoca kişi cavan oğlana deyir ki, ona görə bu işlə məşğul oluram ki, kiməsə minnət duymayım. Bu hekayətdən aydın olduğu kimi, N.Gəncəvi hər kəsin xüsusilə də gənclərin mütləq sənətə yiyələnmələrinin vacib olduğunu qeyd edirdi. Eyni zamanda yiyələndiyimiz sənətdə mükəmməl olmağımızı istəyirdi. "Kamil bir palançının işini yarımçıq bilən papaqçıdan daha xeyirli olduğunu" qeyd edirdi. N.Gəncəvinin hələ XII əsrdə toxunduğuişinin peşəkarı olmaq dövrümüzdə də problemi müasir öz aktuallığını qoruyub saxlayır.

Humanist psixologiyada Maslou insanın tələbatlar sistemini yaratmışdır. Bu tələbatlar sisteminə müxtəlif tələbatlar daxildir. Bu tələbatlardan biri insanın başqaları tərəfindən hörmət görməsi, olduğu sosial çevrədə müəyyən bir mövqeyə sahib olmasıdır. Bu tələbatın qarşılanması müxtəlif tələblərdən asılıdır. Ümumiyyətlə, qeyd edək ki, tarixi dövrlər dəyişdikcə cəmiyyətin şəxsiyyət qarşısında qoyduğu tələblər də dəyişir. Təbii ki, insanın özünü sübut etməsi üçün cəmiyyətdə hər hansı bir mövqe tutması bu tələbləri hansı səviyyədə yerinə yetirməsindən asılıdır. Əgər lazım olan tələblərə şəxsiyyət cavab vermədiyi halda bu şəxsiyyətin formalaşmasında bir sıra problemlərin olmasına gətirib çıxarır. Bu problemlərdən biri özgüvən problemidir. Xüsusilə də gənclərdə bu problemi daha qabarıq şəkildə görürük. Bu roblemin yaranmasına müxtəlif amillər təsir edir. Müəllimlərin onlara qarşı

münasibətdə düzgün yanaşmaması, iş həyatında uğur əldə edə bilməmələri, ailədə lazım olan səviyyədə diqqət görməmək və s. amillərin adını çəkə bilərik. İstənilən yaş dövründə, xüsusilə gənclik yaş dövründə onlara qarşı göstərilən münasibətlərin nəticəsi onlarda özgüvən probleminin yaranmasına gətirib çıxara bilər. Bizə görə gənclik dövrünün bu qədər önəmli olmasının səbəblərindən biri odur ki, bu dövrdə insanlar hər şeyin fərqində olur, dərketmə səviyyəsi daha yüksək inkişaf edir. Nəticədə qısa olaraq belə deyə bilərik ki, şəxsiyyət ona lazım olan hörmət tələbatını ödəyə bilirsə, bu onun daha özgüvənli olmasına gətirib çıxarır. N.Gəncəvi də bununla bağlı olaraq belə deyirdi. "O gülün başı bostanda daha yüksək olur ki, onun xoş iyi var və bu iy hər tərəfə yayılır". "Əgər maral güclü olduğunu bilsəydi, öz gücünə inansaydı, başını dik tutardı".

***Ədəbiyyat:***


1. Əliyev B.H. Şəxsiyyətə yeni baxış / Beynəlxalq konfransın materialları. Bakı: BDU, 1999, №4
2. Bayramov Ə.S. Şəxsiyyətin təşəkküllünün aktual psixoloji problemləri. Bakı, 1981.
3. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı, 2008, 561s.
4. Dadaşova T.Ə. Psixologiyada müasir şəxsiyyət problemi Azərbaycan məktəbi, 1982, № 5.
5. Əliyev R. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları, Bakı, 2000.
6. Şabanov S.F. Gənclik yaşında özünüqiymətləndirmə // Azərbaycan məktəbi, №9, 1986.

# PSYCHOLOGY OF YOUTH IN THE WORKS OF NIZAMI GANJAVI FEATURES

**Gariba Vahid kyzy Rahimova**

*Pedagogical psychology ADPU*
*department teacher*
*Qariba648@mail.ru*

## SUMMARY

One of the national and moral values of our people, which shows the high humanity, is respect and love for parents and children. Highly appreciating such value, N. Ganjavi repeatedly praised the mutual love and respect in parent-child relations as a shining example of humanity in all his poems, and tried to educate the young generation in this way.

Nizami also holds the name of parents very high. Being white on the face of a parent is a great shortcoming for a child. According to the poet, parents should also protect their greatness, not be in a hurry to punish such children, and be patient.

# NİZAMI GƏNCƏVİ YARADICILIĞINDA TƏFƏKKÜRÜN TƏNQİDİLİYİ MƏSƏLƏLƏRİ

**Sona Əliyeva**

*ADPU- nun Ümumi psixologiya kafedrasının müəllimi*
*sonasi83@mail.ru*

***Açar sözlər:*** *təfəkkür, tənqidilik, fikri əməliyyatlar, rəng simvolikası, atalar sözləri, ağıl.*

***Keywords:*** *thinking, criticality, mental operations, color symbolism, proverbs, mind.*

*Nizami Gəncəvi elə bir böyük şəxsiyyətdir ki, elə bir dahidir ki, onun yubileylərini nəinki on ildən, beş ildən bir, hər il qeyd etmək lazımdır.*

**Heydər ƏLİYEV**

Dünya psixologiya elminin bir hissəsi olan Azərbaycan psixologiyası üçün də səciyyəvi cəhət odur ki, onun bilik sahəsi kimi tarixini təhlil edəndə, ilk səhifələrinə bir tərəfdən güzəran psixologiyasında, digər tərəfdən Azərbaycan fəlsəfəsi, ədəbiyyatı və incəsənəti materiallarında, o cümlədən Nizami Gəncəvi yaradıcılığında rast gəlinir. Dahi şair və böyük alim olan Nizaminin əsərlərində təbiətşünaslıq, riyaziyyat, astronomiya, psixologiya, fəlsəfə, ilahiyyat, tibb, etika, musiqi və s. elmlərə aid zəngin və dərin elmi mahiyyətə malik olan məlumatlara rast gəlirik. Bütün bunlar ona dəlalət edir ki, N.Gəncəvi öz dövrünün bütün elmlərinə dərindən yiyələnən böyük alim olmuşdur. Nizami Gəncəvi yaradıcılığı xalqın ruhunu, düşüncəsini, psixi simasını özündə əks etdirdiyi üçün Azərbaycan psixoloji fikir tarixinin ilk mənbələrindən biri kimi qəbul oluna bilər. Hesab edirik ki, Nizami Gəncəvinin əsərləri, etnopsixologiya, eləcə də Azərbaycan psixoloji fikir tarixi üçün qiymətli və ən obyektiv mənbələrdəndir.

XII əsr Azərbaycanda İntibah dövrüdür və deyə bilərik ki, bu dövrün uğurları Nizami Gəncəvinin adı ilə bağlıdır. Nizami yaradıcılığındakı rasionalizm, hər şeydən əvvəl, qədim türk eposundakı "naturalizm"dən gəlir.

Qədim türk eposu humanist, çevik və obrazlı təfəkkürün məhsuludur – həmin təfəkkür «Xəmsə»də ehtiva etmişdir.

«Xəmsə»nin əsas qəhrəmanı ideal hökmdardır: «Sirlər xəzinəsi»ndən «İsgəndərnamə»yə qədər Nizamini getdikcə daha dərindən və şübhəsiz, daha geniş problemlər kontekstində düşündürən bu ideya qədim türk eposunun mərkəzində dayanır. Xosrov, Bəhram, xüsusilə İsgəndər obrazları ağlın, zəkanın, təfəkkürün tənqidiliyinin bariz nümunəsidir. Şairin yaratdığı fateh İsgəndər bütün elmlərə bələd olsa da, bununla kifayətlənmir; onu kainatın mahiyyəti, mənşəyi, inkişaf qanunauyğunluqları maraqlandırır. O, dünyanın yaranması və inkişafı haqqında əsl həqiqətləri öyrənmək məqsədilə öz zəmanəsinin ən bilikli filosoflarının məclisini təşkil edir. İsgəndər həmin filosoflara müraciət edərək deyir:

*Haçana qədər bizim sirlərimiz gizli qalacaq?*
*Bilməyəcəyik ki, öküz sarğılı çadır (asiman)*
*Böyük yerin üzərinə necə gəlib?*
*Hər kəs öz elminə görə desin*
*Ki, bu iş başlanğıcda necə olub.*
*Dünyanı yaradanın hökmü ilə*
*Əvvəlcə asiman yaranıb, yoxsa Yer?*

Yeddi filosofun fikirlərini dinlədikdən sonra İsgəndər deyir ki, mən ulduzlar haqqında düşünmüşəm və belə nəticəyə gəlmişəm ki, ulduzlar öz-özünə əmələ gəlməyib. Nizaminin fikrincə, hər şey, o cümlədən insan əqlini Allah yaratmışdır. İlk əvvəl əqli yaradan Allah onun mahiyyətini insanlardan gizli saxlayıb. Qalan hər şeyi insan öz əqli ilə dərk edə bilər: bu şərtlə ki, insan onları dərk etməyə qadir olsun, yəni kamil olsun.

Azərbaycan güzəran psixologiyasında insan üçün ağlın müstəqilliyi və tənqidiliyinin yüksək keyfiyyət olması çoxdan sübut olunmuşdu. Ə.Əlizadə qeyd edir ki, hələ vaxtı ilə güzəran psixologiyasında "arpanı bölə bilməmək" ağlın köklü defekti hesab olunmuşdur.

Bilirik ki, psixologiya tarixində lateral təfəkkür anlamı Edvard de Bononun adı ilə bağlıdır. Edvard de Bono iki təfəkkür tipini tənqidi və yaradıcı təfəkkürü ayırd etmişdir. O, rəng simvollarına əsasən tənqidi təfəkkürü qara şlyapa, yaradıcı təfəkkürü isə yaşıl şlyapa ilə təsvir edir. Bildiyimiz kimi, xalqın, millətin təfəkkür tərzi, psixologiyası şifahi xalq ədəbiyyatı nümunələrində özünü büruzə verir. E.De Bononu, təfəkkür tiplərinin rəng simvolikası əsasında folklor nümunəsi olan nağılları və nağıl qəhrəmanlarını, eləcə də Nizami Gəncəvinin əsərlərini təhlil etdikdə maraqlı nəticələr əldə edə bilərik. Bu mənada 90-cı illərdə psixoloji nizamişünaslıq

sahəsində “Yeddi gözəl”də “rənglərin psixosemantikası” araşdırılmışdır.

Müəyyən edilmişdir ki, Nizami Gəncəvi “Yeddi gözəl”in rəng duyumunu təkcə şəxsiyyət psixologiyası baxımından bütün incəliyi ilə təhlil etməmiş, həm də bir hekayənin süjetini və kompozisiyasını rənglərin psixosemantik ölçüləri ilə açıqlamışdır.

Kainatda yeddi təbii rəngin mövcud olduğunu, qara rəngin bu rənglərdən üstün xüsusiyyətlərə malik olduğunu yaxşı bilən Nizami yazır:

*Zülmət gecə ayı çıraqban eylər,*
*Soltanlar çətrini qaradan eylər.*
*Rənglərin yaxşısı qaradır, qara*
*Balıq beli hara, sümüyü hara?*
*Qara tükdür verən gənclikdən nişan,*
*Qaranlıq göstərər ağ üzü cavan.*
*Göz qarası ilə görər cahanı,*
*Kim görmüş ləkələr örtsün qaranı?*
*Gecə örtməsəydi qara ipəklər,*
*Ayın beşiyinə yarardı məgər?*
*Yeddi rəng tanıyır geniş asiman;*
*Qaradır rənglərə üstün hər zaman.*

“Yeddi gözəl”in dördüncü hekayəsində bir “əsilli, nəsilli” igidin ağlı, tənqidi düşünərək doğru nəticə çıxarması xüsusi ilə qeyd olunub. Slavyan qızı Bəhrama xoş bir nağıl danışır. Hekayədə bir şah qızı təsvir olunur. Elçilər axın edirdi saraya, o isə hamısını rədd edirdi. Nizami ilk öncə qızın gözəlliyini qeyd etsə də, ikinci portretində isə, məhz “təfəkkürünü, ağlını” vurğulayır:

*...Hər işdə işlədi, ağlı, kamalı,*
*Çarələr eylədi fikri, xəyalı.*
*...Hər şey məlum idi o şux gözələ,*
*Ruhani sirləri almışdı ələ.*
*...Bilik toplamaqdı hər zaman işi,*
*Bu qadın elə bil kişiydi, kişi!*

Hekayədə Nizami bir igid şahzadəni də təsvir edir. Onun ağlı, kamalı dillərə düşmüşdür. Nizami onun özünün özü ilə dialoqunu təsvir edir. Bu dialoqda qərar qəbulu məqamında refleksiya üçün səciyyəvi olan xüsusiyyətlər öz əksini tapmışdır. Məlumdur ki, refleksiya mərhələsində təhlil aparılır, informasiyanın yaradıcı işlənməsi baş verir, alınmış məlumatların işlənməsi həyata keçirilir.

Ta qədim zamanlardan indiyə kimi hər bir xalqın müdrik, elmli, dünyagörmüş el ağsaqqalları öz dövrlərində insana, onun kamilləşməsinə aid bir çox müdrik kəlamlar, sözlər işlətmişlər ki, həmin deyilmiş sözlər, atalar sözü, hikmətli söz adını alaraq uzun illər yaşamış və indi də yaşamaqdadır. Bu sözlərin, bu zərb məsəllərin yaranması insanların sosial fəaliyyətinin, qarşılıqlı münasibətlərinin və uzun həyat təcrübələrinin məhsuludur. Bu aforizmlər, zərb məsəllər və atalar sözləri dərin elmiliyə və konkret mənaya malik olmaqla əbədi yaşamaq hüququ qazanmışdır.

Ağıl haqqında Azərbaycan şifahi xalq ədəbiyyatında çoxlu sayda qiymətli fikirlərə rast gəlinir. Xalqımız ağılı insana xas olan mühüm keyfiyyətlər içərisində irəli çəkmiş və onu yüksək qiymətləndirmişdir. Demək olar ki, bütün folklor nümunələrində insanların ağıllı olmasını təbliğ edən çağırışlara rast gəlinir. İnsanı bəlaya salan, onu gülünc vəziyyətə salan yolların isə ağılsızlıqdan irəli gəldiyi aydın surətdə göstərilir. Məsələn, "Dəvəcə boyun olunca, düyməcə ağlın olsun", "Boynu böyüdüncə, ağlını böyüt", "Ağıllı baş hər şeydən mənfəət ala bilər", "Qüvvə hər şeyi, ağıl isə qüvvəni sındırar", "Ağılsız baş sahibinə donuz güddürər", "Nadan dostun olunca, ağıllı düşmənin olsun", "Dəlinin dilinə pəhriz yoxdur", "Axmağın ağlı başında olmaz, gözündə olar", "Axmaq başın cəfasını ayaqlar çəkər", "Ölüsü olan bir gün, dəlisi olan hər gün ağlar", "Paltarı zinətləndirməkdənsə, ağlı zinətləndirmək yaxşıdır".

Xalq təfəkküründə ağılsızlıq ölümdən də pis vəziyyət kimi təqdim olunur. "Axmağın ağlı başında olmaz, gözündə olar" atalar sözünü psixoloji cəhətdən təhlil etsək, aydın olur ki, güzəran psixologiyası ağılsızlığın səbəbini insanın yalnız gördüklərinə əsaslanması ilə izah edir.

Çox zaman baş vermiş müəyyən hadisə ilə əlaqədar olaraq bir şəxs o birisinə deyir ki, ağılsız dostdan ağıllı düşmən yaxşıdır. Ağıllı insan nə iş görür-görsün, o heç zaman ümumi insanlığa əskiklik gətirən iş görməz. Odur ki, Nizami poetik olaraq həmin məsələyə münasibətini aşağıdakı kimi bildirir:

*Fələk açsa başına nə pəstaha yaxşıdır,*
*Nadan dostdan ağıllı düşmən daha yaxşıdır. "(Sirlər xəzinəsi)"*

Hesab edirik ki, elə tənqidi təfəkkür, ağılın tənqidiliyi əsasən insanın qavradığı materialları fikri əməliyyatlardan keçirə bilməsi ilə əlaqədardır. Təfəkkürün tənqidiliyinin zəifliyi elə insanın perseptiv səviyyədə informasiyanı qəbul etməsi, lakin onu intellektual səviyyədə təhlil edə bilməməsi ilə bağlıdır.

Nizami Gəncəvinin əsərlərində də belə məsələlərə rast gəlmək olar.

İnsan həyatının elə anları olur ki, baş vermiş bir hadisəni aradan qaldırmaq üçün qohum-qonşular yığılaraq hərə bir fikir söyləyir. Ancaq həmin işin həlli yolu tapılmır. Əksər hallarda belə məşvərət axşamlar olur. Odur ki, ağıllı, dünyagörmüş adamlar deyirlər ki, axşamın xeyrindən səhərin şəri yaxşıdır və yaxud gecələr hamilədir, görək sabah nə doğur. Dahi şair həmin məsələni belə şərh edir:

*Ovçu dedi: "Məsəldir, hər gecə hamilədir.*
*Nə doğacaq bilinmir, gör necə hamilədir?". "(Sirlər xəzinəsi)"*

Ehtimalları gerçəkləşdirən məqamlara aydınlıq gətirmək məqsədilə fikrimi dahi Nizami Gəncəvinin aforizmi ilə bitirmək istəyirəm.

*Qızılı saymaqda bil ki, səhvin var,*
*Dünyanın gözünü ağıl parladar.*

***Ədəbiyyat:***


1. Əlizadə Ə.Ə. "Xəmsə"də yaş və pedaqoji psixologiya məsələləri. Bakı: "Renessans" nəşriyyatı, 2002.
2. Əlizadə Ə., Şirinova Z. Nizami Gəncəvinin psixoloji görüşləri. Bakı, ADPU-nun mətbəəsi. 2006
3. Nizami Gəncəvi. Sirlər xəzinəsi . "Lider Nəşriyyat". Bakı, 2004.
4. Apoyev B. Nizami Gəncəvinin pedaqoji görüşləri. "Adiloğlu". Bakı, 2008.


## IN THE WORK OF N. GANJA ISSUES OF CRITICAL THINKING


**Sona Aliyeva**

*General Psychology of ADPU*
*teacher of the department*
*sonasi83@mail.ru*


### SUMMARY


In the works of Nizami, a great poet and great scientist, we find rich and profound scientific information about various sciences. N.Ganjavi was a great scientist who mastered all the sciences of his time. His works are valuable and objective sources for ethno psychology, as well as the history of psychological thought in Azerbaijan. We believe that critical thinking is mainly related to the ability of a person to process the material he perceives through mental operations. The weakness of critical thinking is due to the fact that a person perceives information at the perceptual level, but is unable to analyze it at the intellectual level. Such issues can be found in the works of Nizami Ganjavi.

# NİZAMİ GƏNCƏVİNİN "LEYLİ VƏ MƏCNUN" ƏSƏRİNDƏ ŞƏXSİYYƏT VƏ ŞƏXSİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİN PSİXOLOJİ SƏCİYYƏSİ

**Gülər Məmmədova**
*ADPU-nun Ümumi psixologiya kafedrasının müəllimi*
*gulermemmedova@list.ru.*

***Açar sözlər:*** *şəxsiyyət, , eşq, psixi, dəli, zəncir.*
***Keywords:*** *personality, love, psyche, mad,chain*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci ilin "Nizami ili" elan edilməsi ilə bağlı Sərəncamı dövlətimizin milli-mənəvi dəyərlərimizə, bədii irsimizə olan diqqət və qayğısının, həssas münasibətinin daha bir bariz nümunəsidir. Dünyamiqyaslı ədib Nizami Gəncəvinin yaradıcılığı çoxşaxəli, dərin bədii təfəkkürə əsaslanan, mədəni irs səciyyəsi daşıyan mənəvi bir sərvətdir. Onun yaradıcılığı, "Xəmsə"də irəli sürdüyü fikir və düşüncələri yalnız ədəbi mahiyyət daşımır, bir sıra elmləri özündə ehtiva edir. Bu baxımdan Nizaminin yaradıcılığı müxtəlif elm sahələrinin diqqət mərkəzində olmuşdur. Bildiyimiz kimi, dahi ədibin bədii təfəkkürünün mərkəzində insan, onun psixoloji, bioloji, əxlaqi sferaları durur. Nizami üçün ideal insan ilk növbədə kamil bir şəxsiyyət statusu daşıyır. Bu baxımdan onun əsərlərində dərin və məzmunlu şəkildə bədiiləşdirilmiş şəxsiyyət problemi psixologiya elminin də maraq dairəsindədir.

Şəxsiyyət ictimai həyatın mürəkkəb və çoxcəhətli bir hadisəsi kimi bir çox elmlərin tədqiqat obyektidir və həmin elmlərin diqqət mərkəzində dayanır, lakin elm sahəsi şəxsiyyəti öz qarşısına qoyduğu vəzifələrə, onu maraqlandıran cəhətlərə uyğun aspektdə öyrənir. Bu baxımdan psixologiya elmi də istisna təşkil etmir və onu ilk növbədə şəxsiyyətin formalaşması və inkişafının qanunauyğunluqları, şəxsiyyətin mənəvi aləmi və onun strukturu kimi problemlər maraqlandırır. Qeyd etmək lazımdır ki, şəxsiyyətin göstərilən istiqamətlərdə araşdırılması sahəsində müasir psixologiya böyük elmi nailiyyətlər əldə etmişdir, hərçənd problemin bütün cəhətlərinin tam və qəti həllinin tapılmasından danışmaq da hələ tezdir. Müasir psixologiyada şəxsiyyət anlayışı qədər çoxmənalı və çoxsaylı tariflərə malik olan ikinci bir anlayış yoxdur. Hələ əsrimizin 40-cı illərində

dünya psixologiya elmində şəxsiyyət anlayışına verilmiş əllidən artıq tərif mövcud idi.

Belə bir vəziyyət, heç şübhəsiz, həm ayrı-ayrı tədqiqatçıların metodoloji mövqelərindəki, məsələyə yanaşma üsullarındakı fərqlərlə, həm də şəxsiyyətin özünün mürəkkəb və çoxcəhətli təbiəti ilə şərtlənir. Bununla belə, müasir psixologiyada şəxsiyyət anlayışı ilə bağlı əksəriyyət tərəfindən qəbul olunmuş bir sıra ümumnəzəri müddəalar vardır ki, şəxsiyyətin hər-hansı konkret material əsasında tədqiqi məhz həmin qərarlaşmış elmi baxışlar üzərində qurulmalıdır. Bu müddəalar şəxsiyyət anlayışının məzmununu əsasən aşağıdakı kimi müəyyən edir:

Şəxsiyyət sosial münasibətlərin və şüurlu fəaliyyətin subyekti olan fərddir və ictimai münasibətlərə qoşulması sayəsində, birgə fəaliyyət və ünsiyyət prosesində həmin fərddə formalaşan keyfiyyətlər sxemidir. Şəxsiyyət həm özünü, həm də ətraf mühiti dərk edən, qiymətləndirən və buna qadir olan fərddir. Şəxsiyyət fəallıqla, yəni subyektin öz hüdudlarından kənara çıxa bilmək, rol, vəzifələrinin və şəraitin irəli sürdüyü tələblərin sərhədlərini aşmaq cəhdi ilə xarakterizə olunur. Şəxsiyyət istiqamətə – davamlı motivlər sisteminə (maraqlar, əqidə, iddialar, zövq və s.) malikdir ki, bunlarda onun tələbatları təzahür edir. Şəxsiyyət dinamik məna sistemlərinə malikdir ki, onlar onun şüur və davranışını şərtləndirir. İnkişaf etmiş şəxsiyyət inkişaf etmiş özünüdərk qabiliyyətinə malik olur, bu da "mən" surəti "mən" – konsepsiya şəklində, yəni şəxsiyyətin özü haqqında təsəvvürlər sistemi formasında büruzə verir. Həmin təsəvvürlər isə şəxsiyyətin özünü qiymətləndirməsində, iddia səviyyəsində, özünütəkmilləşdirmə və tərbiyə meylində aşkara çıxır. Şəxsiyyətin inkişafı fərdin sosiallaşması və tərbiyəsi şəraitində baş verir.

Şəxsiyyətin psixoloji məzmununu açıqlayan bu müddəalar işığında böyük Azərbaycan şairi Nizami Gəncəvinin ölməz əsərlərini diqqətlə və hərtərəfli aşraşdırdıqda, dahi mütəfəkkirin şəxsiyyət problemini öz dövrü baxımından heyrətamiz bir miqyasda həll etməyə çalışmasının, insan psixologiyasına dərindən bələdliyi, insan qəlbinin, hisslərin ən incə və əsrarəngiz guşələrinə nüfuz etmək bacarığı sayəsində şəxsiyyət haqqında elmi baxışları bir neçə əsr qabaqlamasının şahidi oluruq: "Nizaminin əsərlərində hisslərin psixoloji məsələləri müxtəlif istiqamətlərdə təhlil olunmuşdur. Hisslərin təsviri şair Nizami üçün, ilk növbədə, psixoloji təhlil vasitəsi idi" [2.s. 60].

Nizami Gəncəvi yaradıcılığında öz əksini tapmış mükəmməl şəxsiyyət konsepsiyası şairin təbiət və sosial gerçəkliyə dair fəlsəfi təlimi ilə sıx surətdə bağlıdır. İctimai varlığı və

onun başlıca hərəkətverici qüvvəsi olan insanı geniş kosmoloji planda dəyərləndirən böyük şair insanın mahiyyəti, onun sosial və psixoloji təbiəti, bir-biri və digər canlılarla münasibəti, yer üzündə vəzifəsi, həyatının mənası, xoşbəxtliyə nailolma yolları və vasitələri kimi mühüm məsələləri də məhz həmin mövqedən şərh edirdi. Bu problemin ən mükəmməl şəkildə qoyuluşu, istər bədii, istərsə də psixoloji cəhətdən həlli ədibin "Leyli və Məcnun" əsərində özünü daha yüksək səviyyədə büruzə verir.

"Leyli və Məcnun" nun ilk səhifələrində verilmiş aşağıdakı misralar əsərin pafosunu, ideya istiqamətini anlamaq baxımından olduqca əhəmiyyətlidir:

*Buz kimi donmaqdan gəl sən götür əl,*
*Ölü siçan kimi suda axma gəl,*
*Gül kimi yumşaqlıq göstərmə gerçək,*
*Olma ikiüzlü bənövşələr tək.*

*Tikan olmağın da öz məqamı var,*
*Yerli dəlilik də işə yarayar* [6. s.70–71].

Nizami hər cür durğunluğunu, süslüyünü rədd edərək, həm də fəaliyyət formalarını konkret situasiyaya uyğunluğu məsələsini qoyur. Məcnun məhz "yerli dəlilik" göstərərək, şəxsiyyətin mənəvi azadlığı uğrunda mübarizəyə qalxır və cəmiyyətə meydan oxuması ilə şəxsiyyətin sevgiyə, ləyaqətinə hörmət edilmək hüququna malik olduğunu təsdiq edir. Əsərin özülündə şəxsiyyət və cəmiyyət arasındakı bu ziddiyyət durur. Nizami öz görüşlərinə uyğun olaraq, belə hesab edir ki, kamil şəxsiyyət və mükəmməl cəmiyyət dialektik vəhdətdə olmalıdır. Fərdi istəklərlə ictimai vəzifələr bir-birini inkar etməməli, əksinə, tamamlamalı, bir-birinin daha dolğun yaxınlaşmasına şərait yaratmalıdır. Şəxsiyyətlə cəmiyyət münasibətlərində harmoniya pozulduqda, müvazinət itdikdə faciə baş verir və bu, təkcə şəxsiyyətin deyil, bəlkə, ondan daha artıq cəmiyyətin faciəsidir.

Nizaminin bu mövqeyini əsaslandırmaq üçün Məcnunun özünü zəncirləyib Leylinin görüşünə getməsi epizodu son dərəcə əhəmiyyətli və əlamətdardır. Bir qarı öz dilənçi, yoxsul yoldaşını qapı-qapı gəzdirir, onu divanə kimi qələmə verir, bu yolla onlar bir parça çörək əldə edib bölüşdürürlər. Bu obraz, çox güman ki, sırf simvolik səciyyə daşıyır. Şərq poeziyasında, o cümlədən Nizami yaradıcılığında dünya tez-tez dul, qoca qarıya bənzədilir. Odur ki, Nizami əslində qarı dedikdə dünyanı, onun zəncirləyib gəzdirdiyi adamın timsalında isə qanunlar, adət-ənənələr, norma və stereotiplər zənciri ilə əl-qolu bağlanmış insanı və insan cəmiyyətini nəzərdə tutur. İnsan da yaşamaq, bir parça çörəyə malik olmaq xatirinə özünü alçaldır, zəncirlədir, divanə

şəklinə salır. Məcnun da qarı ilə rastlaşdıqda, heç olmasa, bir dəfə Leylisini görməkdən ötrü özünü bu zəncirə salır. Qarı Məcnunu qapı-qapı gəzdirir, Leylinin evinə gəldikdə isə Məcnun zənciri qıraraq çöllərə qaçır. Məcnun ictimai zəncirlər buxovuna girməklə məqsədinə nail olmağı qəbul edə bilmir. Bir növ sınaq üçün özünü zəncirləyən Məcnun başa düşür ki, o, qanunlar zəncirində əsir olub sevgini, səadəti dilənə bilməz. O, məqsədə yetişməyin, xoşbəxt olmağın bu yolunu məqbul saymır. Onun öz zəncirini parçalaması cəmiyyətlə olan son əlaqələri də qırmaq mənasını daşıyır. Məcnun cəmiyyətə güzəştə gedəcəyi, onun zəncirlərinə təslim olacağı barədə kövrək ümidlər və zəif ehtimallar da həmin zəncirlə bərabər qırılır.

Nizami oxucusuna müraciətdə Məcnunu adi dəlilərdən ayırmağı tövsiyə edir:

*Məcnunu sərsəri zənn etmə ki, sən,*
*Deyildi gördüyün divanələrdən.*
*Oruclu, namazlı, nurlu bir çıraq,*
*Əqlə yad deyildi, ədəbdən uzaq.*
*Vaxtının ən böyük bir alimiydi,*
*Aləmi şərh edən Loğman kimiydi.*
*Gizli mənalara o, yol açardı,*
*Qəlbində göylərin min sirri vardı.*
*Qızıl sikkəsitək hər sözü gözəl,*
*Lələ bənzəyirdi dediyi qəzəl.*
*Dəlinin ağlına bələddir hər kəs*
*Ondan bu incilər saçıla bilməz...*
[6.s. 231–232].

Bu baxımdan Nizami Məcnunun davranışının, münasibətlərinin, hal və vəziyyətlərinin psixoloji əsaslarını son dərəcə inandırıcı və müasir elmi müddəalara uyğun şəkildə şərh etmişdir. Məcnun cəmiyyət üçün qəribə olan, sərsərilik və divanəlik təsiri bağışlayan davranışının, ruhi vəziyyət və düşüncələrinin kökündə heç bir psixi pozğunluq dayanmır. Onun qeyri-adi davranışının səbəbi insanlar tərəfindən başa düşülməməsi və getdikcə cəmiyyətdən təcrid olunmasıdır. Əlbəttə, burada Məcnunun bir fərd kimi temperamenti, psixi keyfiyyətləri də mühümdür və Nizami bir psixoloq kimi bunu da nəzərdən qaçırmır. Lakin Qeysin Məcnun vəziyyətinə gəlib çıxmasında başlıca amil onun uzunmüddətli, davamlı və özü tərəfindən də tədricən bütün dərinliyi və dəhşəti ilə dərk edilən tənhalığıdır. Bu tənhalıq psixogen bir amil kimi Məcnunun "qəribə" psixoloji durumunu, kəskin emosional reaksiyalarını şərtləndirir. Əsər boyu Məcnunun düşdüyü psixoloji şok, həyəcan, çılğınlıq, depressiya və sair kimi vəziyyətləri də buradan irəli gəlir: "Nizaminin hisslər aləmi mürəkkəbdir, özünəməxsus ziddiyyətlərlə seçilir" [ 2. s. 61].

Məcnunun davranışının ən "qəribə" cəhətlərindən biri də onun heyvanlarla ünsiyyətdə olması (ahu, maral, qarğa, yırtıcı heyvanlar) və onlarla danışması, hətta cansız əşyalara öz dərdini söyləməsidir. Bütün bunları da tənhalığın

doğurduğu psixoloji halların təzahürləri kimi qiymətləndirmək olar. Belə ki, şəxsiyyətin uzun müddət təklik, təcrid şəraitində qalması onda ünsiyyət tələbatını aktuallaşdırır. Bu tələbatın ödənilməsi cansız əşya və heyvanların şəxsləndirilərək ünsiyyət partnyoruna çevrilməsinə səbəb olur. Kompensator xarakterli bu proses heç də psixoloji norma sərhədlərindən kənara çıxmır. Məhz buna görə Nizami Məcnunu heyvanlarla ünsiyyətində, cansız şeylərlə, təbiət hadisələri ilə söhbətlərində heç bir dəlilik təzahürü görmür.

Əslində isə həmin davranışın təsvirini psixoloji adekvatlığı insanı heyrətə gətirir. Yəni frustrasiya halətində şəxsiyyətdə baş verən dəyişiklik Nizami tərəfindən müasir elmi psixologiyanın müddəalarına uyğun şəkildə izah edilmişdir.

Nakam eşq və uzunmüddətli tənhalıq Məcnunun davranışında müəyyən frustrasiya halətini meydana gətirir. Məsələn, yanına gələnləri qarşılayarkən, ona xəbər gətirənlərlə danışarkən (yaxud, Leylinin İbn Salama ərə getməsini eşidərkən) Məcnunun davranışında bu elementlər kifayət qədər qabarıq nəzərə çarpır. Əsərin sonuna doğru Məcnunda açıq-aşkar depersonalizasiya təzahürləri müşahidə olunur.

Bu psixi hal ilk növbədə, Məcnunun öz yaxın və doğmalarına (atası, anası, dayısı və s.) münasibətdə emosional bağlılığının olmamasında aşkara çıxır. Məsələn, atası ilə ikinci görüşü zamanı Məcnun öz vəziyyətini belə təsir edir:

*Tam puç eyləmiş məni dünyada,*
*Eşidib bildiyim düşməyir yada.*
*Bütün hafizəmi sovurub yellər,*
*Yoxdur xatirimdə nə səs, nə xəbər.*
*Bu gün soruşma ki, nə yedim dünən*
*Bu cavab da çıxar puç hafizəmdən*
*Bu saat gördüyüm işi də sorma,*
*Cavabsız qalarsa, özünü yorma!*
*Bilirəm oğlunam, sən də atamsan,*
*Adın da qalmamış yadımda inan.*
*Bir atam çıxmamış yadımdan bu gün,*
*Huşumun özü də itmiş büsbütün.*
*Öz adım da çıxmış yadımdan bu dəm,*
*Bilmirəm məşuqəm, yoxsa*
*aşiqəm...[6. s. 168].*

Məcnun özünümüşahidəsinin, özünütəhlilinin nəticəsi olan bu sözlərlə yaddaşının silinməsindən, identifikasiya qabiliyyətini itirməsindən danışır. Bir qədər sonra isə o, artıq öz “mən”-inin itirilməsindən söz açır. Leyli ilə sonuncu görüşündə dedikləri bunu əyani şəkildə nümayiş etdirir:

*Mənimçin sən varsan özümdən əvvəl,*
*Çünki mənim deyil sənindir bu əl,*
*Nəçiyəm, de kiməm, mən taleyi kəm?*
*Dünya şahiddir ki, sənin kölgənəm.*
*Özümü hər sayda heç bilmirəm mən,*
*Heçə bənzəyirəm bu heçkəslikdən...*
*Mən yoxam, dünyada sənsən var olan,*
*Bu xəyali surət özünsən, inan!*
*[6. s. 255-256].*

Beləliklə, "Leyli və Məcnun"da Nizami insan qəlbinin, şəxsiyyət psixologiyasının ən incə, ən mübhəm guşələrinə nüfuz edir. Bəzən sözlə ifadəsi qeyri-mümkün görünən psixi proses və vəziyyətləri ezackar qələmi ilə oxucunun gözü qarşısında canlandırır. Əsəri yüksək sənət nümunəsi kimi qiymətləndirən rus tədqiqatçısı E.M. Meletinski yazır: "Heç bir əsərdə orta əsrlər ədəbiyyatında kəşf olunmuş fərdi ehtirasın möcüzəsi və faciəsi Nizaminin "Leyli və Məcnun" adlı romantik poemasında olduğu qüdrətlə göstərilməmişdir [7. c.187]. Lakin əsərdəki faciə yalnız Məcnunun fərdi faciəsi deyildir, həm də yaşadığı cəmiyyətin faciəsidir. Belə bir cəhətə diqqət yetirək ki, əsərdə ictimai norma və stereotiplərə riayət edən, hətta onların pozulmazlığı uğrunda mübarizə aparan digər surətlər – Məcnun və Leylinin ata-anası, ibn Salam, Nofəl və s. də xoşbəxt ola bilmirlər. Bu, Nizaminin şəxsiyyət və cəmiyyət problemini nə dərəcə də mükəməl nəzəri mövqedən həll etdiyini göstərən əlamətdar bir faktdır. İctimai səadətin olmadığı şəraitdə fərdi səadət qeyri-mümkün olduğu kimi, fərdi xoşbəxtliyin təmin olunmadığı bir mühitdə ictimai xoşbəxtlikdən də danışmaq yersizdir. Bu iki amil olduqca sıx qarşılıqlı əlaqə və asılılıqdadır. Fərdin azadlığını boğan, şəxsiyyəti bədbəxt edən bir cəmiyyət xoşbəxt ola bilməz. Çıxış yolu bu iki cəhətin ahəngdar şəklə salınmasında, harmonik bir hala gətirilmə-sindədir.

*Ədəbiyyat:*

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. sosial psixologiyanın aktual məsələləri.
2. Bakı, 1986.
3. Əlizadə Ə.Ə. Nizami Gəncəvinin psixoloji görüşləri. Bakı, 2006.
4. Əzimov Q.E. Nizaminin psixoloji görüşləri. Professor-müəllim heyətinin 61-ci elmi konfransının materialları. II buraxılış. Bakı,
5. İbrahimov M. Günəş kimi parlaq Nizami Gəncəvi. "Leyli və Məcnun".Bakı, 1982.
7. Quluzadə M.Q. Nizaminin insan fəlsəfəsi. Bakı, 1997.
8. Nizami Gəncəvi. "Leyli və Məcnun".

*Rus dilində*

9. Е.М.Мелетинский. Средневековый роман. Москва, 1983.

# THE PSYCHOLOGICAL NATURE OF PERSONALITY AND INTERPERSONAL RELATIONS IN THE WORK OF NIZAMI GANJAVI «LEYLI AND MAJNUN»

***Gular Mammadova***
*Lecturer, Department of General Psychology, ADPU*
*gulermemmedova@list.ru.*

## SUMMARY

The artistic works of the great Azerbaijani poet Nizami Ganjavi are considered to be the research object for a number of sciences. From this perspective, the creations of the great author are of interest to the science of psychology. The personality disorder, which Nizami Ganjavi often addresses in his works, is one of the vital problems in the science of psychology, which is actively studied and of great scientific importance.

The article provides us psychological analysis of Majnun, the main character of Nizami Ganjavi's poem «Leyli and Majnun» as a personality. The analysis and the obtained results determined the psychological identification of the personality disorder in Nizami Ganjavi's pieces.

# NİZAMİ GƏNCƏVİNİN ƏSƏRLƏRİNDƏ YAŞ PSİXOLOGİYASI MƏSƏLƏLƏRİ

**Rəna Qasımova**
*ADPU-nun Psixologiya kafedrasının müəllimi*

***Açar sözlər:*** *maarifçilik, "əxlaqi şüur", qəhrəmanlıq, tipologiya*
***Keywords:*** *enlightenment, «moral consciousness», heroism, typology*

Şifahi xalq ədəbiyyatı və yazılı tarixi salnamələrin ənənəvi mövzularından istifadə edən Nizaminin qəhrəmanlıq – romantik poeziyası sonrakı əsrlər boyunca, fars dilinin istifadə olunduğu bütün ərazilərdə özünü ona oxşatmağa çalışan gənc sənətkarların yaradıcılığına təsir etmiş, nəinki Fars körfəzində, həm də Azərbaycan, Əfqanıstan, Gürcüstan, Hindistan, İran, Pakistan, Tacikistan, Türkiyə və Özbəkistan kimi müasir ölkələrin mədəniyyətinin formalaşmasında rol oynamışdır. Nizami Şərq mədəniyyətinin səciyyəvi məhsulu idi.

Nizaminin yaradıcılığı Hafiz Şirazi, Mövlana Cəlaləddin Rumi və Sədi Şirazi kimi böyük sənətkarların yaradıcılığına təsir etmişdir. Onun müxtəlif ictimai, mədəni və elmi mövzuları işıqlandıran beş məsnəvisi bütün Şərq ölkələrində böyük məşhurluğa malik olmuşdur ki, bunu da şairin əsərlərinin çoxlu sayda və müxtəlif dövrlərə aid əlyazmalarının dövrümüzə çatması sübut edir. Nizaminin əsərlərinin qəhrəmanları indi də bütün islam ölkələrində, eləcə də dünyada tanınmaqdadır.

Şairin 850 illik yubileyi şərəfinə 1991-ci il UNESCO tərəfindən "Nizami ili" elan edilmişdir.

Nizami Gəncəvinin yaradıcılığına nəzər saldıqda görürük ki, onun bənzərsiz psixoloji konsepsiyasında yaş psixologiyası məsələləri özünəməxsus yer tutur.

Yaş psixologiyasının inkişaf tarixi ilk növbədə maarifçiliyin tarixi ilə bağlıdır.

Azərbaycanda maarifçilik başlıca ictimai-siyasi, fəlsəfi, psixoloji və pedaqoji fikir cərəyanı kimi əmələ gəlmiş və inkişaf etmişdir.

M.Məlikovanın fikrincə, "Azərbaycanda maarifçilik ideologiyasının... inkişafı Nizaminin adı ilə bağlıdır". Böyük mütəfəkkirin yaradıcılığı, siyasi və şübhəsiz ki, həm də psixoloji və pedaqoji baxışları bunu deməyə əsas verir ki, Nizami adi seyrçilikdən uzaqlaşmış, öz maarifçiliyini ağılın və maarifin, yüksək ədalət və humanist ideyaların

hakim olduğu, maarifin xalqın rifahına "xidmət etdiyi firavan dövlətin qurulmasına yönəltmişdir". Təsadüfi deyildir ki, Azərbaycanda maarifçiliyin doğulmasını, formalaşmasını və təşəkkülünü ədəbiyyatda XII əsrlə – Nizami əsri ilə əlaqələndirirlər.

Akademik Y.E.Bertels yazırdı: Nizaminin "...yaradıcılığı bizim üçün heç cür izah edilə bilinməyən bir möcüzədir; hər bir fikir onun qələminə öz poetik və bədii ifadə formasında hazır gəlmişdir, hər halda dünya ədəbiyyatında belə bir hadisəylə yanaşı qoymaq üçün ikinci bir insan tapmaqda mən çətinlik çəkirəm. Nizami üçün heç bir miqyas yoxdur, onu yalnız öz miqyası və yaradıcılıq meyarı ilə ölçmək olar".

N.Gəncəvinin yaradıcılığına nəzər saldıqda diqqəti cəlb edən məsələlərdən biri də yaş psixologiyası mövzusudur. Yaş dəyərləri Azərbaycan xalq psixologiyasına empirik surətdə olsa da, çoxdan bəlli idi və xalqın yaş haqqında təsəvvürlərini dolğun əks etdirirdi. Fəlsəfi-psixoloji və pedaqoji fikir tariximizdə isə yaş dəyərlərinin geniş təhlilinə ilk dəfə Nizaminin əsərlərində rast gəlirik.

XII yüzillikdə Azərbaycan psixoloji fikrində yaş xüsusiyyətləri mahiyyətcə yeni məsələ idi. Nizaminin bu məsələləri ayırd etməsi dünya psixologiyası tarixinə də əlamətdar bir hadisə kimi dəyərləndirilməlidir.

"Xəmsə"də anadan olandan yüz yaşına qədər insanın yaş xüsusiyyətlərinin ümumi xarakteristikası verilmiş, ayrı-ayrı yaş dövrləri – uşaqlıq, gənclik, yetkinlik, qocalıq və ahıllıq yaş dövrləri geniş səciyyələndirilmişdir.

Nizami uşaqlıq dövrünü təsir edərkən, beş-altı yaşın əhəmiyyətini xüsusi qeyd edir. 5–6 yaşı, müasir terminlərlə desək, senzitiv yaş dövrü sayırdı. Mütəfəkkir – şairin müşahidələrinə görə, bu yaşlarda uşaq "nə görsə, ibrət dərsi götürür", doqquz yaşında "oyun yolunu" tərk edən uşaq, "Leyli və Məcnun"da təsvir olunduğu kimi, "10 yaşına çatanda" məktəbə yollanırdı. "Elm alıb dərs oxuyur", "lüğətdən söz axtarır", "qrammatik anlayışlarla mühakimə yürüdüb isimdən, sifətdən danışır, hesab öyrənirdi.

Yeniyetməlik və ilk gənclik yaşı dövrlərində onun inkişafında önəmli dəyişikliklər özünü göstərir, 14–15 yaşın qovşağında yaşın psixoloji xarakteristikası köklü surətdə dəyişir:

*Xosrovun o gündən ki, yaşı on dördü aşdı,*
*Biliyinin quşu qol-qanad açdı.*
*Könlündə hər şeyə maraq oyandı,*
*Dünyada yaxşını-yamanı qandı.*

Nizami Gəncəvi bu yaş mərhələsində istedadlı müəllimin rolunu xüsusi vurğulayır: Xosrovun könlü ancaq istedadlı alim-müəllimin təlimi ilə nurlanır.

"Mənlik şüuru" və "əxlaqi şüur" formalaşdıqca "uşaqlar" kişiləşir və

özlərini bir şəxsiyyət kimi öz əməlləri ilə təsdiq edirdilər. Şair Bəhramın gənclik illərini belə səciyyələndirir:

*Bitirib iyirmi iki yaşını*
*Yüz şirin bədəndən üzmüş başını.*

Nizami gənclik illərini ömrün "ən qiymətli" illəri adlandırırdı. Şair bu illəri "coşqunluq" illəri kimi səciyyələndirirdi. Gəncəvi cavanları gənclik dövrünün qədrini bilməyə çağırırdı:

*Sən gəncliyin qədrini bil,*
*bir an kimi keçib gedər.*
*Qərib karvan yolçusunu şəhər biz*
*də haçan görər?*
*Dünya görmüş qocaların beli neçin*
*əyilmişdir?*
*Bəlkə itmiş gəncliyini yerdə arar*
*axşam-səhər?*
*Nağdınız da, nisyəniz də vur-tut*
*bircə ömrümüzdür,*
*Ömrün-günün mənasından*
*xəbərdar ol, ey bixəbər.*

Şair gənclik yaşının psixoloji cəhətdən maraqlı olan üç mühüm xüsusiyyətinə diqqəti cəlb edir. İlk növbədə şair gəncliyi "sevda" yaşı kimi mənalandırır. N.Gəncəvinin müşahidələrinə görə sevdalı gənclik təkcə ülvi məhəbbət hissində əks olunmur, insanın bütün həyatına, dünya duyumuna nüfuz edir.

Nizami gəncliyi "zəka qılıncı" adlandırır. Onun fikrincə, "cavanların başında ağıl qollu-budaqlı"dır.

Gəncəvi gəncliyi "igidlik, qəhrəmanlıq çağı" kimi təsvir edirdi. Nizami gənclik qüruruna böyük əhəmiyyət verirdi:

*O gün ki, gəncliyin qüruru sönər,*
*İş görməz daha bu cəsarət, hünər.*

Şairin fikrincə, yaşın öz məntiqi var. Belə ki:

*Ömür otuz ildən keçidini bir az,*
*Qəflətdə yaşayıb dolanmaq olmaz.*
*Qırx yaşa qədərdir həyat nəşəsi,*
*Qırxda bitib gedir könlün həvəsi.*
*Əllidən aşdınmı, canın sağ olmaz,*
*Ayaqlarda taqət, gözdə nur qalmaz.*

Nizamiyə görə, qocalığın da öz xüsusiyyətləri var:

*Altmışa çatınca yerə çökərsən,*
*Yetmişdə hər üzvün düşər taqətdən.*
*Dünyada əziyyət çəkib boy atdın,*
*Elə ki, səksənə, doxsana çatdın,*
*Ordan da yetirdin özünü yüzə,*
*Ölüsən, diri də görünsən gözə.*

Dahi Nizami Gəncəvinin bu sahədəki sərrast və əhatəli müşahidələri Azərbaycan geronopsixologiyasının ilk, lakin əlamətdar səhifələri kimi maraqlıdır. Bu müşahidələrin təhlili əsaslı surətdə göstərir ki, Nizami yaş xüsusiyyətlərini sadəcə olaraq fenomenoloji səpkidə araşdırmır, onları şəxsiyyət kontekstində nəzərdən keçirir:

*Ömrün gözəl günləri ötüşdü,*
*gecə düşdü,*
*Torpaq yellə öpüşdü, atəş suyla*
*görüşdü.*

*Günəş divardan aşdı, uyğudasan hələ sən,*
*Sübhün bal yuxusunda hələ nəşələnirsən.*
*Cahangirlik, mənəmlik qasırğasından əl çək!*
*Qocasan, cavanlığın gur dalğasından əl çək!*
*Yaralanmış ürəyin dərddən, qəmdən dağ almış,*
*Sözlərinin duzu da, şəkəri də azalmış.*
*Ağıl bir az pərişan, fikirlər də dağınıq.*
*Ayaq yürüşdən əl də işdən soyumuş artıq.*
*Ayağını uzat ki, torpaq ülfət istəyir,*
*Daha baş da, ayaq da istirahət istəyir.*

Dahi şair N.Gəncəvinin bənzərsiz poemalarında yaş psixologiyası məsələləri, yaş dövrlərinin xüsusiyyətləri, onların tipoloji təsviri diqqəti xüsusilə cəlb edir.

***Ədəbiyyat:***

1. Ə.Ə.Əlizadə. “Xəmsə”də yaş və pedaqoji psixoloji məsələləri, Bakı, 2002.
2. Məlikova M. Nizami Gəncəvi və Azərbaycan maarifçiliyi, N.Gəncəvi – 850, Bakı, 1991.
3. Rüstəmova S. “Nizami Gəncəvi yaradıcılığının öyrənilməsi və şagirdlərin mənəvi tərbiyəsi”, Bakı, 1993.
4. nizamigenceviaz.wordpress.com
5. az.trend.az.azerbaijan.culture.

## ISSUES OF AGE PSYCHOLOGY IN THE WORKS OF NIZAMI GANJAVI

### SUMMARY

**Rena Gasimova**
*Department of Psychology,*
*ADPU teacher*

The article highlights the work of prominent writer N.Ganjavi. The works of the world-famous writer are analyzed. Issues of age psychology are reflected in the works of N. Ganjavi.

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA İNSANİ KEYFİYYƏTLƏRİN ANALİZİ

**Nigar Muradova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*muradovanigar983@gmail.com*

***Açar sözlər:*** *ideya, yaradıcılıq, psixologiya, xarakter, şəxsiyyət*
***Keywords:*** *idea, creativity, psychology, character, personality*

Dahi şair və mütəfəkkir Nizami Gəncəvinin (1141–1209) yaradıcılığı həm Azərbaycan, həm də ümumən Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatı və ictimai fikir tarixində tamamilə yeni bir hadisə olmuşdur. Şair özündən əvvəlki ədəbi-estetik, fəlsəfi-ictimai nailiyyətlər zəminində yüksələrək, Şərq poeziyasında bütöv bir məktəb yaratmış, sonrakı bir neçə əsr üçün onun inkişaf yolları və meyillərini müəyyənləşdirmişdir. Bu isə bir tərəfdən Nizami əsərlərinin ideya-məzmun xüsusiyyətləri ilə, yəni poemalarında qoyub həll etməyə çalışdığı qlobal fəlsəfi-ictimai problemlərlə, digər tərəfdən də şairin başqa sənətkarlar üçün örnək olmuş yüksək bədii ustalığı ilə əlaqədardır.

Məhz bu səbəbdən dahi şairin yaradıcılığı lokal və regional çərçivələri aşaraq, ümumbəşəri əhəmiyyət kəsb etmiş, ona dünya ədəbiyyatının korifeyləri sırasında layiqli yer tutmaq haqqı qazandırmışdır. Təsadüf deyil ki, şairin ölməz bədii irsinin öyrənilməsi ilə məşğul olan müstəqil elm sahəsi – nizamişünaslıq yaranmış və Nizami yaradıcılığı ilə bağlı bir sıra problemlərin həllində ciddi nailiyyətlər qazanmışdır.

Y.E.Bertels göstərir ki, Nizami yaradıcılığında psixoloji təhlilin heyrətamiz dərinliyi və qüvvəsini nəzərə alan akademik S.F.Oldenburq Nizamini "böyük qəlbşünas" adlandırır və gənc şərqşünaslara bu məsələni araşdırmağı tövsiyə edirdi. Alim onu da qeyd edir ki, Nizami yaradıcılığının bu xüsusiyyəti həm də obrazın psixologiyasının sosial vəziyyətinə, yaşına və s. tam uyğun şəkildə açmaq baxımından diqqətəlayiqdir. Bütün bunlar isə Nizami haqqında irəli sürülən bəzi yanlış müddəaları təkzib etmək üçün tutarlı dəlillər verir. Məsələn, V.Baxer Nizaminin sufizmlə əlaqəsini şişirdərək, onu zahid, tərkidünya bir şəxsiyyət kimi təqdim etmişdir. Bir sıra digər araşdırmalarda da bu fıkir təkrar olunmuşdur. Həmin fikri qətiyyətlə rədd edən Y.E.Bertels belə bir sual

verir: guşənişin həyat tərzi keçirən bir şəxs insan münasibətlərini, psixologiyasını belə dərindən öyrənə bilərdimi? Öz daxili aləminə, xarakterinə, mənəvi keyfiyyətlərinə görə kəskin şəkildə fərqlənən, müxtəlif psixoloji tiplərə mənsub surətlər qalereyası yarada bilərdimi? Buna, əlbəttə, inanmaq çətindir.

Y.E.Bertels belə bir cəhəti də qeyd edir ki, Nizami yaradıcılığındakı bu xüsusiyyət mütailənin, ədəbi təsirin nəticəsi də ola bilməzdi, çünki psixoloji təhlili yeni element kimi Şərq ədəbiyyatına məhz Nizami gətirmişdir və ondan əvvəlki poeziyada belə bir əlamətə rast gəlmək mümkün deyildir.

Özlüyündə aydındır ki, Nizami Şərq ədəbiyyatına gətirdiyi yeniliklərə birdən-birə deyil, tədricən, gərgin və məqsədyönlü bədii axtarışlar nəticəsində gəlib çıxmışdı. Bu baxımdan şairin qırx ildən artıq davam edən ədəbi fəaliyyəti dövründə baxışları və yaradıcılıq prinsipləri müəyyən təkamül yolu keçmişdir. Lakin bu təkamül "Xəmsə"yə daxil olan əsərlərdə daxili bağlılıq və əlaqənin, daim diqqət mərkəzində olan və inkişaf etdirilən ana xəttin mövcudluğunu istisna etmir. Görünür, şairin müxtəlif mövzularda yazmış olduğu beş poemanın ümumi ad altında birləşməsi məhz həmin daxili bağlılığın nəticəsi olmuşdur. Bu daxili bağlılığı təmin edən başlıca amil, tədqiqatlardan göründüyü kimi, ilk növbədə, Nizaminin orijinal şəxsiyyət konsepsiyası idi. "Xəmsə"yə daxil olan hər bir poema bütöv insan həyatı haqqında hekayətdir.

Nizamiyə görə, özünə tənqidi münasibət həm də səhvləri, günahları etiraf etmək deməkdir. Şair bu fikrə illüstrasiya kimi "Ümidsiz padşahın bağışlanması" hekayəsini əsərə daxil etmişdir. Özünütənqid, etiraf – mərdlik, cəsarət və kamillik əlamətidir. Xudbinlik, qəflət isə insanda paxıllıq, həsəd, bədxahlıq və riyakarlıq kimi keyfiyyətlər doğurur. Şair "Paxılların məzəmməti haqqında" və "ikiüzlülərin məzəmməti haqqında" məqalələrində həmin mənfi keyfiyyətlərə münasibətini ifadə etmişdir. Bu məqalələrdən ikincisi xüsusilə diqqətəlayiqdir. Şair fərdlərarası münasibətlərdə riyakarlığın anatomiyasını heyrətamiz bir dəqiqliklə açıb göstərə bilmişdir. Bu mövzu ilə əlaqədar olaraq, Nizami dostluq münasibətinə də toxunmuşdur.

Şairin fikrincə, dostluqda qərəz, "sənlik" və "mənlik" olmamalıdır, dost dostun zəhərini şəkər, eyibini hünər sanmalıdır.

Nizami tənbəlliyi, müftəxorluğu, harınlığı da qəflətin, özündən bixəbərliyin törəməsi sayır və çalışqanlığı, fəallığı, əməksevərliliyi onlara qarşı qoyur. Şair əməyi şəxsiyyətin mühüm tələbatı kimi qiymətləndirdiyi kimi, əməksevərliyi də onun vacib keyfiyyəti

sayır. "Süleyman və qoca əkinçinin hekayəsi", "Kərpickəsən kişinin dastanı" kimi hekayətlərdə şairin bu mövqeyi parlaq əksini tapmışdır. Nizamiyə görə, əməksevərlik insanın şəxsi müstəqilliyini, daxili azadlığını, ləyaqət və özünə hörmətini şərtləndirən, onu asılılıqdan, ələbaxımlılıqdan, başqaları önündə alçalmaqdan xilas edən başlıca amillərdən biridir.

"Xosrov və Şirin"də şəxsiyyətin inteqral keyfiyyətinə dair Nizaminin baxışları daha konkret və ardıcıl əksini tapmış, həmçinin əsərdəki əsas surətlərin (Xosrov, Şirin, Fərhad və s.) timsalında və münasibətlərində maddiləşmişdir. Burada şairin mövqeyinin çıxış nöqtəsi kimi, hər bir işdə, hər bir keyfiyyətdə orta həddin gözlənilməsi, əks meyillər arasında tənasübə, harmoniyaya riayət olunması götürülmüşdür.

Nizami ifratçılığı, məqsədə nəyin bahasına olursa olsun, tezliklə yetişmək istəyini şəxsiyyətin mümkün psixi zədələrinin, yarana biləcək natamamlıq kompleksinin potensial mənbəyi hesab edir və bunun qarşısını almaq üçün mühüm bir keyfiyyətə – səbrə, təmkinə, dözümlülüyə malik olmağı zəruri şərt kimi irəli sürür.

*Aslanlarla vuruşmaq niyyətində olan adam*
*Gərək aslan kimi diş göstərsin...*

Bu misralar Nizaminin şəxsiyyətin inteqral keyfiyyətlərinə dialektik yanaşmasını göstərmək baxımından olduqca əhəmiyyətlidir. Şair belə bir fikir irəli sürür ki, hər hansı müsbət keyfiyyət ifrat həddə çatdıqda, asanlıqla öz əksinə keçə və şəxsiyyətə ziyan gətirən keyfiyyətə çevrilə bilər. Belə ki, məsələn, hədsiz dözümlülük acizliyə, fəaliyyətsizliyə gətirib çıxarar və bu, avtomatik olaraq, şəxsiyyətin münasibətlərinə də təsir göstərər. Odur ki, dözümlülük, səbir zəruri keyfiyyət kimi başqa bir vacib xassə ilə mübarizliklə tamamlanmalıdır.

Nizami bu fikirlərini ümumiləşdirərək, şəxsiyyətin ideallarının nail olmaq istədiyini, məqsədlərin onun imkanlarına, keyfıyyət xarakteristikasına uyğunluğu ideyasını əsaslandırır:

*Bu darvazada ki, mənzil etmisən,*
*Kədərdə, sevincdə hüdud gözlə sən.*
*Dövranından çıxma heç yüksəklərə,*
*Ayağını uzat yorğana görə.*
*Hədsiz dalğalanma sən də dəniztək,*
*Çalışma uçmağa özündən yüksək...*

Nizami şəxsiyyətin göstərilən mühüm keyfiyyətlərə malik olmasını onun özünə, başqalarına və ictimai vəzifələrinə münasibətlərini müəyyənləşdirən bir amil kimi qiymətləndirir. Şair şəxsiyyətin başqalarına münasibətdə təkəbbürü, lovğalığı qətiyyətlə rədd edir, hörməti, başqasının ləyaqətini tapdalamamağı, özgəsində eyib axtarmamağı ön plana çəkir.

Şairin fikrincə, başqalarına xeyirxah münasibət adekvat reaksiya doğurur, onlardakı yaxşı, müsbət keyfiyyətlərin daha qabarıq təzahürünə səbəb olur. Əslində Şirinin Xosrova tərbiyəedici təsirinin əsasında da bu inam dayanır. Şairin fikrincə, insan "nə əkirsə, onu biçir", "pislik edən özünə pislik edir". İnsan yalnız xoş xasiyyətlə, müsbət xarakterlə ictimai münasibətlər sistemində səmərəli fəaliyyət göstərə, özünü bir şəxsiyyət kimi tam və dolğun şəkildə reallaşdıra bilər.

Bütün bunlar şəxsiyyətin mənəvi-əxlaqi keyfiyyətləri, onun özünə və başqalarına münasibətinin xarakteri barədə Nizami ideyalarının ümumiləşdirilməsi və məntiqi yekunlaşdırılması idi. Həmin ideyalar bu gün üçün də aktualdır və yəqin ki, bəşəriyyət durduqca öz əhəmiyyətini qoruyub saxlayacaqdır.

Ədəbiyyat:


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiyanın aktual məsələləri. Azərnəşr, Bakı, 1986.
2. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Azərnəşr, Bakı,1981.
3. Bayramov Ə.S. Psixoloji düşüncələr. Bakı,1994
4. Babayeva Təranə Nizami Gəncəvinin irsində şəxsiyyət problemi. Bakı 2000.
5. Məmməd Cəfər. Nizaminin fikir dünyası. Bakı, 1982.
6. Nizami Gəncəvi. Sirlər xəzinəsi. filoloji tərcümə, izahlar və qeydlər prof R. Əliyevindir. Bakı 1981.
7. Nizami Gəncəvi. Xosrov və Şirin. filoloji tərcümə, izahlar, qeydlər prof. H.Məmmədzadənindir. Bakı. 1981.


## ANALYSIS OF HUMAN QUALITIES IN NIZAMI GANJAVI'S WORK


**Nigyar Muradova**

*Lecturer of the Azerbaijan State Pedagogical University*

*muradovanigar983@gmail.com*


### SUMMARY


Among the classics of Azerbaijani literature, Nizami Ganjavi is an artist whose work is of great interest and deserves deep study, first of all. Thus, one of the greatest and most important innovations brought by Nizami not only to the Azerbaijani literature, but also to the history of Eastern literary-social and philosophical-psychological thought in general is to emphasize the inner world and spiritual qualities of the images he describes, to justify their behavior and actions.

# NİZAMİ GƏNCƏVİNİN İDRAK PROSESLƏRİ HAQQINDA BAXIŞLARI

**Könül Məmmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*mmmdovakonul391@gmail.com*

***Açar sözlər:*** *inkişaf, psixologiya, mütəfəkkir, qavrayış, hafizə*
***Keywords:*** *development, psychology, thinker, perception, memory*

XII yüzillikdə psixologiya elmi özünəməxsus inkişaf mərhələsi keçmişdi. Tarixi araşdırmalar göstərir ki, Qədim Şərq ölkələrində "ruh ideyası" zəminində əmələ gəlmiş bu elmin inkişafı uzun müddət antik psixoloji fikirlə, orta əsrlərdə, xüsusilə V–XII əsrlərdə ərəb psixologiyası ilə bağlı olub. Bu iki mədəniyyətin qovşağında isə psixika haqqında təlimlər formalaşmış və inkişaf etmişdi. Psixologiyada özünəməxsus ənənə əmələ gəlmişdi: insanın psixi həyatının vahidləri kimi idrak prosesləri, fərdi-psixi xassələri araşdırılırdı. Çoxçalarlı fəlsəfi-psixoloji təlimlər önəmli məziyyətlərlərlə bır-birlərindən seçilsə də, onların çoxunda bu elmin müxtəlif dövrlərdə yaşamış iki korifeyinın – Aristotel və Əbu Əli ibn Sinanın təsiri bu və ya digər dərəcədə hiss olunurdu.

Aristotelin psixoloji görüşləri təbiətşünaslıq, Əbu Əli İbn Sinanın psixoloji görüşləri isə təbabət təcrübəsi bünövrəsində formalaşmış və inkişaf etmişdi. Bu iki mütəfəkkirin psixoloji görüşləri XII yüzillikdə Azərbaycan psixoloji fikrinin inkişafında önəmli rol oynamışdı.

Nizaminin psixoloji görüşləri Azərbaycan intibahının təntənəsi idi. Lakin Nizamı bir psixoloq kimi bənzərsizdı. Təbiətşünaslığın və təbabətin uğurlarından nə qədər faydalansa da, mütəfəkkir şairi insan təkcə təbiətşünaslıq və təbabət yönümündə maraqlandırmırdı. Nizaminin psixoloji görüşləri onun bənzərsiz bədii araşdırmalarına söykənirdi. İnsanın psixi həyatının ümumı psixoloji təhlili bu araşdırmalarda önəmli yeri tuturdu. "Xəmsə"də psixi hadisələr fenomenoloji səpkidə ətraflı təhlil olunmuş və sistemli araşdırılmışdır.

XII yüzillikdə Azərbaycan fəlsəfı-psixoloji fıkrində duyğular haqqında özünəməxsus konsepsiya formalaşmışdı. Azərbaycanın filosof tarixçilərinin qeyd etdikləri kimi, bu konsepsiyanın kökünü orta əsrlərdə Azərbaycanda birincı müəllim kimi məşhur olan

Aristotelin bənzərsiz irsi təşkil edirdi.

Aristotel göstərirdi ki, obyektiv surətdə müxtəlif keyfiyyətlər mövcuddur. Onlar müxtəlif hiss orqanları vasitəsilə əks olunurlar. Aristotel bu baxımdan duyğuların beş növünü – görmə, eşitmə, iybilmə, dadbilmə və lamisəni fərqləndirirdi. Onun fikrincə, duyğularsız nə dərk etmək, nə fikirləşmək, nə də təxəyyül etmək mümkündür.

Nizami duyğu məsələlərini araşdıranda Azərbaycan fəlsəfəsi və psixologiyasının uğurlarına arxalanırdı. Onun bu sahədəki görüşləri dövrün elmi-fəlsəfi fıkrinə uyğun idi. Azərbaycan filosof tarixçilərinin qənaəti belədir. Lakin bununla belə, qeyd etmək lazımdır ki, Nizami dövrün elmi-fəlsəfi fikrini yaradıcılıqla mənimsəmiş və duyğuların həyat fəaliyyəti üçün zəruri olan psixoloji effektlərinə diqqəti məharətlə cəlb etmişdi.

Nizami xarici və daxili duyğuları fərqləndirir, insanın həyat fəaliyyətində daxili duyğuların böyük əhəmiyyətə malik olduğunu ayrıca vurğulayırdı. “Xəmsə”də, məsələn, Xeyr və Şərin hekayətində bunu göstərən nə qədər bədii materiallar vardır. Nizami bu məsələni sadəcə olaraq təsvir etmir, onları bilavasitə həyat fəaliyyəti kontekstində açıqlayır, pəhriz, səmərəli qidalanma kimi önəmli məsələlərlə qarşılıqlı əlaqədə nəzərdən keçirirdi. Qətiyyətlə demək olar ki, bu fikirlər Azərbaycanda sadəcə olaraq duyğuların psixologiyası baxımından deyil, həm də, ilk növbədə tibbı psixologiyanın inkişafı aspektində xüsusi əhəmiyyətə malikdir.

Nizami də öz sələfləri kimi xarici duyğuların beş növünü ayırd edirdi. “Xəmsə”də onların fenomenoloji təsviri və təhlilinə önəmli örnəklər vardır. Lakin öz sələflərindən fərqli olaraq Nizami xarici aləmin dərk olunmasında gözün (görmə duyğusunun) roluna daha böyük məna verirdi. O, göstərirdi ki, “gözü iki nur zinətləndirir”. Rənglərin gözə təsiri də eyni deyildir. Nizami bu baxımdan yaşıl rəngin xoş təsirinə diqqəti cəlb edirdi. O, yazırdı ki, “yaşıllıq hər şeyin təravətidir”, “yaşıl rəng gözləri işıqlı edir”. Nizami gözün ağılla bağlı olduğunu da dəqiq müəyyənləşdirmişdi. Onun fikrincə, “qaranlıq fikri təskin edir”, başqa sözlə, qaranlıqda fikirləşmək olmur. “Ağıl zənginləşəndə göz də açılır”.

Qavrayış duyğularla bilavasitə bağlıdır. Lakin onun özünəməxsus xüsusiyyətləri var. “Xəmsə”də bu baxımdan xüsusilə qavrayışın mənalığını bütün incəliklər ilə səciyyələndirən zəngin materiallar vardır. Nizami əsərlərində müxtəlif qavrayış effektlərinə diqqət yetirmiş, görmə illüziyalarını önəmli xüsusiyyətlərlə təsvir etmişdir.

İllüziya (latınca illusio – səhv, yanılma deməkdir) anlamının tarixi qədim olsa da, bir termin kimi psixologiyada XIX yüzillikdə xüsusilə psixofiziologiyanın (H.Helmhols və b.) uğurları sayəsində bərqərar olmuşdur. İlk dəfə bu maraqlı fenomen lamisə sahəsində (Aristotel illüziyaları) müəyyən olunmuşdur. Onun seçimli növləri isə məhz görmə qavrayışı sahəsində kəşf edilmişdir.

“Xəmsə”də görmə illüziyalarının bənzərsiz örnəkləri təsvır olunmuşdur.

“İsgəndərin daşa sitayiş edənlər kəndinə yetişməsi” hekayətində almaz dərəsi təsvır olunur. Dağı dörd tərəfdən qucaqlamış dəniz vüsətli dərin dərəyə baxan əsgərlərin nəzərinə “tasdakı su tək” gəlirdi.

Bu baxımdan “Rum və Çin nəqqaşlarının yarışı” hekayətində təsvir olunmuş Oğuz əhvalatı xüsusilə maraqlıdır.

Çinyolunun üstündə rəssam işıqlı büllurdan hovuz çəkmiş və onu al-əlvan naxışlarla bəzəmişdi. Mani çox uzaq bir eldən gəlirdi. Susuzluq onu əldən salmışdı. O, hovuz görüncə səbirsiz qaçdı, quru kuzənin ağzını açıb, baş vurdu hovuza. Saxsı küzə qırıldı.

Mani bildirdi ki, çinlilər bu yolda “Hovuzla ona bir quyu qazmışlar”. O da qələmini çıxarıb hovuzun üstünə “ölü bir köpək” şəkli çəkdi. Adamlar “ölü iti görüncə” artıq hovuza yaxın getmirdilər.

Görmə illüziyaları xüsusi tətbiqi əhəmiyyəti olan fenomendir. Psixoloji ideyalar, bəlkə də, ilk növbədə ictimai təcrübənin sahələrinə bu yolla tətbiq edilmişdır. Təsviri incəsənət və memarlığın tarixi göstərir ki, hələ qədim zamanlardan görmə illüziyaları məhz bu sahələrdə geniş istifadə olunmuşdu. Təsadüfi deyildir ki, Nizami də qavrayış illüziyalarını gözlərin insanı aldatması kimi mənalandırır və onları rəssamlıqla də memarlığın qovşağında təsvir edir.

Nizaminin fıkrıncə, adamı “gözü aldadanda” idrakını işə salmalıdır. Qavrayış effektlərinin mənasını ancaq təfəkkürlə aydınlaşdırmaq mümkündür.

Nizami insanların bir-birilərini və özlərini qavramasının özünəməxsus xüsusiyyətlərinə diqqəti cəlb etmişdir; ünsiyyətin səviyyəsi ilə bilavasıtə şərtlənən bu çoxçalarlı prosesdə zahiri görkəm, ekspressiv davranış və geyim xüsusiyyətlərinin mühüm rol oynadığını göstərən maraqlı faktlar müəyyən etmişdi.

*Xətti-xah ney şəkər,*
*Hüsnü-könül meyvəsı.*
*Cismi bəlkə də güldən,*
*Özü bir gül dəstəsi.*
*Fındıq ağzı şəkər,qənd, badam gözləri xumar,*
*Saçlarının gecəsi “halai sehri”nə bənddi,*
*Babil sehri, Hind xalı ovsunlamış bu xətti.*

Nizami ekspressiv davranışı bənzərsiz ölçülərlə dəyərləndirir. Məhinbanu Şirini "bütün gözəllərin sultanı" adlandırarkən qadın səmimiyyəti ilə etiraf edir ki, "Yüz şahlığa dəyər bir nazın sənin". Lakin o, qadının mənəvi gözəlliyinin əhəmiyyətini xüsusi vurğu ilə ayırd edir:

*Arxanca kölgə tək gəzir səadət,*
*Sənin bəzəyindir ismət, nəzakət..*

Çox maraqlıdır ki, Şirin də bir qadın kimi özünü bu ölçülərlə qiymətləndirir.

*Gözündən qanlı yaş töksə də həyat,*
*Olsam, olacağam bir halal arvad* –

bu sözlər Şirinin mənəvi ölçülərini, bir qadın kimi "dünya mənzərəsinin" kredosunu gözəl ifadə edir.

Nizami böyük portret ustası idi. O, özünün bənzərsiz yaradıcılıq təcrübəsində dərin psixoloji mənası olan bir həqiqəti məharətlə kəşf etmişdi. Ünsiyyət şəraitindən asılı olaraq insanın qavranılması prosesində zahiri görkəm, ekspressiv davranış və geyim xüsusiyyətlərinin rolu dəyişir. Şəxsi münasibətlər səviyyəsində zahiri görkəmin hər bir elementi – özünəməxsus məna kəsb edir.

*Könül mənim şeirimlə salam verir qulağa,*
*Gözlər alır salamı, canla dodaq-dodağa*
*Türk gözəli gülərkən qəndin qəlbi daralır,*
*Ceyranların gözündən gözlər sürməni alır.*
*Kətan geyinib gəlir ay camallı türk yarım,*
*Sökülmüş kətan kimi çatlayır dodaqlarım.*

Nizami də hafizəni özünəməxsus psixi proseslərdən biri kimı dəyərləndirirdi və onun xüsusiyyətlərini müxtəlif yönümlərdə təhlil edirdi.

Nizaminin fıkrincə, hafizə özünün sadə fərmanlarında heyvanlara da xasdır. Bu baxımdan "Leyli və Məcnun"da özünəməxsus psixoloji tutumu olan hekayət xüsusilə səciyvəvidir.

Hekayətdə qədım bir rəvayət təsvir olunur: Mərv ölkəsində bir şah yaşarmış. O, "bir neçə köpəyi" zəncirləyərək "divtək" bəndələrə saxlardı. İtlərdə əjdaha qüvvəti vardı, onlar dəvənin boynunu qopardı. Şah kimə acıqlansaydı, onu quduz itlərə atardı. Köpəklər şahın qəzəbinə düşmüş həmin yazığı yeyib dağıdardı. Şahın yaxın adamlarından biri (Nizami onu ağıllı, kamallı... cavan kimi səciyyələndirır) qorxurdu ki, günlərin bir günü dostları qıran bu cəllad onu da itlərə yem etsin. İt, saxlayanla dostlaşır. Tez-tez vəhşi itlərin yanına gəlir və hər kərə onlara bir qoyun atırdı. Bu yolla bəslənib, saxlanılan itlər o cavanı görəndə boynunu bükərək qul olurdu.

Bir gün şah acıqlanıb həmın cavanı da itlərə atdırdı. Lakin qeyri-adi hadisə

baş verdi: əjdahaüzlü canavar itlər, həmin cavanın tükünə də zərər vermədilər.

"Leyli və Məcnun"un poetikasında "hekayət" əslində çoxcəhətli psixoloji təhlil vasitəsi kimi özünəməxsus yer tuturdu. Poemada onu "Məcnun vəhşilər arasında" bölməsindən sonra verməsi təsadüfi deyildir. Bu iki bölmə bir-biri ilə psixoloji çalarlarla bağlıdır. Hekayənin son beytlərində Nizami oxucunun diqqətini məhz vəhşilərin Məcnuna həmdəm olmasının sirrini açır: Məcnun heyvanları bəsləyirdi, onları bəslədikcə də öz dövrəsinə "can hasarı" çəkirdi.

Hekayətdə bir mətləb də aydın ifadə olunmuşdur. Nizami təsvir etdiyi qədim rəvayəti etibar, vəfa, sədaqət barəsində fəlsəfi-etik fikirlərlə mənalandırır: "it sənə dost olar, bir sümük atsan, namərd qədir bilməz, olsan da qurban". Lakin hekayənin kökü tanıma fenomeni ilə bağlıdır. Nizami bu önəmli psixoloji faktı xüsusilə ayırd edir:

*Gəncin əl-qolunu bağlayıb haman,*
*İtlərə atdılar onu kənardan.*
*O dəmirpəncəli, o pələng itlər*
*Əvvəlcə cavana hücum etdilər.*
*Ancaq tanıyınca baxıb durdular,*
*Quyruq bulayaraq boyun burdular.*
*Hamısı yerə yatdı üzləri üstə,*
*Yatdılar baş qoyub dizləri üstdə.*

Hafızə tanıma fenomeni kimi sadə formalarda heyvanlarda müşahidə olunsa da, insanlarda mahiyyətcə yeni keyfiyyətlər kəsb edir və heyvan hafizəsindən köklü surətdə fərqlənir.

Nizami hafizənin ümumi psixoloji xüsusiyyətlərini açıqlayaraq göstərirdi ki, cisim və hadisələrin hərəsindən insanın yaddaşında bir nişan qalır. Yadasalma prosesində assosiasiyalar mühüm rol oynayır. Xatırlama isə daha mürəkkəb xarakter daşıyır. "Leyli və Məcnun"da Nizami Zeydin qəzəlləri yadına salmasını belə təsvir edir:

*Leyliyə Məcnunun nə vaxtdan bəri,*
*Eşq üçün dediyi xoş qəzəlləri.*
*Bəsirət gözüylə hafizəsindən*
*Arayıb, axtarıb, toplayıb bəzən.*
*Gəlib gedənlərə verərdi xəbər,*
*Afərin deyərdi qulaq verənlər.*

Nizaminin təsvir etdiyi faktların təhlili göstərir ki, o, unutmanı mahiyyətcə diqqətin yayılması kimi nəzərdən keçirirdi.

*Meyvənin xoş ətri basanda bağı*
*Kəndlilər unudar evi otağı –*

beyti bu cəhətdən maraqlıdır.

Nizami hafızənin psixoloji məsələlərini təhlil edəndə bir cəhəti xüsusi vurğulayırdı. O, sələflərindən fərqli olaraq, məsələyə şəxsiyyət baxımından yanaşır "yadında yaxşılıqları saxlayan" adamları yüksək qiymətləndirirdi. Böyük mütəfəkkir göstərirdi ki, insan üçün

əhəmiyyətli hadisələr uzun müddət yaddan çıxmır. Ana və ata unudulmur. Ən çətin məqamda yada düşür.

Hafizənin şəxsiyyət ölçüləri ilə səciyyələndirilməsi XII yüzillikdə dünya psixologiyasında böyük hadisə kimi dəyərləndirilməlidir. Ancaq qeyd etmək lazımdır ki, məsələnin belə qoyuluşu Nizaminin yaradıcılığı üçün tamamilə təbii idi.

## NIZAMI GANJAVI'S VIEWS ON COGNITIVE PROCESSES

**Konul Mammadova**
*Azerbaijan State Pedagogical University head teacher*
*mmmdovakonul391@gmail.com*

**SUMMARY**

No matter how much the article benefits from the success of natural science and medicine, it is said that the poet-thinker is not only interested in natural sciences and medicine. Nizami's psychological views were based on his unique artistic research. The general psychological analysis of a person's mental life played an important role in these studies. Mental phenomena in «Khamsa» were analyzed in detail in a phenomenological way and systematically investigated.

Nizami drew attention to the peculiarities of people's perception of each other and themselves; In this multifaceted process, which is directly related to the level of communication, interesting facts revealed that my appearance, expressive behavior and clothing characteristics played an important role.

# NİZAMİ GƏNCƏVİNİN ƏSƏRLƏRİNDƏ AİLƏDAXİLİ MÜNASİBƏTLƏRDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

**GÜNƏŞ ƏFƏNDİYEVA**
*ADPU-nun Ümumi psixologiya kafedrasının baş müəllimi*
*gunes.efendiyeva1953@gmail.com*

***Açar sözlər:*** *ailə, münasibətlər, tərbiyə, əxlaqi keyfiyyətlər, öyüd-nəsihət.*
***Keywords:*** *family, relationships, upbringing, moral qualities, reminder advice.*

Uşağın tərbiyəsində ailə münasibətlərinin rolu əvəzsizdir. Bu baxımdan Nizami övlad–valideyn münasibətlərinin, xüsusilə ata–oğul, ana–qız münasibətlərinin təhlilinə böyük əhəmiyyət verirdi. Ailədaxili münasibətlər ailədə psixoloji iqlimin yaranmasında xüsusi əhəmiyyət kəsb edir və onu bilavasitə şərtləndirmiş olur. Düzgün ailədaxili münasibətlərin qurulmasında və psixoloji iqlimin yaradılmasında isə valideynlərin ilk növbədə, ailə başçılarının rolu əvəzolunmazdır.

Nizaminin əsərlərində özünəməxsus psixoloji – pedaqoji tutumu olan "qəlbin tərbiyəsi" ifadəsinə təsadüf olunur. Qəlbin tərbiyəsi, ilk növbədə, uşağın hisslər aləminin, tələbat – motivasiya sahəsinin tərbiyəsidir. Nizaminin fikrincə, uşağın cismini "nazla, nemətlə", körpə qəlbini isə "şüurla, hikmətlə" bəsləmək olar. Ata öz övladını sevə-sevə təkcə dünyanın hikmətlərini deyil, həm də "ədəblə hünər" öyrədir.

Nizaminin fikrincə, uşağı kiçik yaşlarından düzgün tərbiyə etmək vacibdir.

*Övlad ayrı bitən bir cavan budaq,*
*Zənn etmə, qocalsa düzgün olacaq.*

"Xəmsə" də ata–oğul münasibətləri psixoloji incəliklə təhlil olunur. Xosrovun atası onu "şirin canından artıq" sevirdi. Onu öyüd-nəsiyyətlə böyüdürdü. Ancaq atasının buyruğu Xosrov üçün çox vaxt örnək olmurdu. Nizami quru hisslərə arxalanmayan "nəsihət qanununun səsini" psixoloji mənasında "pis səs" adlandırırdı. Nizami göstərir ki, dünyada atanın " ağıllı oğuldan" başqa bir istəyi yoxdur. "Xəmsə"də ağıl uşağın başlıca məziyyətlərindən biri kimi qiymətləndirilir. Özünün bu məziyyətləri sayəsində uşaq "göyün sirlərini" öyrənir, "elmin dəryasında pərvəriş tapır", "ən incə, mənalı sözləri" tapır.

Nizami göstərirdi ki, yaxşı tərbiyə "ağıla nur verir, ürəyə qüvvət".

Mütəfəkkir şair ağılla hissi (ürəyi) qarşılıqlı əlaqədə nəzərdən keçirir və

onların inkişafının kökünü də elə bu qarşılıqlı əlaqənin seyrində açıqlayırdı.

"Yeddi gözəl"də atası Bəhramı "ömrünə düşmən" sayır, "oğlunun gənclik odundan" qorxur. Ata ilə oğlun yadlaşması ilə ağır nəticələr verir. Bəhram ova, busata könül verir, gah badə nuş edir, gah ata minir, içkiyə, şikara bel bağlayır, başqa ölkəyə gedir. İllərlə öz vətəni yadına düşmür. Halbuki "ağılca dolu", "saf igid ürəyi" oğulun ata ilə münasibətləri onun mənəvi həyatının kökünü təşkil edir.

Nizami üçün ata – oğul münasibətləri mahiyyətcə şəxsiyyətlərarası münasibətlər idi. Onun fikrincə, bu münasibətlərin xarakteri təkcə atanın şəxsiyyəti ilə deyil, həm də oğulun şəxsiyyəti ilə şərtlənir. Oğul necə tərbiyə olunmalıdır? Hansı keyfiyyətlərə yiyələnməlidir? Şairin oğlu Məhəmmədə nəsihətlərində əslində bu önəmli psixoloji-pedaqoji sualların əsaslı cavabı verilmişdir.

Nizaminin "Xosrof və Şirin" poemasında qadınlar haqqında, ana və qız münasibətləri, ailə münasibətlərinə, ailə tərbiyəsinə xüsusi yer ayrılmışdır. Nizami qadını aya bənzədərək göstərir ki, qapını bağlasan o mehtabtək qapıdan gələr. Ay kimi qadına da əl uzatmaq çətindir. Bu məziyyətlərin kökünü Nizami, ilk növbədə, qadının ekspressiv davranışının xasusiyyətləri ilə izah edir.

Nizami Şirinin Xosrova münasibətini psixoloji incəliklərlə təsfir edir. Qeyd etmək lazımdır ki, insan münasibətləri mürəkkəb, çoxcəhətli və ziddiyyətlidir. Şirinin Xosrova münasibəti də bu xüsusiyyətlərlə seçilmişdir. Psixoloji kontekstdə təhlil etsək, onun strukturunda 3 əsas komponent diqqəti xüsusilə cəlb edir;

– Koqnitiv, affektiv və davranış komponentləri.

– Ailənin psixoloji iqliminin nüvəsi ailə münasibətləri ilə bağlıdır.

Psixoloji iqlim ailə üçün həyatı əhəmiyyətə malik psixoloji fenomendir. Ailənin psixoloji iqlimi böyük tərbiyəvi əhəmiyyətə malikdir. Nizami Gəncəvinin yaradıcılığa diqqət yetirsək, belə bir nəticəyə gəlmək olar ki, o, bütün yaradıcılığı boyü ailə münasibətlərinə, əxlaq, qadın, qadın – kişi arasındakı mənəvi bağlılıq haqqında suallara cavab axtarmışdır. Nizami Gəncəvinin ən böyük dəyərlərindən biri onun ailəyə olan demokratik baxışlardır. Nizaminin ailə səadətinin əsası olan eşqi "uca göylərin mehrabı" səviyyəsinə yüksəldən və məhəbbəti ən qiymətli dünya dəyəri adlandıran nizami insan psixologiyasında dərindən bələd olan söz şərrafi idi.

Hər bir ailənin həyatında xalqın ruhu, mənəviyyati yaşayır, elin-obanın adət-ənənələri nəsildən nəslə verilir. Oğlan tərbiyəsi kimi qız tərbiyəsinin də önəmli qayda-qanunları olub.Qız uşaqlarına kiçik yaşlarından öz körpə bacı-qardaşlarına baxmağı, qulluq

etməyi öyrədir. Qızları ailə həyatına psixoloji cəhətdən hazırlayarkən onlara kiçik yaşlarından öz ataları və qardaşları timsalında kişiyə hörmət etməyi öyrədirlər. Nənə və ana, bibi və xala ənənəvi ailədə qız uşağının ən yaxın məsləhətçiləri idilər.

"Xəmsə"də də bu konstekstdə Məhin Banunun öyüdləri qeyri-adi psixoloji Meyarlarla təsfir olunmuşdur. Məhin Banunun Şirinlə münasibətləri əslində ana-bala münasibətlərini xatırladır.

Nizaminin fikrincə, tərbiyə ikitərəfli prosesdir. Onun uğurları bir tərəfdən tərbiyə olunanın, digər tərəfdən tərbiyə verənin xüsusiyyətlərindən asılıdır. Nizami bu kontekstdə Məhin Banunun şəxsiyyətini "pak adam" kimi səciyyələndirərək göstərir ki, pak adam gövhəri təmiz saxlasa, gövhər də torpağa bulaşmaz.

Nizami Gəncəvinin əsərləri böyük psixoloji əhəmiyyətə malikdir. Psixoloji tədqiqatlar göstərir ki, ailənin tərbiyə funksiyası yeni nəsillərə biliklərin, bacarıq və vərdişlərin, norma və dəyərlərin, mənəvi sərvətlərin ötürülməsini və uşaqların sosiallaşmasını əks etdirir.

***Ədəbiyyat:***


1. Əlizadə Ə.Ə. "Xəmsə"də yaş və pedaqoji psixologiya məsələləri. Bakı, "Renessans" nəşriyyatı, 2002.
2. Əlizadə Ə., Şirinova Z. Nizami Gəncəvinin psixoloji görüşləri. Bakı, ADPU-nun mətbəəsi, 2006
3. Nizami Gəncəvi. Sirrlər xəzinəsi. "Lider Nəşriyyat". Bakı, 2004.
4. Apoyev B. Nizami Gəncəvinin pedaqoji görüşləri. "Adiloğlu". Bakı, 2008.


## INTRA-FAMILY RELATIONS AND ISSUES OF EDUCATION IN THE WORKS OF NIZAMI GANJAVI


**GUNASH AFANDIEVA**
*Senior Lecturer, Department of General Psychology, ADPU*
*gunes.efendiyeva1953@gmail.com*


### SUMMARY


The works of great writer reveal the main psychological features of relationships in the family and their influence of the process of education, as well as the expression of these relationships in the assessment of the child's actions, his activities and in the formation of him as a person. The article describes the distinctive relationships between father and son, between mother and daughter, which and are key moments of the development of the child as a person.

# NİZAMİ GƏNCƏVİNİN "SİRLƏR XƏZİNƏSİ" ƏSƏRİNDƏ ŞƏXSİYYƏTİN MƏNƏVİ TƏRBİYƏSİ MƏSƏLƏLƏRİ

**Simnarə Heydərova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Pedaqoji psixologiya kafedrasının müəllimi*
*psixol. üzrə fəl. dok.,dos.*
*simnarah@gmail.com*

***Açar sözlər:*** *Sirlər xəzinəsi, şəxsiyyət, tərbiyə, psixologiya, mənəvi tərbiyə.*
***Keywords:****Treasure of Secrets, personality, upbringing, psychology, spiritual upbringing.*

Cəmiyyət inkişaf etdikcə müxtəlif mövzular haqqında müxtəlif nəzəriyyələr formalaşır. Nəzəriyyələrin heç biri hər hansı mövzunu tam olaraq izah edə bilmir. Hər bir nəzəriyyə sadəcə bir aspektdən məsələnin izahını verir. Müxtəlif mədəniyyətlərdə, dinlərdə görürük ki, insanlar istər günlük işlərdə, istər elmi işlərdə eyni mövzunu vahid, tək bir aspektdən həll etməyə yanaşmır. Və ortaya müxtəlif mədəni fərqlər, fikir ayrılıqları çıxır. Bunun həm müsbət, həm də mənfi tərəfləri vardır. Əsas mənfi tərəf budur ki, bütün bu fərqlər insanlar tərəfindən eyni səviyyədə qarşılanmır. Müasir dövrdə bununla bağlı olaraq humanizm, tolerantlıq terminlərini çox istifadə edirlər. Hər kəsi insanlara, müxtəlifliyə qarşı daha tolerant, daha humanist davranmağa sövq edirlər. Humanizm prinsipi tərbiyənin əsas prinsiplərindən biri hesab olunur. Amma bununla yanaşı insanlar hər zaman deyilən fikirləri eyni səviyyədə qəbul etmirlər, buna görə də bəzən bu fikir ayrılıqları insan tələfatlarına yol açır. Çünki insanlar daha sərt yollara əl atırlar. İstədiklərinin doğru olduğunu daha sərt yollara baş vurmaqla həll etməyə çalışırlar. Bunun səbəblərindən biri budur ki, həqiqət hər zaman şirin deyildir. Bəzən acıdır. Və hər kəs həqiqəti eyni səviyyədə qəbul edə bilməz.

Psixologiyada şəxsiyyətin özünüqiymətələndirmə anlayışı vardır. Burada deyilir ki, insanlar özlərini yuxarı, aşağı və adekvat qiymətləndirə bilirlər. Əgər insan özünü yuxarı və ya olduğundan aşağı qiymətləndirərsə, bu ona zərər verər. Belə bir fikir var. "İnsan yanlış hesab etdiyi bir şeyi etməz". Məsələ burasındadır ki, zamanla doğru hesab edərək etdiyimiz seçimlərin yanlış olduğunu müşahidə edə bilərik. Hind filosoflarından olan Osho bu haqqda deyirdi ki, "zaman keçdikcə

səhv çıxan qərarlarınızı bugünkü düşüncənizə görə deyil, o seçimi etdiyinizdə sahib olduğunuz düşüncəyə görə dəyərləndirin. Əks halda bütün həyatınızdan peşman olarsınız". Amma N. Gəncəvi bunun əksini fikirləşirdi. Həqiqətin acı olmasına baxmayaraq onun qəbul edilməsinin, eyni zamanda həqiqəti sənə göstərənə qarşı nəzakətli davranmanın vacib oduğunu deyirdi. Bu beytində bunu görə bilərik:

*Özünü qır, aynanı qırmaq yaraşmaz sənə.* (4, 85)

Şəxsiyyətin mənəvi tərbiyəsinin məzmununa borc, ədalət, yalan, səxavət, vicdan, vəfa, etiqad və s. kimi mövzularda insanda formalaşan müxtəlif keyfiyyətlər daxildir. Biz bu tezisdə N.Gəncəvi bu mövzulara münasibətini təhlil edəcəyik.

Müasir dövrümüzdə belə bir fikir daha çox gündəmdə işlədilir – "Anı yaşa". Amma N.Gəncəvinin bu beytindən də gördüyümüz kimi o, tamamilə bu fikrə qarşı idi. O deyirdi ki, aqil insanda tapılan ən önəmli xüsusiyyətlərdən biri onun gələcəyini düşünməsi və bununla bağlı tədbir görməsidir. Əgər tədbir görməsə, bunun mənfi nəticələri ola biləcəyini deyirdi və ayrıca qeyd edirdi ki, təəssüf ki, çox insanı öz aqibəti düşündürmür.

Son dövrlərdə tənqid etmək mədəniyyəti haqqında müxtəlif fikirlər irəli sürülür. Xüsusi ilə yeniyetmələrin əməllərini, gənclərdəki bəzi xüsusiyyətləri tənqid etmək, onların yanlışların görüb onlara bu haqqda demək üslubu barəsində müxtəlif fikirlər ortaya çıxır. Ümumiyyətlə, tənqidin bir neçə növü fərqləndirilir. Belə fikir deyilir ki, uşaqları tənqid edərkən diqqətli olun. Daim tənqid etmək olmaz. Müəllimlər tənqid edərkən üslublarında humanist olmalıdırlar. Eyni zamanda sadəcə mənfi xüsusiyyətlərə diqqəti cəmləmək olmaz. Uşaqların müsbət xüsusiyyətlərini də görmək lazımdır ki, onlarda özgüvən əskikliyi formalaşmasın. Əgər şagirdlərdə, gənclərdə özgüvən əskikliyi formalaşsa, onlar sosial ortamlarda özlərini rahat ifadə edə bilməyəcəklər. Ölçüsünü aşan tənqid insana müsbət xüsusiyyətlər formalaşdırmaq əvəzinə dağıdıcı təsir göstərə bilər. Tənqid zamanı önəmli amillərdən biri bu tənqidi fikirlərin hansı məqsədə xidmət etməsidir. Kor-korənə tənqid etmək də dağıdıcı təsirə malikdir. Buna görə də elmi ədəbiyyatlarda bu tənqid növləri destruktiv, yəni dağıdıcı tənqid adlanır. N. Gəncəvi də bu mövzuya öz münasibətini belə bildirmişdir. O deyirdi ki, "qarğanın bütün bədəni qara olmasına baxmayaraq, gözləri ağdır və sən çalış ağ gözləri gör". "Tovuz quşunun rəngarəng qanadları olmasına baxmayaraq, ayaqları eybəcərdir və sən bu eybəcərliyi görmə". N.Gəncəvi insanın başqa bir insanın eybini birinci görməmişdən əvvəl öz eybini görməsinin

vacib olduğunu deyirdi. Digər insanların eyiblərinin hamısının görülməsinin tərəfdarı deyildi. Lazım olan müsbət xüsusiyyətlər daxilində mənfi xüsusiyyətlərdə güzəştə gedilməsinin vacib olduğunu deyirdi. "Sirlər xəzinəsi" əsərində bu mövzuya bir neçə yerdə toxunub. Bununla bağlı "Ölmüş itin hekayəsi" hissəsində bu mövzuya müraciət etdiyini görə bilərik. Burada da itin ölməsinə, pis iy verməsinə baxmayaraq, hələ ağ dişlərinin necə gözəl olduğunun ona baxan insanlar tərəfindən görülməsini istəyirdi.

N.Gəncəvinin önəm verdiyi digər mövzulardan biri "orta həddi, ölçünü" qorumaqdır. Təbii fəlakətlərin nədən baş verməsini izah edən nəzəriyyələrin birində deyilir ki, insanlar təbiətə qarşı davranışlarında ölçünü qaçırdıqları üçün təbiət də qarşılığında onlara bu fəlakətlərlə cavab verir. Uşaqların tərbiyəsi mövzusunda deyilir ki, onlara humanizm prinsipindən yanaşılmalıdır. Onlara qarşı qayğıkeş davranılmalıdır. Onlara qarşı yanaşma da cəza və rəğbətləndirmə sistemi doğru və ölçülü istifadə olunmalıdır. Əgər uşaq həddindən ziyada cəzalanırsa, özünü qiymətləndirməsi adekvat olmaz. Bu da onu inkişafdan geri qoyar. Əgər uşaq həddindən çox sevilsə, yanlış əməlləri diqqətə alınmayıb vaxtında doğru tədbir görülməsə, o zaman uşaq yenə özünü adekvat qiymətlənirə bilməz.

Bizim fikrimizcə, N.Gəncəvinin önəm verdiyi ən vacib mövzulardan biri ünsiyyət qurmaq, danışmaq mədəniyyətidir. "Sirlər xəzinəsi" əsərində biz bir neçə ayrı-ayrı hissələrdə bu mövzuya toxunduğunu görə bilərik. Ünsiyyət psixologiyanın ayrı bir bölməsidir və bu hissədə bu mövzu haqqında yetəri qədər məlumat verilir. Buradakı fikirlərdən birində deyilir ki, ünsiyyətin 3 tərəfi vardır. Bu tərəflərin hər biri ayrı-ayrı keyfiyyətləri özündə birləşdirir. Məsələn: ünsiyyətin kommunikativ tərəfində deyilir ki, ünsiyyətdə iki tərəf iştirak edir – ötürən və qəbul edən. Ünsiyyət qurduğumuz zaman kiminlə ünsiyyət qurduğumuz önəmli bir amildir. Uşaqlarla ünsiyyət qurarkən 3 prinsipə əməl edin. "*Kiminlə ünsiyyət qurursuz, nə danışırısız, hansı formada danışırsınız". "*Hansı üslubda danışırsız" fikiri ilə bağlı folklorda deyilir ki, "şirin dil ilanı yuvasından çıxarda bilər". N.Gəncəvinin bu mövzu ilə bağlı belə bir beytinin təhlilini verək.

*Dilini saxlayanlar nə dolaşır, nə çaşır,*
*Hürmək yalnız qudurğan itlərə yaraşır.*
*Tez kəsilər uzun dil, unutma bircə anda*
*Dil ağızda gözəldir, qılınc qınında.(4,75)*

"Şəxsiyyət", ünsiyyət, azadlıq, inkişaf, tolerantlıq, multikulturalizm, ədalət, insaf kimi sosial psixoloji

keyfiyyətlər humanist psixologiyanın əsas anlayışlarından biridir. Bu keyfiyyətlər kamilliyə çatmağın yollarını daha qısa, uğurlu və mükəmməl edir. İnsan bu yola qədəm qoyarkən dünya ilə üzbəüz durur, onu dərk edib mənimsəyir, insanlıq dərəcəsinə yüksəlir.

***Ədəbiyyat:***

1. Qənimətoğlu S. Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanının şərhi, Bakı: 2015, 667s.
2. Quliyeva.X.N. Azərbaycan maarifçiliyində fəlsəfi-estetik məsələlər, Bakı, Elm və təhsil, 2014, 274 s.
3. Yusifli.X,Səfərli.Ə. Azərbaycan ədəbiyyat tarixi, Bakı, Ozan, 2008.
4. Yusifli.X. "Sirlər Xəzinəsi", Bakı, Adiloğlu, 2011, 253s.

## ISSUES OF MORAL EDUCATION OF PERSONALITY IN NIZAMI GANJAVI'S "TREASURE OF SECRETS"

**Heydarova Simnara Nadir**
*Azerbaijan State Pedagogical University*
*Department of Pedagogical Psychology*
*simnarah@gmail.com*

### SUMMARY

Valuable thoughts and ideas of Nizami about morality and moral upbringing, his wise words played an important role in the spiritual upbringing of many generations and retain their significance to them. Negative moral traits in Nizami's work: envy, lying, slander, betrayal, hypocrisy, malice, gossip, cowardice, unwillingness, insecurity, greed, laziness, selfishness, insecurity. He condemned such things and tried to keep people away from them. In his works, the poet not only showed negative, harmful moral qualities, disruptive human morality, but also nurtured positive qualities in people. Honesty, will, generosity, kindness, benevolence, justice, etc. The role of such qualities in the formation of the spiritual image of man is also noted.

# NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞINDA ŞƏXSİYYƏTİN MƏNƏVİ TƏKMİLLƏŞMƏSİ PROSESİNƏ AİLƏ TƏRBİYƏSİNİN TƏSİRİ MƏSƏLƏLƏRİ

**Könül Həsənquliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Pedaqoji psixologiya kafedrasının müəllimi*
*a.ilkin_74@mail.ru*

***Açar sözlər:*** *şəxsiyyət, yaradıcılıq, ailə tərbiyəsi, uşaq, valideyn.*
***Keywords:*** *personality, creativity, family upbringing, child, parent.*

Tarix boyunca mövcud olan və əbədi kateqoriyalardan biri də ailə anlayışıdır. Ailə anlayışının məzmunu da dövr dəyişdikcə dəyişmişdir. Müasir dövrdə qurulan ailələrin strukturu, xüsusiyyətləri ilə əvvəlki dövrlərdə qurulan ailələrin strukturu fərqlidir.

Bir şəxsiyyətin formalaşmasına genetik faktorla bərabər, sosial faktorlar da təsir edir. Ailədə valideyinlərin xarakteri, həyat tərzləri uşağın formalaşmasına öz təsirini göstərir. Ailədə tərbiyə prosesi bir sıra prinsiplər əsasında qurulmalıdır. Biz burada bəzi prinsiplərin adlarını çəkəcəyik:

Tərbiyə zamanı uşaqların psixoloji xüsusiyyətlərinin nəzərə alınması. Biz bunu daha çox gənclərin peşə seçimində görə bilərik. Valideynlər uşaqlarının bacarığı daxilində olmayan peşələrə yiyələnmələrini onlardan istəyir. Yaradıcılıq qabiliyyəti olan uşağı riyazi qabiliyyətlər tələb edilən sahələrə istiqamətləndirmək istəyirlər. Və yaxud onlara tərbiyə verilərkən temperament xüsusiyyətlərini nəzərə almırlar.

Uşaqlara tərbiyə verərkən onların yaş, cins kimi xüsusiyyətləri nəzərə alınmalıdır. Müşahidələrimiz göstərir ki, bütün ailələrdə bu prinsipə əməl olunmur. Bəzən valideyinlər uşaqdan onun yaşına uyğun olmayan formada davranmasını, daha yetkin formada davranmasını istəyir. Ən çox rast gəlinən problemlərdən biri yeniyetməlik dövründə baş verir. Valideynlər yeniyetmənin artıq uşaq olmadığını qəbul etməkdə çətinlik çəkirlər. Ona yaşına uyğun davranmırlar. Bu da yeniyetmələr ilə valideynlər arasındakı ünsiyyəti daha da çətinləşdirir.

Bunun kimi bir sıra prinsiplərin adlarını çəkə bilərik. Əgər ailədə qurulan tərbiyə məqsədyönlü olmasa, müəyyən prinsiplərə tabe olmasa, bu tərbiyənin bir nəticəsi ola bilməz. Valideynlər uşaqlarda doğru tərbiyə formalaşdıra bilməz. Ayrıca bunu da

qeyd etməliyik ki, uşaq artıq məktəbə getməyə başladıqdan sonra ailə onun tərbiyəsində müəllimlərlə əməkdaşlıq etməlidir.

Nə yazıq ki, bu problemlə də sıx-sıx qarşılaşırıq. Bu problemin müasir dövrdə daha çox olduğu müşahidə edilir. Bunun səbəblərindən biri isə, hətta ən önəmlisi deyə bilərik, valideyimlərin iş həyatıdır. Xüsusilə də işləyən analar uşaqların tərbiyəsinə daha az vaxt ayırır. Uşaqlar təkbaşına özləri böyümək məcburiyyətində qalırlar, ya da dayələri ilə böyüyürlər. Bunun həll yolu kimi müasir dövrdə gənclər, ya ailə qurmamaq yolunu seçirlər, ya da sadəcə ailədə bir uşaqla kifayətlənmək yolunu seçirlər ki, bu hər iki yolun nəticəsi gələcəkdə cəmiyyətin inkişafına zərərdir. Bu zərər isə dünya əhalisini getdikcə azalması deməkdir.

Hər mədəniyyətin ailə tərbiyəsinin özünəməxsus səciyyəvi xüsusiyyətlərini elmi əsərlərlə yanaşı, bədii əsərlərdə, eyni zamanda filmlərdə görə bilərik. Bu tezisdə N.Gəncəvinin əxlaq tərbiyəsi haqqında fikirlərini və eyni zamanda onun yaradıcılığında ailə tərbiyəsinin sosial-psixoloji xüsusiyyətlərini təhlil edəcəyik. Nizami Gəncəvinin əsərlərində də ailənin psixoloji xüsusiyyətlərinin təhlilini verərkən bir az əvvəl yuxarıda adlarını sadaladığımız keyfiyyətləri əks etdirdiyini görə bilərik. Eyni zamanda Nizami Gəncəvi ailənin sosial-psixoloji xüsusiyyətlərini göstərməklə yanaşı, "ailədə uşaqların tərbiyəsi necə olmalıdır?" mövzusuna dair də öz fikirlərini bildrmişdir. "İsgəndərnamə" əsərinin "Şərəfnamə" adlanan hissəsində belə bir beyt göstərilir".

*Hər bir şey təməldən möhkəm qurulur,*
*Təməlsiz binalar çox tez də uçulur.*
*(6,90)*

Bu beytdən də bizlərə aydın olduğu kimi, Nizami Gəncəvi hər bir şeyin təməli olduğunu və burada önəmli olan amilin – təməlin möhkəmliyini bizlərin diqqətinə çatdırır. Ailə tərbiyəsindən danışanda yuxarıda qeyd etdiyimiz kimi, ailə tərbiyəsi şəxsiyyətin tərbiyəsinin təməlidir. Əgər ailə tərbiyəsində, yəni təməldə boşluqlar olarsa, bu tərbiyənin bir nəticəsi olmaz. Həmçinin təhsil vasitəsi ilə alınan tərbiyənin də nəticəsi yetərli olmaz.

*Mənə şəfqət göstərsən, bağlamasan kin,*
*Kim kəsər başını şəfqət edənin.*
*(6, 150)*

Ailədə uşağa tərbiyə vermək tədbirli olmağı, doğru planlaşdırmağı gərəkdirir. Tərbiyədə vahidlik olmazsa, eyni zamanda vaxtında uşaqların tərbiyəsinə qarşı tədbir görülməsə sonradan uşaqları yenidən tərbiyə etmək çətin, hətta imkansız hala gələ bilər.

N.Gəncəvi də bu mövzu barəsində olan münasibətini bu beytində göstərmişdir:

*Tədbirlə açılar bu çətin işlər,*
*Ağacda zamanla açar çiçəklər.(6, 60)*

Buradan da aydın olduğu kimi, N.Gəncəvi üçün hər işə, eyni zamanda tərbiyə, ailə tərbiyəsi mövzusunda da bu prosesə tədbirlə başlamaq və tələsməmək lazım olduğunu, hər şeyin bir nəticəsi olması üçün zamana ehtiyacı olduğunu, zamanla ya müsbət, ya da mənfi nəticələrə sahib olduğumuzu bilməyin vacibliyini bizlərə çatdırmaq istəyir.

N.Gəncəvi şəxsiyyətin strukturunda özünü göstərən tərbiyəvi psixoloji xüsusiyyətlərdən biri olan yaxşılıq, ədalətlilik xüsusiyəti haqqında "Sirlər xəzinəsi" əsərinin "Nüşirəvanla vəziri və bayquşların söhbəti hekayətin"də öz fikrini bu beytlərlə göstərməyə çalışır:

*Yaxşılığı əzəldən adət etsən özünə,*
*Yaxşılığın hər yanda qapı açar üzünə.*
*Hər əməlin üstündən sanma keçəndi dövran,*
*Hər yaxşını, yamanı yaxşı seçəndi dövran. (3, 70)*

Bu beytlərdən də aydın olduğu kimi, əməl olaraq yaxşı əməl görülməsinin daimi öncəlik olduğunu bizlərə çatdırmaq istəyirdi.

Milli-mənəvi dəyərləri, yəni insanpərvərliyin təzahür formalarından biri kimi valideyin–övlad münasibətlərindəki qarşılıqlı sevgi, ağsaqqallara, böyüklərə hörmət və izzət bütün poemalarında öz əksini tapmışdır. "Əxlaqı daha gözəl olan möminin imanı daha kamildir...." (Peyğəmbər. S.) fikirlərini Nizami Gəncəviyə şamil etmək olar, onun ata-anasına göstərdiyi dərin ehtiram Məhəmməd peyğəmbərin "cənnət anaların ayaqları altındadır" ideyasını əsərlərində inkişaf etdirən, "gözümün nuru", "qəlbimin sevinci" adlandırdığı oğlu Məhəmmədə böyük diqqət və qayğı göstərən şairin özünün şəxsi nümunəsində görürük. Oğluna nəsihətnaməsini "Xosrov və Şirin" poemasında yazmışdı:

*"Övladın iqbalı olsa ona yar,*
*Ata sevgisindən bəxtiyar olar";*
*"Nə eyləsə sənə övladın, inan,*
*Onu görəcək öz övladından"* və s.

Ailə tərbiyəsində uşaqlara olan münasibətdə son dövrlərdə dostluq münasibətlərinin göstərilməsinin vacib olduğunu deyən bəzi nəzəriyyələr mövcuddur. N.Gəncəvi bununla bağlı deyirdi ki, "dostluq iddiasında olan şəxs mütləq sözdən daha artığını etməlidir". Mütləq əməllərində də bunu qarşısındakına göstərməyə çalışmalıdır. Ailələrdə müşahidə edilən problemlərdən biri də, sözlə əməlin uyumsuzluğudur. Bu istər onlarla sevgi münasibəti qurarkən, istərsə də onlarda hər hansı bir şeyin yanlış və ya doğruluğuna qarşı münasibət formalaşdırarkən yerinə yetirilməsi lazım olan qaydalara riayət edilməsidir.

Hər bir bir mədəniyyətin özünə məxsus ailə tərbiyəsi olduğu kimi, hər bir ailənin də özünəməxsus tərbiyə anlayışı mövcuddur. Buna görə fərdlər bir-birindən fərqlənən tərbiyəyə malik olurlar. Bir cəhəti də qeyd edək ki, ailələrdə tərbiyə sistemi hər zaman doğru formada qurulmur. Və bu da istər ailə üçün, istər fərdin özü üçün, istərsə də cəmiyyət üçün mənfi nəticələrə gətirib çıxarır.

***Ədəbiyyat:***


1. Abdullayev H.B., Vəliyev L.M. Nizami Gəncəvinin elm dünyası. Bakı, Gənclik, 1991, 148 s.
2. Allahverdiyeva S. Nizami mənəvi keyfiyyətlər haqqında // Nizami yaradıcılığında təlim-tərbiyə məsələləri. Ümumrespublika ali məktəblərarası konfransın məruzə tezisləri. Bakı, BDU, 1991, səh. 27-28.
3. Əliyev R. Nizami Gəncəvi və onun "Sirlər xəzinəsi" poeması // Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı, "Yazıçı", 1981, səh. 5-18.
4. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, "Yazıçı", 1982, 401 s.
5. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı, "Yazıçı", 1982, 304 s.
6. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı, "Yazıçı", 1982, 687 s.


## ISSUES OF THE INFLUENCE OF FAMILY UPBRINGING ON THE PROCESS OF SPIRITUAL DEVELOPMENT OF PERSONALITY IN THE WORKS OF NIZAMI GANJAVI


**Konul Hasanquliyeva**
*Azerbaijan State Pedagogical University*
*Department of Pedagogical Psychology*
*a.ilkin_74@mail.ru*


### SUMMARY


According to Nizami, it is possible to raise a young generation that will be useful to society in families that stand on solid foundations. Nizami took a more humane and original position on the family issue. According to him, the family should have two main goals in common: first, the family to meet the material and spiritual needs of man and help him fulfill his social and personal responsibilities, second, to reunite the parents, to raise children, but also. These two goals of the family are often intertwined, and one creates the basis for the realization of the other.

# NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞI

**Şəfəq Ələkbərova**
*Psixologiya Elmi-Tədqiqat İnstitutunun Psixoloji Xidmət və Reabilitasiya Mərkəzinin mütəxəssisi*

***Açar sözlər:*** *əxlaqi dəyərlər, ideal şəxsiyyət, tərbiyə*
***Keywords:*** *moral values, ideal personality, upbringing*

Dahi mütəfəkkir Nizami Gəncəvinin fəlsəfi-pedaqoji baxışına görə şəxsiyyət hərtərəfli inkişaf etmiş kamil insandır. Şəxsiyyətin inkişafında irsiyyətin və digər amillərin özünəməxsus rol oynamasını qeyd edirdi. İrsiyyət amilinə "Xosrov və Şirin", "Yeddi gözəl" poemalarında toxunmuşdur. Demək olar ki, bütün poemalarında "əgər insansansa, insanları sev" məsləhətini verən insanpərvər şair, yaxşı adamlarla durub-oturmağı, bədəsil olanlardan uzaq durmağı gözəl tərbiyənin əsas şərtlərindən biri hesab edirdi.

*Ağıllı adamla dost olsan əgər,*
*Elmi mərifəti sənə də keçər.*

"İsgəndərnamə" poemasından olan bu misralarda şair bizə öyrədir ki, elmli, mərifətli adamla dost olsan həmin keyfiyyətlər sənə də keçər. Şəxsiyyətin formalaşmasında mühitin təsiri məsələsinə şair "Xəmsə"nin üçüncü poeması olan "Leyli və Məcnun"da daha geniş toxunmuş və öyrətməyə çalışmışdır ki, əlverişli mühit insanda müsbət əxlaqi keyfiyyətləri, qeyri-sağlam şərait isə mənfi əxlaqi sifətlərin, qeyri-insani əlamətlərin yaranmasına səbəb olur.

Böyük insanpərvər və maarifpərvər olan dahi Nizami inanırdı ki, ideal şəxsiyyət yalnız ideal cəmiyyətdə formalaşa bilər. Ona görə də, ilk poemasından ( "Sirlər xəzinəsi") yaradıcılığının zirvəsi olan "İsgəndərnamə"yədək bütün əsərlərində ədalətli, demokratik, azad cəmiyyət, insanı hərtərəfli inkişaf etmiş şəxsiyyət (kamil insan) səviyyəsinə yüksəldə bilən bir cəmiyyət ideyasını təbliğ etmişdir. Şairin fəlsəfi baxışına görə yalnız belə bir cəmiyyətdə – sosial mühitdə yaşayan insanlar xoşbəxt ola bilərlər.

İdeal cəmiyyət ideyasını öz poetik fantaziyasının gücü ilə həyata keçirən mütəfəkkir şair " İqbalnamə"də yüksək zirvəyə çatdırmaq istədiyi İsgəndəri "ədalət yurdu"na aparıb çıxarır. Həmin yurdda cəmiyyətin bütün üzvləri bərabərdir, onlar düzlükdən başqa yol tanımır, əyri dolanmaqla, xəbərçiliklə, yalan danışmaqla işləri

yoxdur, bir nəfər də olsa, oğurluq etməz, heç kəs kimsənin işinə qarışmır, hamı dərdlinin dərdinə şərik olur, köməksizlərin köməyinə çatır. Bir sözlə, humanist şairin görmək istədiyi və təsvir etdiyi bu “Ədalət yurdu”nda, sözün əsl mənasında, əsl demokratik, azad cəmiyyət, sağlam sosial mühit mövcuddur.

Şəxsiyyətin formalaşmasında irsiyyət amilinin rolunu şişirdən müasirlərindən fərqli olaraq dahi maarifpərvər şair elmə, təhsilə, təlim-tərbiyəyə daha çox diqqət yetirmiş, “Xəmsə”də bu məsələ ilə bağlı dəyərli pedaqoji fikir və ideyalar irəli sürmüşdür.

Dahi şair Nizami “tərbiyə” anlayışına çox geniş mənada yanaşmış, buraya dərin elmi biliklərin mənimsənilməsi, zəngin mənəvi keyfiyyətlərin aşılanması, zəruri bacarıq və vərdişlərin formalaşdırılması proseslərini daxil etmişdir.

Kamil insanın – əsl şəxsiyyətin formalaşmasında elmin, təhsilin, geniş və dərin biliklərə yiyələnməyin böyük rol oynadığı barədə fikirlərini “ Xəmsə”yə daxil olan bütün əsərlərində aydın və parlaq şəkildə əks etdirmişdir. “ Qüvvət elmdədir, başqa cür heç kəs heç kəsə üstünlük eyləyə bilməz” deyən şairin fikrinə görə, insanı digər canlılardan fərqləndirən başlıca əlamət onun ağlı, kamalıdır. Ağılın çırağı isə elmdir, bilikdir. Ağılı-kamalı isə insan təhsil və təlim-tərbiyə nəticəsində əldə edir. Şair-pedaqoq dərin və sistemli biliklərə yiyələnmək işində xüsusi təşkil olunmuş təlim prosesinin rolunu “kamil insan” kimi tərənnüm etdiyi İsgəndərin təlim alması səhnəsində açıq-aydın göstərmişdir.

İnsan təlim sayəsində nəinki kamillik zirvəsinə, “iqlimlər qazisi” mərtəbəsinə, hətta, “mələk” səviyyəsinədək ucala bilər. Təlim nəticəsində hər kəs yox, “iti zehnə” sahib olanlar, təlimə maraq və həvəs göstərənlər “iqlimlər qazisi” mərtəbəsinə qalxa bilər. Bu isə o deməkdir ki, dahi Nizami şəxsiyyətə təsir göstərən amilləri ayrı-ayrılıqda deyil, qarşılıqlı əlaqədə nəzərdən keçirmişdir.

***Ədəbiyyat:***


1. Seyidov Ə. Pedaqogika tarixi. Bakı, Maarif, 1968, s.136
2. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Dərs vəsaiti. Bakı, ABU, 2001, s. 59–62
3. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı, Elm və təhsil, 2014, s. 53–57
4. Talıbov Y.R. Sadıqov F.B. Quliyev S.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi: Tədris vəsaiti. Bakı, Ünsiyyət , 2000, s. 51–101

# CREATIVITY OF NIZAMI GANJAVI

**Alakbarova Shafag**
*Psychological Research Institute*
*Center for Psychological Services and Rehabilitation specialist*

## SUMMARY

Based on this concept, Nizami created a very important and valuable concept of human personality by utilizing the endless possibilities of artistic thought, and reflected unique examples of philosophical, pedagogical and psychological thought into her poems.

# NİZAMİ GƏNCƏVİNİN AZƏRBAYCAN XALQINA VƏ DÜNYA ƏDƏBİYYATINA TÖHFƏSİ

**Rüstəm Kərimov**
*Psixologiya Elmi-Tədqiqat İnstitutu*
*Psixoloji Xidmət və Reabilitasiya Mərkəzinin mütəxəssisi*

***Açar sözlər:*** *milli şüur, humanizm, qadın hüquqları, dünya incəsənəti*
***Keywords:*** *national consciousness, humanism, women's rights, world art*

Bildiyimiz kimi, hazırda dünyada 196 dan çox dövlət və ondan qat-qat daha çox millət var. Bu millətləri bir-birlərindən fərqləndirən əsas nüans milli şüurdur. Milli şüurun formalaşmasında elm insanları, görkəmli mütəfəkkirlər və dahi şəxsiyyətlər mühim rol oynayır. Azərbaycanda da milli şüurun formalaşmasında Nizami Gəncəvinin müstəsna rolu vardır. Milli şüurun komponentlərindən biri də milli xarakterdir. Azərbaycan xalqı digər xalqlardan qonaqpərvərliyi, xeyirxahlığı və mərhəməti ilə fərqlənir. Düşünürəm ki, bu xüsusiyyətlər humanist yanaşma təsiri nəticəsində formalaşmışdır. Və biz Nizami Gəncəvinin yaradıcılığına baxdığımız zaman görə bilərik ki, o, humanizmi təbliğ edir. Şübhəsiz, bu onun göstərir ki, Nizami öz əsrinin misilsiz humanist mütəfəkkiri olmuşdur. Onun əsərlərində irəli sürdüyü sosial-siyasi ideyaların məzmunu da bunu təsdiq edir. Mütəfəkkir lirik əsərləri ilə yanaşı, "Xəmsə"yə daxil olan əzəmətli poemalarında da dövrün sosial-siyasi problemlərinin həllinə toxunmuşdur.

Nizaminin sosial-siyasi ideyaları Azərbaycanın siyasi və hüquqi fikir tarixinin inkişafında mühüm rol oynamış, Yaxın və Orta Şərqin fəlsəfi, ictimai-siyasi fikrində humanist, demokratik ideyaların formalaşmasına və inkişafına təsir göstərmişdir.

Bildiyimiz kimi, Azərbaycanda 1918-ci ildə Şərqdə ilk dəfə qadınlara seçmək və seçilmək hüququ vermişdir. Bu hüquq spontan verilmədi. Bu hüququn verilməsi uzun tarixi prosesdən keçib. Bu hüququn verilməsi milli şüurun göstəricisidir. Belə bir milli şüurun formalaş-masında Nizami Gəncəvinin əhəmiyyətli rolu vardır. Nizami Gəncəvi yaradıcılığında qadın hüquqlarının təbliğini görə bilərik. Həmin dövrün bədii əsərlərin əksəriyyətində müəllif-lər qadının kişiyə tabeçiliyini hər addımda əsaslandırmağa çalışmışlar. Elə buna görə də bəzi cəmiyyətlərdə qadın sosial həyatın əksər sahəsində mütəmadi olaraq diskri-

minasiyaya məruz qalmışdır. Lakin Nizami Gəncəvinin əsərlərində qadın obrazların bir çoxu güclü, ağıllı və cəsur olaraq təsvir edilmişdir. Bu da onu göstərir ki, Nizami qadın haqlarına dəyər verir və onu cəmiyyətdə təbliğ edirdi.

Nizami Gəncəvinin yaradıcılığından yalnız Yaxın və Orta Şərq təsirlənməmiş, eyni zamanda Qərb dünyası da bu yaradıcılıqdan öz töhfəsini almışdır. Nizamin "Yeddi gözəl" əsərindən ilhamlanaraq fransız yazar Fransua la Petit "Min bir gün" adlı əsərini yazmışdır. Daha sonra italiyalı yazar Gozzi bu hekayə əsasında komediya tamaşası olan "Turandot"u yazmış, opera bəstəkarı Puccini isə bu əsəri opera üçün yenidən hazırlamışdır. Və hələ də bu tamaşa dünyada öz populyarlığını qoruyub saxlayır. Bundan başqa, Companella və Tomas Morun adlarını çəkə bilərik ki, utopik dövləti təsvir edərkən, Nizaminin "İsgəndərnamə"sindən ilhamlanmışlar.

Bütün bunlardan aydın anlaşılır ki, Nizami Gəncəvinin yaradıcılığı dünya ədəbiyyatına və mədəniyyətinə təsir etmişdir. Zənnimcə, insanlıq tarixində çox az şəxsiyyət bu cür təsir gücünə malikdir. Nizami məhz o nadir insanlardan biri idi. Düşünürəm ki, Nizaminin yaradıcılığının təbliği layiqli, geniş miqyasda aparılmalı və onun yaradıcılığı daha da dərindən tədqiq olunmalıdır.

***Ədəbiyyat:***


1. "Nizami" (I kitab). Bakı, Elm. 1940.
2. Ağa Əhməd – Həft Asiman, Kəlküttə, 1873, səh.
3. Pöti de la Krua Les mille et jours (Paris, 1710–1712) adlı külliyyatını İran səfəri zamanı tərtib etmişdir. Turandot mövzusunun ən ilkin fars nəsr versiyası Ovfinin Nizaminin ölümündən qısa müddət sonra tərtib etdiyi "Hekayələr külliyyatı"ndadır.

# NIZAMI GANJAVI'S GIFT TO WORLD LITERATURE AND THE PEOPLE OF AZERBAIJAN

**Rustam Karimov**
*Psychological Research Institute*
*Center for Psychological Services and*
*Rehabilitation specialist*

## SUMMARY

Nizami's socio-political ideas played an important role in the development of the history of political and legal thought in Azerbaijan, influenced the formation and development of humanistic, democratic ideas in the philosophical, socio-political thought of the Middle East. At the same time, Nizami Ganjavi's work influenced western art.

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA PSİXOLOJİ MƏQAMLAR

**Tamilla Həsənova**
*Odlar Yurdu Universitenin Psixologiya ixtisasının*
*3-cü kurs tələbəsi*
*E-mail: Sailor_109@mail.ru*

***Açar sözlər:*** *psixologiya, şəxsiyyət, təlim, idrak, yaradıcılıq, psixi proses, hisslər, iradə*
***Keywords:*** *psychology, personality, training, cognition, creativity, mental process, feelings, will*

Nizami Gəncəvi böyük pedaqoq-psixoloq, filosof, ədib və mütəfəkkirdir. O, dünyamiqyaslı şəxsiyyətdir. O, mənsub olduğu millətin qüruru, fəxri, ləyaqət və güvənc mənbəyidir.

Nizami dövrün fəlsəfi-psixoloji fikrindən yaradıcılıqla bəhrələnmiş, onları intibah meyarları ilə dahiyanə surətdə inkişaf etdirmiş, öz dövrünün böyük nailiyyəti olan təkrar olunmaz fəlsəfi-psixoloji sistem yaratmışdı. Bu fikir Azərbaycan mədəniyyəti hadisəsi idi, öz ana kökləri ilə Azərbaycan gerçəkliyinə bağlı olduğundan, ancaq bu axarda düzgün təhlil oluna bilər. Onun insan konsepsiyası mahiyyətcə orijinal idi və XII əsr psixologiyasının böyük nailiyyəti kimi diqqəti cəlb edir. T.T.Babayevin qeyd etdiyi kimi, "Nizaminin təkcə Azərbaycan ədəbiyyatına deyil, ümumən Şərq ədəbi-ictimai və fəlsəfi-psixoloji fikir tarixinə gətirdiyi ən böyük və mühüm yeniliklərdən biri məhz təsvir etdiyi surətlərin daxili aləmini, mənəvi keyfiyyətlərini, psixoloji təkamülünü ön plana çəkməsi, onların davranış və hərəkətlərini psixoloji cəhətdən əsaslandırılmasıdır.

Nizami, ilk dəfə olaraq, canlı insan şəxsiyyətini yalnız bədii cəhətdən deyil, daha çox sosial psixoloji aspektdə təhlil obyektinə çevirmiş, əsas diqqəti şəxsiyyətin mənəvi inkişafına, daxili kolliziyalarına onun formalaşması və təkamülündə təbii, ictimai və fərdi amillərin dialektikasına yönəltmişdir. "Xəmsə"də insan psixologiyasının kökləri məhz mütəfəkkir şairin harmoniya haqqındakı təlimi əsasında araşdırılır və təhlil olunur. Hisslərin ambivalentliyi xüsusiyyəti Nizaminin "Xəmsə"sində ümumi psixoloji aspektdə geniş təsvir olunmuşdur. O, öz qəhrəmanlarının taleyində məharətlə göstərirdi ki, eşqdən insan həm gülür, həm də ağlayır. Bəzən "sərtliklə yumşaqlıq" eyni kökdə gizlənir. Şairin müşahidələrinə görə, hətta ilk baxışdan

bir-birinə zidd olanlar fenomenoloji sərgidə özünəməxsus şəkildə uzlaşırlar. Onun fikrincə, "sevən ürəklərdə qısqanclıq olur", "hər qorxu içində bir ümid də var, ümid zamanında qorxu da olar".

Nizami Gəncəvinin psixoloji təlimində məntiqi və hissi idrakın bir-birilə əlaqəsi anlamının ifadəsi deməkdir. İnsan özünü dərk etməklə həyatda tutduğu yeri, mövqeyi müəyyənləşdirir. Mövcud şeylər aləminin idrakına qədəm qoyur. Mütəfəkkir şairin fikrincə, psixi proseslərin xüsusiyyətləri və qarşılıqlı əlaqə formaları şəxsiyyətin özünün xüsusiyyətləri ilə şərtlənir. Mütəfəkkir şair özünün sevimli qəhrəmanlarının psixoloji aləmini məhz bu yönümdə araşdırmış və böyük ustalıqla təsvir etmişdir.

Nizaminin psixoloji görüşləri sistemində onun vərdişlərin mahiyyəti barəsindəki fikirləri xüsusi yer tutur. Mütəfəkkir şair vərdişlərin formalaşması qanunauyğunluqlarını məharətlə müəyyən etmişdi. Onun bu sahədə irəli sürdüyü fikirlər müasir psixologiyanın başlıca müddəaları ilə bilavasitə səsləşir.

Müasir psixologiyada vərdişlərin üç növünü – perseptiv, intellektual və hərəki vərdişləri ayırd edirlər. Onların formalaşmasında müxtəlif empirik amillər, xüsusilə motivasiya "əmsalı" mühüm rol oynayır.

Şəxsiyyət problemi Nizami yaradıcılığının başlıca və ciddi problemlərindən biri olmuşdur. Lakin indiyə qədər Nizami irsi əsasən ədəbiyyatşünaslıq baxımından, fəlsəfi-etik planda tədqiq olunduğundan bu mühüm məsələnin Nizami poeziyasında qoyuluşu və həllinin bütün cəhətləri elmi şərhini tapmamışdır. Nizaminin fikrincə, insanın "Mən"i onun sehrli-tilsimli psixi həyatının kökünü təşkil edir. İnsan öz "Mən"ini kəşf etməklə bu "tilsimi" qırır, Allaha qovuşur. İslam dəyərlərinə arxalanıb insanları özlərini dərk etməyə çağıran mütəffəkkir şair yazırdı:

*Çalış həqiqətlə özünü bil sən,*
*Allahı bilərsən özünü bilsən.*

Onun irəli sürdüyü insan konsepsiyasının ana xəttini kamil insan, öz idrakından istifadə etməyi bacaran, özünütərbiyə ilə daim məşğul olan, iradəli, qətiyyətli, comərd, doğruçu, düzlüyü hər işində rəhbər tutan, insan obrazı təşkil edir.

Nizami göstərirdi ki, insanın psixi sağlamlığı bilavasitə mürəkkəb hisslər aləmi ilə şərtlənir. Nizaminin hisslər aləmi mürəkkəbdir, özünəməxsus ziddiyyətlərlə seçilir. Hisslər nəzəriyyəsi üçün mühüm əhəmiyyətə malik olan bu qanunauyğunluq insanın özünün tələbat-motivasiya sahəsinin çoxçalarlı quruluşu ilə şərtlənirdi. "Xosrov və Şirin" və "Leyli və Məcnun"-da psixoloji baxımdan eynitutumlu emosional halətlər son dərəcə dəqiq

təsvir olunmuşdur. Nizami insanın psixi həyatında iradənin roluna böyük əhəmiyyət verirdi. O, "dəmir iradəni" zəfər çalmağın "qızıl açarı" sayırdı. Şairin fikrincə, insan gərək iradəsiz olmasın. İradəsiz adamlar qurt kimi yerdə sürünər. "Yenilməyən iradə" insanın mühüm məziyyətidir.

"Xəmsə"də müxtəlif iradi keyfiyyətlər zəngin bədii örnəklərlə təhlil olunur. İsgəndərin həyatı insanın iradə əzminə parlaq nümunədir. Şair obrazlı təfəkkürün axarında iradənin müxtəlif obyektiv və subyektiv çətinliklərin aradan qaldırılması ilə bağlı olduğunu məharətlə göstərmişdir.

Nizami hafizənin ümumi psixoloji xüsusiyyətlərini açıqlayaraq göstərirdi ki, cisim və hadisələrin "hərəsindən" insanın "yaddaşında bir nişan qalır". Yadasalma prosesində assosiasiyalar mühüm rol oynayır. Xatırlama isə daha mürəkkəb xarakter daşıyır. "Leyli və Məcnun"da Nizami Zeydin qəzəlləri yadına salmasında bu məqamları daha aydın şəkildə təsəvvür edir.

"Sirlər xəzinəsi" əsərində N.Gəncəvi yaradıcılığındakı etnopsixoloji xüsusiyyətlər aydın şəkildə öz əksini tapmışdır.

Humanistlik, özünüqiymətləndirmə, özünüaktuallaşdırma, özünüdərketmə, özünütənzimetmə, özünütəkmilləşdirmə, özünüidarəetmə, rəhbərlik və liderlik funksiyası onun irəli sürdüyü əsas ideyalardır.

***Ədəbiyyat:***


1. Abbasov M. Nizaminin psixoloji görüşləri. Namizədlik dissertasiyası. BDU, 1948.
2. Baxşəliyev Ə. Azərbaycanda psixoloji fikrin inkişafı. Bakı, Maarif, 1991.
4. Əlizadə Ə.Ə. Nizami Gəncəvinin psixoloji görüşləri: yaş və pedaqoji psixologiya məsələləri.
5. Ə.Əlizadə. Ə. Bayramov. Psixologiya dərslik. Bakı, 2006
6. Cavadova Z.S., Nizami Gəncəvinin əsərlərində insanın mənəvi təkamülünün psixoloji konsepsiyası. Bakı, 2016

# PSYCHOLOGICAL MOMENTS IN NIZAMI GANJAVI'S WORK

**Tamilla Hasanova**
*Odlar Yurdu University,*
*majoring in Psychology 3rd year student*
*E-Mail: Sailor_109@mail.ru*

## SUMMARY

In Nizami Ganjavi's work, the socio-psychological examination of personality, the separation of sensory and logical perception, the essence of habits, the emotional world are the basic psychological points. The poet's philosophical and psychological thoughts were reflected in his five poems called «Khamsa». The correct description of emotional feelings in «Leyli and Majnun», ethnopsychological features in «Treasure of Secrets», and the multifaceted structure of motivation in «Khosrov and Shirin» are a great success of the thinker-poet.

## R E D A K S İ Y A   H E Y Ə T İ

**Baş redaktor:**

Əliyev B.H. *(AMEA-nın müxbir üzvü, psixol.e.d., prof., Azərbaycan)*

**Baş redaktorun müavini:**

Seyidov S.İ. *(psixol.e.d., prof., Azərbaycan)*

**Məsul katib:**

Mustafayev M.H. *(psixol. üzrə fəls. d., Azərbaycan)*

## REDAKSİYA ŞURASI

Əliyeva K.R. *(psixol. e.d., prof., Azərbaycan)*
Əlizadə H.Ə. *(ped. e.d., prof., Azərbaycan)*
Əliyev R.İ. *(psixol. e.d., prof., Azərbaycan)*
Baxşəliyev Ə.T. *(psixol. e.d., prof., Azərbaycan)*
Qurbanova G.K. *(psixol. e.d., prof., Azərbaycan)*
Mehmet Engin Deniz *(psixol. e.d., prof., Türkiyə)*
Turan Akbaş *(psixol. e.d., prof., Türkiyə)*
Xudyakov A.İ. *(psixol.e.d., prof., Rusiya)*
Qədirova R.H. *(psixol. e.d., prof., Azərbaycan*)
Şəfiyeva E.İ. *(psixol. e.d., prof., Azərbaycan)*
İbrahimbəyova R.F. *(psixol. üzrə fəls. d., prof., Azərbaycan)*
Cabbarov R.V. *(psixol. e.d., dos., Azərbaycan)*



Redaksiyanın ünvanı: AZ 1069, Bakı şəhəri, Z.Bünyadov 38, II mərtəbə.
Telefon: 4390112, 5629961
Lisenziya: AV№022487. Qeydiyyat nömrəsi V 287, 19 aprel 1999-cu il.
Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi
www: psixologiyajurnali.az.
E-mail: psixologiyajurnali@gmail.com; psixologiyajurnal.az@bk.ru

Formatı 70x100 1/16. Fiziki çap vərəqi: 7,0
Tiraj: 300. Sifariş 138.
Qiyməti müqavilə ilə.
"Təhsil" nəşriyyatının mətbəəsində çap edilmişdir.



**© "Təhsil", 2021**